RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 77 (10097) 5 may 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır



### İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycana işgüzar səfər edib

**İlham ƏLİYEV:**

"Bizim ölkələrimiz strateji tərəfdaşdırlar, 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair iki bəyannamə imzalanmışdır. Bizim münasibətlərimizin əsasını təşkil edən bu iki sənəd və sənədlərdə təsbit edilmiş məsələlər bu gün həyatda da öz əksini tapır. Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür.

Bildiyiniz kimi, bizim siyasi əlaqələrimiz ən yüksək səviyyədədir. Eyni zamanda ticarət əlaqələrimiz də çox yaxşı vəziyyətdədir. İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır".

**Ciorcia MELONİ:**

"İtaliyanın Baş nazirinin Azərbaycana rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik. Bu, özünü nəinki ölkələrimizi bir-birinə bağlayan dostluq münasibətlərində, həmçinin İtaliya və Azərbaycan arasında çox mühüm əməkdaşlıqda göstərir. Bununla belə əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub. Beləliklə, təbii ki, apardığımız çox geniş söhbətə görə təşəkkür edirəm. Söhbətimiz əsasında daimi siyasi əlaqələndirmə yolu ilə əməkdaşlığımızı transformasiya etmək üzərində razılığa gəldik. Buradan gələcəyə aid prioritetləri birgə təyin edəcəyik. Düşünürəm ki, indi yaşadığımız mürəkkəb beynəlxalq müstəvidə bu, çox əhəmiyyətli seçimdir. Bununla belə, ətrafımızda olan qeyri-sabitlik artır və aramızdakı aydın məsələlərin həlli daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Həmin aydın olan məsələlərdən biri təbii ki, İtaliya ilə Azərbaycan arasındakı münasibətlərdir".

3-4

## İkili standartlar qəbuledilməzdir



### Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxış edib

Azərbaycan 2001-ci ilin yanvarından Avropa Şurasının üzvüdür. Yeri gəlmişkən, mən o vaxt parlament üzvü və Azərbaycanın nümayəndə heyətinin rəhbəri kimi AŞPA-nın fəal üzvlərindən biri idim. Nümayəndə heyətimizə 2024-cü ilin yanvarına qədər Avropa Şurasında heç zaman məhdudiyyətlər tətbiq edilməmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda separatçılığa son qoydu. Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalan 4 qətnaməsini özümüz icra etdik. Dörd ay sonra AŞPA nümayəndə heyətimizə sanksiyalar tətbiq etdi. Əfsuslar olsun ki, ikili standartlar bu gün sanki AŞPA-nın iş təlimatıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir.

İndi isə Avropa Parlamentini götürək. Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib. Cavab olaraq Azərbaycan parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib. Nəzərə alsaq ki, "Avropa Siyasi Birliyi"nin Zirvə görüşlərində biz öz fikirlərimizlə və narahatlıq doğuran məsələlərlə açıq şəkildə mübadilə edirik, mən, sadəcə, bu halda baş verənlər barədə həmkarlarımızı məlumatlandırmaq istədim ki, son qərarla bağlı səhv informasiya və manipulyasiya olmasın.

2



## Avropaya ünvanlanan mesajlar

Prezident İlham Əliyevin "sülh şəraitində yaşamağı öyrənirik" deməsi onilliklər boyu davam edən münaqişədən sonra cəmiyyətlərin, dövlət institutlarının yeni reallığa adaptasiya prosesini ifadə edir. Uzunmüddətli qarşıdurmadan sonra dinc yanaşı yaşama formasına keçid sosial-psixoloji hazırlıq tələb edir. 9 aylıq qısa müddət sülhün kövrəkliyi ilə yanaşı, prosesin artıq geri dönməz xarakter aldığını göstərir. Ağ Evdə imzalanan sənədlərə istinad edilməsi də sülh prosesinin beynəlxalq legitimliyini, qlobal güclər tərəfindən dəstəkləndiyini vurğulayır.

Dövlətimizin başçısı çıxışında, sadəcə, siyasi bəyanatlarla kifayətlənmədi, eyni zamanda "Tramp marşrutu" və Ermənistana yanacaq ixracı kimi konkret faktları səsləndirdi. Azərbaycanın Ermənistana benzin və dizel tədarük etməyə başlaması onilliklər boyu davam edən iqtisadi təcridin başa çatması, rəsmi Bakının xoş məramının və sülhə olan real sadiqliyinin göstəricisidir. Bu, Zəngəzur dəhlizi və digər kommunikasiyaların tam gücü ilə işləməsi üçün bir növ pilot layihə rolunu oynayır.

10

## İlham Əliyev Karol Navrotskini təbrik edib



### Polşa Respublikasının Prezidenti zati-aliləri cənab Karol Navrotskiyə

Hörmətli cənab Prezident!

3 May - Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Polşa arasında əlaqələr dərin tarixi köklərə və xoş ənənələrə əsaslanır. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin və səmərəli əməkdaşlığımızın inkişafına xüsusi əhəmiyyət veririk.

İnanıram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin genişlənməsi, strateji tərəfdaşlığımızın möhkəmlənməsi, qarşılıqlı fəaliyyətimizin həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində inkişafı yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Polşa xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



## Sülhə qarşı hibrid hücumlar da iflasa məhkumdur

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının aşkar etdiyi faktlar, bu görünməz savaşın pərdəarxasını çılpaqlığı ilə ortaya qoyur. Parlamentin sözügedən komissiyası ermənipərəst dairələr tərəfindən Azərbaycana qarşı həyata keçirilən informasiya kampaniyasına dair açıqlama yayıb. Vurğulanıb ki, aparılan monitorinqlər zamanı son günlər Azərbaycanı, eləcə də sülh gündəliyini hədəfləyən dezinformasiya kampaniyasının həyata keçirildiyi müşahidə edilib. Araşdırmalar zamanı kampaniyanın vahid tezis ətrafında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni lobbi təşkilatları, müəyyən nüfuz və vəzifə sahibi olan xarici ölkə vətəndaşları, habelə media orqanları tərəfindən aparıldığı müəyyən olunub.

Lobbi təşkilatları qarayaxma kampaniyasını qondarma "soyqırımı", "hərbi əsirlər" və Xankəndi şəhərindəki tikililər ətrafında ajiotaj yaratmaqla aparıblar. Son bir həftədə dezinformasiya kampaniyasında 130 fərqli hesab vasitəsilə 220-dən çox paylaşım edilib, ümumilikdə bir milyona yaxın qarşılıqlı əlaqə (reaksiya) qeydə alınıb.

12

## Qətiyyətli cavab

### Avropa Parlamenti ilə münasibətlərin rəsmən dayandırılması göstərir ki, Azərbaycanla təzyiq və şantaj dilində danışmaq olmaz



Avropa Parlamenti 30 il boyunca bir milyon azərbaycanlının hüquqlarının tapdalanmasına, ərazilərimizin minalanmasına və mədəni irsimizin məhv edilməsinə susduğu halda, bu gün "insan haqları" pərdəsi altında daxili işlərimizə müdaxilə etməyə çalışır. Ötən ilin avqustunda Vaşinqtonda əldə olunmuş sülh irəliləyişlərini və regionda formalaşan yeni reallıqları həzm edə bilməyən AP, sülh prosesini dolayı yolla əngəlləmək missiyasını öz üzərinə götürüb. Avropa Parlamentinin bu "fəallığının" arxasında dayanan səbəblər heç də demokratik dəyərlər deyil. Korrupsiya şəbəkələri və müxtəlif maraq qruplarının təsiri göstərir ki, bu təsisat artıq qanunverici orqan deyil, siyasi sifarişlərin icraçısıdır. Avropada tüğyan edən islamofobiya, antisemitizm və miqrant problemlərini həll etmək əvəzinə, Azərbaycanı hədəf seçmək riyakarlığın zirvəsidir.

Prezident İlham Əliyevin 2026-cı ilin yanvarında vurğuladığı kimi: "Avropa Parlamentinin Azərbaycana qarşı olan bu qərəzli vəziyyəti Azərbaycanın müstəqil siyasətini həzm edə bilməyən xüsusi lobbiçilik qruplarının fəaliyyətinin nəticəsidir".

13

# İkili standartlar qəbuledilməzdir

## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxış edib

**Mayın 4-də Ermənistanın paytaxtı İrəvan şəhərində "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə videobağlantı formatında çıxış edib.




### Prezident İlham Əliyevin çıxışı

- Sabahınız xeyir və Bakıdan salamlar. Əvvəlcə mən "Avropa Siyasi Birliyi"nin Zirvə görüşündə çıxış üçün etdiyi dəvətə görə Prezident Koştaya təşəkkürümü bildirmək istəyirəm.

Prezident Koştanın Azərbaycana iki aydan az vaxt əvvəl etdiyi səfəri zamanı biz Zirvə görüşündə iştirakımı müzakirə etdik və razılaşdıq ki, mən tədbirə videobağlantı formatında qoşulacağam. Mən həmçinin auditoriyanı məlumatlandırmaq istərdim ki, bir il öncə Tiranaya səfərim zamanı prezident Koşta və prezident Fon der Lyayen Zirvə görüşünün 2026-cı ilin mayında Ermənistanda təşkil olunması ideyasına rəyimi soruşdular. Mən dəstəklədim. Öz növbəmdə mən tarazlı yanaşmanın saxlanılması üçün növbəti Zirvə görüşlərindən birinin Azərbaycanda keçirilməsi təklifi ilə çıxış etdim. Təklif qəbul olundu. Beləliklə, mən "Avropa Siyasi Birliyi"nin üzvlərini 2028-ci ilin mayında Azərbaycanda keçiriləcək Zirvə görüşünə dəvət edirəm. Yeri gəlmişkən, Ermənistan həmçinin namizədliyimizi dəstəklədi. Bu, Azərbaycan ilə Ermənistan arasında sülhün real olmasının aydın göstəricisidir. Biz cəmi doqquz aydır ki, sülh şəraitindəyik və sülhdə yaşamağı öyrənirik.

Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı. Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub. Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib.

Sülh sahəsində digər nailiyyət bağlantılardır. "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta dəhlizin bir hissəsinə çevriləcək. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər. Bu fürsətdən istifadə edərək, mən Ermənistan-Azərbaycan sülh prosesində tutduğu mövqeyə görə Avropa Komissiyasına təşəkkürümü bildirmək istəyirəm.

Lakin əfsuslar olsun ki, heç də bütün Avropa təsisatları eyni yanaşmanı sərgiləmir. Onlardan biri Avropa Parlamenti, digəri isə Avropa Şurası Parlament Assambleyasıdır (AŞPA). Azərbaycan 2001-ci ilin yanvarından Avropa Şurasının üzvüdür. Yeri gəlmişkən, mən o vaxt parlament üzvü və Azərbaycanın nümayəndə heyətinin rəhbəri kimi AŞPA-nın fəal üzvlərindən biri idim. Nümayəndə heyətimizə 2024-cü ilin yanvarına qədər Avropa Şurasında heç zaman məhdudiyyətlər tətbiq edilməmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda separatçılığa son qoydu. Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalan 4 qətnaməsini özümüz icra etdik. Dörd ay sonra AŞPA nümayəndə heyətimizə sanksiyalar tətbiq etdi. Əfsuslar olsun ki, ikili standartlar bu gün sanki AŞPA-nın iş təlimatıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir.

İndi isə Avropa Parlamentini götürək. Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib. Cavab olaraq Azərbaycan parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib. Nəzərə alsaq ki, "Avropa Siyasi Birliyi"nin Zirvə görüşlərində biz öz fikirlərimizlə və narahatlıq doğuran məsələlərlə açıq şəkildə mübadilə edirik, mən, sadəcə, bu halda baş verənlər barədə həmkarlarımızı məlumatlandırmaq istədim ki, son qərarla bağlı səhv informasiya və manipulyasiya olmasın.

Yekun olaraq mən Baş nazir Paşinyanı "Avropa Siyasi Birliyi"nin Zirvə görüşünün Ermənistanda keçirilməsi ilə bağlı təbrik etmək istəyirəm. Bildirirəm ki, prosesə mane olmaq istəyən tərəflərin bütün səylərinə baxmayaraq, Azərbaycan sülh gündəliyinə sadiqdir və ermənistanlı həmkarımın şərhləri bunu aydın şəkildə göstərir. Mən Zirvə görüşünə uğurlar arzu edirəm. Sağ olun.

❖ ❖ ❖

Tədbirdə Ermənistanın Baş naziri Nikol Paşinyan çıxış edərək, indi Azərbaycanla sülhə nail olunduğunu, artıq iki ildir heç bir tərəfdə tələfat olmadığını və bu dövrün müstəqilliyimizdən bəri yaşadığımız misilsiz illər olduğunu bildirdi. Qeyd etdi ki, indi iki ölkə arasında sülhü gücləndirmək və institusionallaşdırmaq məqsədilə tərəflər sıx şəkildə çalışırlar. Ermənistanın Baş naziri ilk dəfədir ki, Azərbaycan Prezidentinin onlayn formatda olsa da belə Ermənistanda keçirilən tədbirdə iştirak etdiyini xüsusi vurğuladı və ümidvar olduğunu bildirdi ki, 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin 10-cu toplantısında iştirak etmək üçün Azərbaycana səfər imkanı olacaq. Nikol Paşinyan Ermənistanın və Azərbaycanın "Avropa Siyasi Birliyi"nin toplantısını qəbul etmək üçün bir-birinin namizədliyini qarşılıqlı şəkildə dəstəklədiklərini də vurğuladı.

Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta tədbir iştirakçılarına və videokonfrans vasitəsilə toplantıya qoşulan Prezident İlham Əliyevə təşəkkürünü ifadə etdi. Bildirdi ki, bu toplantı tarixi səciyyə daşıyır, çünki onun keçirilməsi Ermənistan və Azərbaycan arasında razılaşma sayəsində mümkün olub. Bu razılaşma Avropada bir sülh hekayəsidir, eskalasiyanın və müharibənin hökmranlıq etdiyi bir dünyada alqışlanmalıdır.

Ukrayna Prezidenti Volodimir Zelenski isə çıxışına mühüm mesajla başladı. "Biz Ermənistana və Azərbaycana yalnız sülh - dayanıqlı, hərtərəfli, uzunmüddətli sülh arzulayırıq. Biz bunu, Baş nazir, sizə, Prezident Əliyevə və hər iki ölkənin xalqlarına arzulayırıq", - deyə o xüsusi vurğuladı.

Kanadanın Baş naziri Mark Karni də Ermənistan ilə Azərbaycan arasında sülh istiqamətində əldə olunmuş tərəqqiyə görə təbriklərə qoşulduğunu bəyan etdi və Prezident İlham Əliyevi salamladı.

# Dünya mətbuatı Azərbaycan Prezidentinin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışından yazır

**Dünyanın bir sıra aparıcı media qurumları mayın 4-də Ermənistanın paytaxtı İrəvanda keçirilən "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısına videobağlantı formatında qoşulan Azərbaycan Prezidenti İlham Əliyevin çıxışını geniş işıqlandırıb.**

AZƏRTAC xəbər verir ki, dərc olunan xəbərlərdə Prezidentin çıxışı həm Azərbaycan-Ermənistan sülh prosesində praktik əməkdaşlığın formalaşması, həm də Avropa institutları ilə siyasi gərginliklər fonunda davam edən diplomatik qarşıdurma kimi iki paralel xətt üzrə təqdim olunur.

**İtaliyanın "Agenzia Nova"** informasiya agentliyindəki xəbər əsasən Prezident İlham Əliyevin çıxışı üzərindən Azərbaycan-Ermənistan münasibətlərində faktiki sülh mühitinin formalaşdığını vurğulayır, bunu iqtisadi və nəqliyyat əməkdaşlığı ilə əsaslandırır. Məqalədə həmçinin Avropa institutlarının, xüsusilə Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycana münasibətdə ikili standartlar tətbiq etməsi Prezident İlham Əliyevin əsas tənqid xətti kimi təqdim olunur. Xəbərdə Azərbaycanın öz mövqeyini daha sərt və prinsipial şəkildə beynəlxalq auditoriyaya çatdırdığı vurğulanır. Qeyd olunur ki, Prezident İlham Əliyev Avropa Parlamentinin və AŞPA-nın Azərbaycana qarşı qəbul etdiyi qətnamələri "təhqir və yalanlarla dolu" adlandıraraq onları açıq şəkildə tənqid edib. O həmçinin vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünə münasibətdə fərqli yanaşmaların sərgilənməsi qəbuledilməz hesab olunur.

**İsveçrənin "Swissinfo"** portalında dərc olunan məqalə də Azərbaycan Prezidentinin çıxışını ön plana çıxararaq onun Avropa institutlarını qərəzli münasibətdə ittiham etdiyini və bunu Azərbaycanın ərazi bütövlüyünə münasibətdə fərqli yanaşmalarla əlaqələndirdiyini bildirir. Məqalədə eyni zamanda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müəyyən irəliləyişlərin, xüsusilə iqtisadi və nəqliyyat sahəsində əməkdaşlığın baş verdiyi vurğulanır. "Swissinfo"nun yanaşmasında diqqətçəkən məqam odur ki, həm tənqidi ritorika, həm də sülh prosesindəki müsbət dinamika paralel şəkildə təqdim olunur və bu, regionda vəziyyətin hələ də mürəkkəb, çoxşaxəli olduğunu göstərir. Ümumilikdə material Prezident İlham Əliyevin mövqeyini çatdırmaqla yanaşı, prosesin həm siyasi gərginlik, həm də əməkdaşlıq elementlərini eyni vaxtda ehtiva etdiyini göstərir. Qeyd olunub ki, Azərbaycan Prezidenti Ermənistanla sülh prosesinin davam etdirilməsinə sadiqliyini bir daha təsdiqləyib və iki tərəf arasında dialoqun vacibliyini vurğulayıb.

**Argentinanın "Infobae"** saytında yayımlanan məqalə də əsas diqqəti Prezident İlham Əliyevin çıxışına yönəldərək onun Avropa institutlarını ikili standartlarda ittiham etdiyini ön plana çıxarır. Yazıda qeyd olunur ki, Prezident Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində irəliləyişlərin olduğunu vurğulayır və bunu konkret iqtisadi və nəqliyyat addımları ilə əsaslandırır. Məqalə həmçinin Azərbaycan Prezidentinin Avropa Parlamenti və digər qurumların qəbul etdiyi qətnamələri kəskin tənqid etdiyini və bu yanaşmanı ədalətsiz hesab etdiyini oxucuya çatdırır. Ümumilikdə yazıda həm sülh prosesində müsbət dinamika, həm də siyasi ritorikadakı gərginlik paralel şəkildə göstərilərək regiondakı vəziyyətin hələ də mürəkkəb olduğu vurğulanır.




**Rusiyanın "Kommersant"** nəşrində "Əliyev Avropa Parlamentini Ermənistanla sülh prosesini sabotaj etməkdə günahlandırdı" sərlövhəsi ilə dərc olunan məqalə Azərbaycan Prezidentinin çıxışını daha çox siyasi kontekstdə təqdim edərək onun həm sülh prosesi ilə bağlı nikbin mesajlar verdiyini, həm də Qərb institutlarını kəskin tənqid etdiyini vurğulayır. Məqalədə qeyd olunur ki, Azərbaycan Prezidenti ölkəsi ilə Ermənistan arasında faktiki olaraq sabitlik yarandığını və iqtisadi əlaqələrin artıq başladığını bildirir. Eyni zamanda Avropa strukturlarına yönələn "ikili standartlar" ittihamı və qəbul edilən qətnamələrə qarşı sərt ritorika xüsusi olaraq qabardılır. Nəşr bu çıxışı həm regional sülh prosesində irəliləyişin göstəricisi, həm də Qərblə münasibətlərdə artan siyasi gərginliyin əlaməti kimi təqdim edir.

Rusiya mətbuatında (КП, "Российская газета", "Известия", "Interfaks", ТАСС, RBC, "Вести" və digər media qurumlarında) yayılan materiallarda da ümumilikdə eyni xətt izlənilir. Prezident İlham Əliyevin çıxışı əsas götürülərək onun Avropa institutlarını, xüsusilə Avropa Parlamentini və Avropa Şurası Parlament Assambleyasını sülh prosesinə mane olmaqda və ya sabotajda ittiham etdiyi vurğulanır. Bu materiallarda həmçinin qeyd olunur ki, rəsmi Bakı Avropa Komissiyasından fərqli olaraq bu qurumların mövqeyini daha qərəzli hesab edir və qəbul edilən qətnamələri Azərbaycan-Ermənistan normallaşma prosesinə zidd addım kimi qiymətləndirir.

Ümumi olaraq Rusiya mediası xəbəri iki əsas xətt üzrə təqdim edir. Bir tərəfdən Cənubi Qafqazda sülh prosesinin irəliləməsi, digər tərəfdən isə Qərb institutları ilə siyasi ziddiyyətlərin dərinləşməsi. Bu yanaşma regiondakı diplomatik prosesin həm pozitiv dinamika, həm də geosiyasi gərginliklə paralel getdiyini göstərir.

**Mərakeşin A5R5BR** adlı xəbər platforması da əsasən Prezident İlham Əliyevin Avropa institutlarına yönəltdiyi tənqidlərə fokuslanır və xüsusilə Avropa Parlamentini sülh prosesinə müdaxilə etməkdə və onu zəiflətməkdə ittiham etməsini ön plana çıxarır. Məqalədə qeyd olunur ki, Avropa institutlarının bu ittihamları Azərbaycan-Ermənistan normallaşmasının artıq həssas mərhələyə keçdiyi bir vaxtda səsləndirilib və siyasi gərginliyi artıran amildir. Eyni zamanda materialda Avropa tərəfinin sülh prosesinə təsir edən aktor kimi göstərilməsi və Bakı ilə Brüssel arasında münasibətlərdə soyuqluğun artması vurğulanır. Ümumilikdə Mərakeş mediasının təqdimatı prosesi həm irəliləyiş, həm də siyasi qarşıdurma elementləri olan mürəkkəb geosiyasi vəziyyət kimi təsvir edir.

**Livan** Milli Xəbər Agentliyinin **(NNA Lebanon)** yayımladığı material da əsasən Prezident İlham Əliyevin Avropa Siyasi Birliyi sammitindəki çıxışını çatdırır və onun Avropa Parlamentini Ermənistan-Azərbaycan sülh prosesinə mənfi təsir göstərməkdə ittiham etdiyini ön plana çıxarır. Məqalədə qeyd olunur ki, Azərbaycan Prezidenti bu qurumun qəbul etdiyi qətnamələri və ümumi yanaşmasını regiondakı normallaşma prosesinə zidd addım hesab edir. Eyni zamanda materialda Azərbaycan və Ermənistan arasında sülhün artıq müəyyən mərhələyə çatdığı və praktiki əməkdaşlıq elementlərinin formalaşdığı da vurğulanır.

**Birləşmiş Ərəb Əmirliklərinin "Voice of Emirates"** nəşri tərəfindən yayımlanan xəbərdə əsas vurğu ondan ibarətdir ki, Prezident İlham Əliyev Avropa Parlamenti ilə münasibətlərin dayandırıldığını elan edib və bu addımı qurumun Azərbaycan-Ermənistan sülh prosesinə mane olması ilə əsaslandırıb. Məqalədə bildirilir ki, Bakı Avropa Parlamentini son illərdə qəbul etdiyi qətnamələr və siyasi mövqelərlə qərəzli yanaşmada ittiham edir və bunu ikitərəfli münasibətlərin kəskinləşməsi kimi təqdim edir. Eyni zamanda materialda Azərbaycanın artıq əvvəlcədən əlaqələri faktiki olaraq məhdudlaşdırdığı və indi bu prosesi rəsmi siyasi qərara çevirdiyi qeyd olunur. Ümumilikdə xəbər hadisəni həm diplomatik münasibətlərin donması, həm də regionda sülh prosesinin davam etdiyi bir vaxtda Qərb institutları ilə siyasi qarşıdurmanın güclənməsi kimi təqdim edir.

**Gürcüstan** mətbuatında da **(1TV, IPRESS, On.ge, Netgazeti, NewsHub** və digər media qurumları) yayılan materiallar ümumilikdə Prezident İlham Əliyevin çıxışını eyni əsas xətt üzrə təqdim edir. Belə ki, Azərbaycan-Ermənistan münasibətlərində artıq faktiki sülh mühitinin formalaşdığı və tərəflər arasında müəyyən sabitliyin yarandığı vurğulanır. Xüsusilə iqtisadi əlaqələr, tranzit layihələri və regional kommunikasiya xətləri bu irəliləyişin praktiki göstəriciləri kimi təqdim olunur.

Eyni zamanda məqalələrdə Prezident İlham Əliyevin Avropa institutlarını, xüsusilə Avropa Parlamentini və AŞPA-nı ikili standartlarda və sülh prosesinə mənfi təsir göstərməkdə ittiham etməsi geniş yer alır. Gürcüstan mediası bu ritorikanı regional diplomatik gərginliyin bir hissəsi kimi göstərir, lakin eyni vaxtda sülh gündəliyinin uğurla davam etdiyini də vurğulayır. Ümumilikdə bu nəşrlər hadisəni iki paralel proses kimi təqdim edir: Bir tərəfdən, Cənubi Qafqazda normallaşma və əməkdaşlıq, digər tərəfdən isə, Qərb institutları ilə siyasi fikir ayrılıqlarının davam etməsi.

◆ İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana işgüzar səfəri

# İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır

## Prezident İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri ilə təkbətək görüşü



Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə təkbətək görüşü keçirilib.

## Prezident İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri ilə geniş tərkibdə görüşü olub

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Xanım Baş nazir, nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz. Bizim müxtəlif aspektlər üzrə mükəmməl danışıqlarımız oldu. İndi danışıqlarımızı geniş tərkibdə davam etdirəcəyik. Əvvəlcə bizimlə bir yerdə olduğunuz üçün Sizə bir daha təşəkkür edirəm. Bu səhər, hətta dünəndən bəri necə məşğul olduğunuzu bilirəm. Ermənistandan gələrək bizi ziyarət etməyiniz çox rəmzi məna daşıyır. Bu, bir daha Azərbaycana dost münasibətin olduğunu göstərir. Bizim də İtaliyaya eyni münasibətimiz var. Sizin bugünkü səfəriniz strateji münasibətlərimizin inkişafında çox həlledici olacaq. Bir daha xoş gəlmisiniz.



İtaliya Nazirlər Şurasının sədri **Ciorcia Meloni** çıxış edərək dedi:

- Çox sağ olun, hörmətli Prezident. Burada olmaq mənim üçün şərəfdir və məndə məmnunluq hissi doğurur. Hesab edirəm ki, buraya gəlmək vacib idi, çünki Azərbaycan İtaliya üçün çox vacib tərəfdaşdır. Lakin buna baxmayaraq, mənə məlum oldu ki, 2013-cü ildən bəri İtaliyanın Baş naziri buraya səfər etməyib. Bu da mənə kifayət qədər qəribə görünür. Ona görə hesab edirəm ki, bu səfəri etmək həqiqətən vacib idi, çünki bizim əməkdaşlığımız həqiqətən də çox genişdir. Biz bir çox strateji sahələr üzrə əməkdaşlıq edirik, - əlbəttə ki, enerji, infrastruktur, bağlantı və mədəniyyət.

İtaliya Respublikası Prezidentinin Azərbaycana səfəri həm də bizim mədəni əlaqələrimizin və universitetlə bağlı aparılmış işin nümayiş etdirilməsi nöqteyi-nəzərindən əlamətdar bir hadisə idi. Lakin hesab edirəm ki, biz həmişə birlikdə daha çox iş görə bilərik. Fikrimizcə, Azərbaycan bizim beynəlxalq müstəvidə çətin vəziyyətdə olmağımıza baxmayaraq, strateji tərəfdaşımızdır. Eyni zamanda Azərbaycan körpü rolunu oynayır. Biz bu körpünün rolunu elan etmək istəyirik. Bu körpü buradan Aralıq dənizi regionuna qədər çox uzun bir körpü ola bilər.

## Prezident İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri mətbuata bəyanatlarla çıxış ediblər

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli xanım Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə xanım Baş nazir, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz Azərbaycan-İtaliya dostluq əlaqələrinin inkişafına növbəti töhfə olacaqdır.

Bizim ölkələrimiz strateji tərəfdaşdırlar, 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair iki bəyannamə imzalanmışdır. Bizim münasibətlərimizin əsasını təşkil edən bu iki sənəd və sənədlərdə təsbit edilmiş məsələlər bu gün həyatda da öz əksini tapır. Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür.

Bildiyiniz kimi, bizim siyasi əlaqələrimiz ən yüksək səviyyədədir. Eyni zamanda ticarət əlaqələrimiz də çox yaxşı vəziyyətdədir. İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Keçən il bizim ticarət dövriyyəmiz təxminən 12 milyard dollar təşkil etmişdir. Təbii ki, əlaqələrimizin əsas istiqamətlərindən biri energetika sahəsində tərəfdaşlıqdır. Burada da biz uzun illər ərzində etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləyirik. Azərbaycan İtaliyanın neft təchizatında ikinci yerdədir, qaz təchizatında da ikinci yerdədir. Bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunmuşdur. Bu gün söhbətlər və danışıqlar əsnasında biz bu həcmi artırmaq üçün müzakirələr aparmışıq. Bunun





üçün təbii ki, "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsinin genişləndirilməsi lazımdır. Artıq müəyyən dərəcədə genişləndirilib, amma bu proses davam etdirilməlidir.

Bizim yeni əməkdaşlıq sahəmiz olan hərbi-texniki əməkdaşlıq ümidvericidir. Bu gün bu barədə də danışıldı. Birgə layihələrin həyata keçirilməsi, birgə istehsalın təşkil edilməsi, İtaliya texnologiyalarının Azərbaycan maliyyə vəsaitinin birləşməsi ilə əlaqədar konkret fikirlərimiz var. Bu barədə də geniş danışılıb.

İtaliya bazarı bizim üçün çox maraqlıdır. İtaliya iqtisadiyyatı xanım Baş nazirin rəhbərliyi ilə uğurla inkişaf edir. Azərbaycan Dövlət Neft Fondu son bir neçə il ərzində İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə qoyub. Bu sərmayələrin yeni layihələrə cəlb edilməsi məsələləri də müzakirə olunmuşdur.

Əlbəttə ki, İtaliya şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinin çox böyük tarixi var. Hazırda İtaliyanın 130-a yaxın şirkəti Azərbaycanda fəaliyyət göstərir. İstəyirəm ki, onların sayı daha da çox olsun. O cümlədən işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda İtaliya şirkətləri 23 layihə həyata keçirib və həyata keçirir. Xarici ölkələrin şirkətlərinə baxdıqda bu layihələrin icrasında İtaliya yenə qabaqcıl yerlərdədir. Təbii ki, bütün bu biznes, kommersiya, ticarət əlaqələri, şirkətlərin birgə fəaliyyəti və digər məsələlərlə yanaşı, biz bəlkə də ən vacib sahəni də unutmamışıq, o da təhsil sahəsidir. Keçən il Bakıda böyük təntənə ilə İtaliya-Azərbaycan Universiteti açılmışdır. Azərbaycanda təhsilin inkişafına bu universitetin çox böyük təsiri və töhfəsi olacaq. Bizə verilən məlumata görə, artıq 500-dən çox tələbə orada təhsil alır və gələcəkdə onlar həm peşəkar mütəxəssislər, həm də ki, Azərbaycanın İtaliyada və İtaliyanın Azərbaycanda təbii elçiləri olacaqlar. Beləliklə, bizim dostluğumuz bundan sonra inamla davam etdiriləcəkdir.

Hörmətli xanım Baş nazir və nümayəndə heyətinin üzvləri, sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra İtaliya Nazirlər Şurasının sədri bəyanatla çıxış etdi.

*Ardı 4-cü səh.*

◆ İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana işgüzar səfəri

# İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır

## Prezident İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri mətbuata bəyanatlarla çıxış ediblər

*Əvvəli 3-cü səh.*

### Nazirlər Şurasının sədri Ciorcia Meloninin bəyanatı



- Çox sağ olun, cənab Prezident.

Hamınıza "Axşamınız xeyir olsun" deyirəm.

Bu gün burada - Bakıda olmaqdan çox məmnunam. Təbii ki, bir daha cənab Prezident Əliyevə və bütün hökumətə bizə göstərilmiş çox səmimi qəbula, həmçinin bu gün ərzində apardığımız çox məhsuldar dialoqa görə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün ölkələrimiz arasında münasibətlərə gəldikdə, bu, siyasi baxımdan mənim üçün əhəmiyyətlidir. Çünki İtaliyanın Baş nazirinin Azərbaycana rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik. Bu, özünü nəinki ölkələrimizi bir-birinə bağlayan dostluq münasibətlərində, həmçinin İtaliya və Azərbaycan arasında çox mühüm əməkdaşlıqda göstərir. Bununla belə əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub. Beləliklə, təbii ki, apardığımız çox geniş söhbətə görə təşəkkür edirəm. Söhbətimiz əsasında daimi siyasi əlaqələndirmə yolu ilə əməkdaşlığımızı transformasiya etmək üzərində razılığa gəldik. Buradan gələcəyə aid prioritetləri birgə təyin edəcəyik. Düşünürəm ki, indi yaşadığımız mürəkkəb beynəlxalq müstəvidə bu, çox əhəmiyyətli seçimdir. Bununla belə, ətrafımızda olan qeyri-sabitlik artır və aramızdakı aydın məsələlərin həlli daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Həmin aydın olan məsələlərdən biri təbii ki, İtaliya ilə Azərbaycan arasındakı münasibətlərdir.

Birmənalı olaraq, əməkdaşlığımızı hər zaman səciyyələndirən sahələrdən biri enerji sahəsidir. İtaliyaya qaz və neftin ixracı Ukraynaya qarşı Rusiyanın təcavüzkar müharibəsi başladıqdan sonra şərəflə təmsil etdiyim ölkənin enerji təhlükəsizliyində müəyyənedici amil rolunu oynayır. Bu əlaqələrin möhkəmləndirilməsi barədə aydın şəkildə söhbət apardıq. Biz nəinki təchizat həcmləri, xüsusilə bütün sahələr üzrə sənaye tərəfdaşlığının keyfiyyəti üzərində çalışmalıyıq. Bilirik ki, enerji və bağlantılar eyni medalın iki üzüdür. İstərdik ki, Azərbaycan Avropa ilə Asiya arasında fundamental qovşaq rolunu möhkəmləndirsin. İtaliya bu baxımdan Avropa bazarına imtiyazlı giriş qapısı rolunu hər zaman oynamağa hazırdır. Aydındır ki, bu cür plan sərmayələri, uzunmüddətli proqramları, ölkələrimizdə istehsal və sənaye sistemlərimizin ən münasib imkanlarının bir araya gətirilməsini tələb edir. Bu səbəbdən biz 2026-cı ilin ikinci yarısında burada, Bakıda biznes-forum təşkil etməyi planlaşdırmışıq ki, siyasi əməkdaşlığımızı müəssisələrimiz, işçilərimiz üçün konkret fürsətlərə çevirək.

Mən Prezidentlə razıyam ki, bütün bunlar istər son illərdə gözəçarpan Azərbaycan sərmayələrinin İtaliyaya yatırılmasında, istərsə də Azərbaycan tərəfi üçün İtaliyanın genişmiqyaslı sərmayələrinin ayrılmasında görünür. Cənab Prezident, söhbətlərimizdə qeyd etdiyimiz kimi, təsdiqləyə bilərəm ki, strateji planların, inkişaf planlarının, 360 dərəcəlik müasirləşmədə nəinki ikitərəfli qaydada, o cümlədən üçüncü ölkələrdə birgə işin icrasında çox böyük marağı olan çoxsaylı İtaliya müəssisələri var. Çünki energetika əməkdaşlığımızın yeganə sahəsi deyil. Bir çox digər sahələr var.

Həlledici digər sahə müdafiə və təhlükəsizlik sahəsidir. Bu sahədə, aerokosmik sənaye, dəniz təhlükəsizliyi, mühüm infrastrukturun mühafizəsi, üstün texnologiyalar kimi sahələrdə İtaliyanın ən kamil nəticələrini dəyərləndirərək əməkdaşlığı dərinləşdirmək istəyirik. Biz elə bir model təklif edirik ki, sənaye sistemləri arasında əməkdaşlıq nəticəsində biliklərlə mübadilə, birgə inkişaf, regional sabitliyə töhfə verə biləcək gələcək perspektivli sahələr və nəhayət, sənaye sistemlərimizi birləşdirən amillər olsun.

Bununla belə, dostluğumuz münasibətlərimizdə, cəmiyyətlərimiz arasında əlaqələrdə, mədəni bağlantılarda dərin köklər salıb. Burada, Bakıda respublika Prezidenti Mattarellanın iştirakı ilə Azərbaycan Diplomatik Akademiyasının nəzdində açılmış universitet İtaliyanın beş nüfuzlu universiteti ilə əməkdaşlıqdan formalaşmışdır. Yekun nəticədə bütün bunlar mədəniyyət, gələcək nəsillər, xalqlarımız arasında əlaqələr, bu gün həm mədəniyyət, həm ərzaq təhlükəsizliyi sahələrində əldə etdiyimiz razılaşmalar ümumi məramımızın rəmzi anlarıdır. Bütün bunlar eyni istiqamətdə inkişaf edir.

Təbii ki, Prezident Əliyevlə İranla bağlı böhrandan tutmuş bölgəmizdə baş verən və hamımıza aid olan hadisələrə qədər əsas beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardıq. Aydın şəkildə, mənim üçün İranla ümumi sərhədi olan, İranla uzun ümumi tarixə malik ölkənin Prezidentinin fikrini dinləmək çox maraqlı oldu. Bir daha arzu edirik ki, bu böhran mümkün qədər ən qısa müddətdə aradan qalxsın. Bu məqsədə xidmət edən hər hansı təşəbbüsə dəstək verməyə, bölgədə sabitliyin qurulmasına öz sadiqliyimizi bir daha vurğuladım. Mən həmçinin Azərbaycana, Prezidentə və Azərbaycanın bütün hakimiyyət orqanlarına İranda təhlükə ilə üzləşən, ölkəni tərk etməyə məcbur olan çoxsaylı italyan vətəndaşlarının təxliyə olunmasında İtaliya üçün lazımi əməliyyatları həyata keçirdiyinə görə təşəkkürümü bildirmək istəyirəm. Sizin tərəf bu işdə tam tədbirləri gördü və daha dəqiq desək, Sizə təşəkkür edirəm ki, Tehrandakı səfirliyimizin müvəqqəti olaraq Bakıya köçürülməsinə, təhlükəsizlik şəraitində səmərəli şəkildə işləməsinə dəstək verdiniz. Bu, dostluğumuzu nümayiş etdirən digər elementdir.

Biz Azərbaycan ilə Avropa İttifaqı arasında dialoqun gücləndirilməsinin vacibliyini qeyd etdik. Enerji və daşımalar birmənalı olaraq iki sahədir ki, Avropa daha vacib rol oynaya bilər və oynamalıdır. Beləliklə, sərmayələrə dəstək, enerji şəbəkələrinə, beynəlxalq daşımalar marşrutlarına Azərbaycanın daha böyük inteqrasiyası təmin edilə bilər.

Ermənistanla münasibətlər mövzusunu müzakirə etdik. Mən Birləşmiş Ştatların verdiyi təkan sayəsində tarixi mərhələni əks etdirən normallaşma yolunda İtaliyanın tam dəstəyini bir daha vurğuladım. Düşünürəm ki, 2026-cı il bu baxımdan mühüm ilə çevrilə bilər, çünki çox vacibdir ki, bu dinamik regionun bütün potensialı istifadə edilsin. Həmçinin Ukraynada ədalətli və dayanıqlı sülhə yönəlmiş diplomatik səylər də öz nəticəsini verməlidir. Çünki ölkələrimiz çox dəstək göstərib, Ukrayna xalqının yanında olub.

Bir sözlə, iş əsnasında bizi birləşdirən çoxsaylı mövzular var. Söylədiyim kimi, bu işləri birgə icra edə bilərik. Yekun olaraq bir daha bildirirəm ki, biz aydın məsələlərin az sayda olduğu dövrdə yaşayırıq və tam təbiidir ki, bu kimi hallar az olanda biz bir-birimizə daha çox bağlanmalıyıq. Məhz bu səbəbdən İtaliya Azərbaycanla həyata keçirdiyi mühüm tərəfdaşlığı uzunmüddətli tərəfdaşlıq kimi görür və bundan sonra da uzunmüddətli olmasını istəyir.

Cənab Prezident, səmimi qəbula və bizimlə apardığınız çox maraqlı söhbətə görə bir daha təşəkkür edirəm.

## Prezident İlham Əliyevin adından İtaliya Nazirlər Şurasının sədrinin şərəfinə işçi şam yeməyi verilib



Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin şərəfinə işçi şam yeməyi verilib.

## İtaliya Nazirlər Şurasının sədrinin Azərbaycana işgüzar səfəri başa çatıb

**İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycan Respublikasına işgüzar səfəri mayın 4-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliyanın Nazirlər Şurasının sədri Ciorcia Melonini Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.



## "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2026-cı il yanvarın 15-də Cenevrə şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2026-cı il*

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"də və 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 626 (Cild I); 2024, № 5 (I kitab), maddə 516) ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"nin 3.10-cu və 3.11-ci bəndlərinin birinci cümlələrində "yeddi" sözü "on beş" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1376 (Cild I) ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 5.5-ci bəndində "7 (yeddi)" sözləri "15 (on beş)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2026-cı il*

## Azərbaycan xalçaçılarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağalıyeva Neva Şahpələng qızı
Babayeva Aidə Elman qızı
Babayeva Ceyhunə Zakir qızı
Eyyubova Raya Şahvələd qızı
Əbilova Nazilə Əlisəfa qızı
Əhmədova Şəfiqə Məzəddin qızı
Əkbərova İradə Xanağa qızı
Ələkbərova Vüsalə Mərifət qızı
Əsgərova Kəmalə Sərdar qızı
Həsənova Xaliqə Yelmar qızı
Hüseynova Dilşad Mahmud qızı
Qənbərova Nargilə Əliağa qızı
Qurbanova Sədaqət Əmir qızı
Nəsirova Jalə Abduləli qızı
Nuriyev Əlisafa İdris oğlu
Özbəkova Gülgəz Mətləbulla qızı
Rəhimova Nailə Allahverdi qızı
Şahmuradova Alisa Sadıq qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2026-cı il*

## "Azərbaycan Respublikasının Milli Yaşıl Taksonomiyası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 126** **Bakı şəhəri, 1 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamının 2.4-cü bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Mərkəzi Bankının təklifini nəzərə alaraq yaşıl və aşağı karbonlu iqtisadiyyata keçidin dəstəklənməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Milli Yaşıl Taksonomiyası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları (qurumları) dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, büdcə təşkilatları, publik hüquqi şəxslər bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən "Azərbaycan Respublikasının Milli Yaşıl Taksonomiyası"nın həyata keçirilməsi istiqamətində aidiyyəti üzrə zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "İstilik enerjisindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 128** **Bakı şəhəri, 4 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 442 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İstilik enerjisindən istifadə Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. Müəyyən edilsin ki:

2.1. "İstilik enerjisindən istifadə Qaydaları"nda Elektron Hökumət İnformasiya Sisteminin xidmət kanalı üzərindən paylayıcının informasiya sistemi vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurların təşkili təmin edilənədək həmin prosedurlar birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir;

2.2. "İstilik enerjisindən istifadə Qaydaları"nda həyata keçirilməsi nəzərdə tutulan prosedurlar tikintiyə icazə icraatı çərçivəsində tikinti obyektlərinin şəbəkəyə qoşulması ilə əlaqədar layihənin və texniki şərtlərin verilməsinə münasibətdə şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

3. "İstilik enerjisindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1324 (Cild I); 2024, № 3, maddə 305, № 4, maddə 450; 2025, № 2, maddə 204, № 12 (II kitab), maddə1257) ləğv edilsin.

4. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti "İstilik enerjisindən istifadə Qaydaları"nda nəzərdə tutulan paylayıcının müvafiq informasiya sisteminin formalaşdırılmasını doqquz ay müddətində təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Birinci vitse-prezident Mehriban Əliyeva bədii gimnastika üzrə Avropa kubokunu izləyib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva və ailə üzvləri, Olimpiya və ikiqat dünya çempionu Alina Kabaeva mayın 3-də Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə Avropa kubokunu izləyiblər.






## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 127** **Bakı şəhəri, 1 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, №5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, №1, maddə 80, № 2, maddə 178; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 aprel tarixli 119 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1511 90 190 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1511 90 190 | - - - digərləri | | |
| 1511 90 190 1 | - - - - netto çəkisi 20 kq-dan az olmayan ilkin qablaşdırılmalarda | - | 15 (31.12.2030-cu il tarixinədək 0%) |
| 1511 90 190 9 | - - - - digərləri | - | 15 |

1.2. 1511 90 990 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1511 90 990 | - - - digərləri | | |
| 1511 90 990 1 | - - - - netto çəkisi 20 kq-dan az olmayan ilkin qablaşdırılmalarda | - | 15 (31.12.2030-cu il tarixinədək 0%) |
| 1511 90 990 9 | - - - - digərləri | - | 15 |

1.3. 1513 29 190 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1513 29 190 | - - - - digərləri | | |
| 1513 29 190 1 | - - - - - netto çəkisi 20 kq-dan az olmayan ilkin qablaşdırılmalarda | - | 15 (31.12.2030-cu il tarixinədək 0%) |
| 1513 29 190 9 | - - - - - digərləri | - | 15 |

1.4. 1513 29 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1513 29 900 | - - - - - digərləri | | |
| 1513 29 900 1 | - - - - - - netto çəkisi 20 kq-dan az olmayan ilkin qablaşdırılmalarda | - | 15 (31.12.2030-cu il tarixinədək 0%) |
| 1513 29 900 9 | - - - - - -digərləri | - | 15 |

2. Bu Qərar 2026-cı il mayın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# *Nikola SELAKOVİÇ:* "Azərbaycan ilə Serbiya arasında mədəniyyətin müxtəlif sahələri üzrə geniş əməkdaşlıq imkanları var"

**Mayın 4-də Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ölkəmizdə səfərdə olan serbiyalı həmkarı Nikola Selakoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyindən məlumat verilib.

Görüşdə Adil Kərimli iki ölkənin əlaqələrinin Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Aleksandar Vuçiç arasında mövcud olan qarşılıqlı etimada və dostluğa əsaslanan münasibətlər zəminində ildən-ilə inkişaf etdiyini bildirib. Qeyd olunub ki, Azərbaycan ilə Serbiya arasındakı strateji tərəfdaşlıq münasibətləri mədəni əməkdaşlığın da inkişafı üçün yaxşı imkanlar yaradıb. Prezident İlham Əliyevin bu ilin fevral ayında Serbiyaya rəsmi səfəri çərçivəsində imzalanan "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Serbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2026-2030-cu illər üçün mədəniyyət sahəsində Əməkdaşlıq Memorandumu" mədəni əlaqələrdə yeni səhifə açıb.




Serbiyanın milli aviadaşıyıcısı "Air Serbia"nın mayın 3-dən etibarən Belqradla Bakı arasında birbaşa uçuşlara başlamasının əlamətdar hadisə olduğunu deyən Adil Kərimli bunun digər sahələrlə yanaşı, mədəniyyət sahəsində də əlaqələrin genişlənməsinə öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

Serbiyanın mədəniyyət naziri Nikola Selakoviç iki ölkə arasında mədəniyyətin müxtəlif sahələri üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu bildirib. Serbiyalı nazir də birbaşa aviasiya əlaqəsinin dost ölkələrin daha da yaxınlaşmasında mühüm rol oynayacağını vurğulayıb.

Görüş zamanı mədəniyyət sahəsində əlaqələrin perspektivləri və gələcək layihələrlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Qəbələdə keçirilən WUF13 Festivalında minlərlə sakin iştirak edib

**Ölkə ictimaiyyətinin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) haqqında məlumatlandırılması məqsədilə Qəbələ şəhərində WUF13 Festivalı keçirilib.**

AZƏRTAC xəbər verir ki, festivalın axşam proqramı Qəbələ şəhərindəki Heydər Əliyev adına Mədəniyyət və İstirahət parkında davam etdirilib.

"WUF13 Azərbaycan" Əməliyyat Şirkətinin kommunikasiya üzrə meneceri Emin Hüseynzadə Qəbələ sakinlərini və şəhərin qonaqlarını salamlayaraq festivalın əhəmiyyəti barədə ətraflı məlumat verib, gecələrini mənalı keçirmələri üçün müxtəlif proqramların təşkil olunduğunu diqqətə çatdırıb.

Axşam proqramı çərçivəsində interaktiv fəaliyyətlər, maarifləndirici oyunlar, təqdimatlar və ictimai müzakirələr vasitəsilə dayanıqlı şəhər inkişafı, inklüziv şəhər mühiti, innovativ şəhər həlləri və gələcəyin şəhərləri kimi mövzular geniş auditoriyaya çatdırılıb.



Qeyd edək ki, günün birinci yarısında Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) həsr olunmuş məlumatlandırma sessiyası keçirilib.

# Azərbaycanla Parlamentlərarası İttifaq arasında uğurlu əməkdaşlıq mövcuddur

**Mayın 4-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın (PAİ) Baş katibi Martin Çunqonqla görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı növbəti dəfə Azərbaycanda görməkdən məmnunluğunu bildirən spiker Sahibə Qafarova PAİ-nin Milli Məclislə uğurlu əməkdaşlıq etdiyini, xüsusilə 2021-ci ildən etibarən Azərbaycan parlamenti deputatlarının PAİ-də daha da fəallaşdıqlarını və bu qurumda rəhbər vəzifələrdə təmsil olunduqlarını diqqətə çatdırıb. Spiker Milli Məclisin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə əməkdaşlığından və Baş katib Martin Çunqonqun bu əməkdaşlığa dəstək verməsindən razılıqla danışıb. Spiker həm qarşılıqlı əməkdaşlığın inkişafı baxımdan, həm də Azərbaycan və Ermənistan parlament sədrlərinin görüşlərinin təşkilində göstərdiyi səylərə görə PAİ-nin Baş katibinə minnətdarlığını bildirib. Bu görüşlərin xalqlar arasında etimadın qurulması prosesinə parlamentlərin töhfəsi olduğunu qeyd edən spiker Sahibə Qafarova Ermənistan Konstitusiyasına müvafiq dəyişikliklər edildikdən sonra tezliklə iki ölkə arasında sülh müqaviləsinin imzalanacağına və bunun da parlamentlər arasında əməkdaşlıq üçün daha geniş imkan yaradacağına inamını ifadə edib.

PAİ-nin insanların bir-birini dinləyə biləcəyi və dialoq qurduğu çox mühüm bir platforma olduğunu deyən Milli Məclisin Sədri Prezident İlham Əliyevin PAİ ilə əlaqələrin inkişafına verdiyi dəstəyin və göstərdiyi diqqətin mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Xoş sözlər üçün təşəkkürünü bildirən PAİ-nin Baş katibi Martin Çunqonq onun bu quruma rəhbərlik etdiyi dövrdə PAİ-Azərbaycan əlaqələrinin transformasiya olunduğunu diqqətə çatdırıb. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan PAİ ilə əlaqələrin inkişaf etdirilməsinə həmişə sadiq olub. O deyib ki, bu gün Azərbaycan bu qurumda öz fəaliyyəti ilə diqqəti cəlb edir. Baş katib Azərbaycanın PAİ-nin tədbirlərində fəal iştirak etdiyini, Milli Məclisin nümayəndələrinin rəhbər vəzifələrdə təmsil olunduğunu, tərəflər arasında uğurlu əməkdaşlığın mövcud olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan Milli Məclisi Sədrinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə rəhbərliyi həm şəbəkənin inkişafı, həm də onun PAİ ilə əlaqələrinin inkişafında böyük rol oynayıb.

Qeyd olunub ki, iki ölkə arasında sülh prosesi çərçivəsində Azərbaycan və Ermənistan parlamentləri arasında dialoqun yaradılmasına nail olunması PAİ-nin əsas məqsədi olan sülhə xidmət edir. Qonaq Prezident İlham Əliyevin PAİ ilə əməkdaşlığa verdiyi mühüm dəstəyə görə təşəkkürünü bildirib və diqqətə çatdırıb ki, onun bu səfəri Azərbaycanın bu quruma etimadının və inamının bir göstəricisidir.

Söhbət zamanı Baş katib Azərbaycanda COP29 çərçivəsində keçirilmiş Parlament konfransında əldə edilmiş uğurları yüksək qiymətləndirib. Bildirib ki, bu uğurlar sayəsində bütün dünya parlamentlərin səfərbərlik gücünün şahidi olub.

Görüşün sonunda parlamentlər arasında konstruktiv dialoqun və səmərəli əməkdaşlığın inkişafında göstərdiyi xidmətlərə, Azərbaycan Respublikasının Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsinə və genişlənməsinə verdiyi töhfələrə görə PAİ-nin Baş katibi Martin Çunqonq Milli Məclisin Fəxri Medalı ilə təltif edilib.

*"Azərbaycan"*

# Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq ölkəmizə səfərə gəlib

**Mayın 3-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq ölkəmizə səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında qonağı Milli Məclis Katibliyinin rəisi Teymur Tağıyev, Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov və protokol əməkdaşları qarşılayıblar.

*"Azərbaycan"*



# AİB-nin 59-cu illik toplantısının rəsmi açılış mərasimi keçirilib

**Mayın 4-də Özbəkistanın Səmərqənd şəhərində Asiya İnkişaf Bankının (AİB) Rəhbərlər Şurasının 59-cu illik toplantısının rəsmi açılış mərasimi keçirilib.**




"Tərəqqinin kəsişmə nöqtələri: regionun əlaqəli gələcəyinin formalaşdırılması" mövzusunda keçirilən toplantının rəsmi açılış mərasimində çıxış edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev son illərdə Özbəkistanda əldə olunan mühüm sosial-iqtisadi nailiyyətləri diqqətə çatdıraraq, bu uğurların təmin olunmasında beynəlxalq maliyyə institutlarının, o cümlədən AİB-nin rolunu xüsusi vurğulayıb və həyata keçirilən inkişaf layihələrinə göstərilən davamlı dəstəyi yüksək qiymətləndirib.

AİB-nin prezidenti Masato Kanda isə çıxışında bankla Özbəkistan arasında əməkdaşlığın inkişaf etdiyini, 2030-cu ilədək bərpa olunan enerji üzrə hədəflərin icrasında bankın ən etibarlı tərəfdaşlardan biri olduğunu vurğulayıb. O, ötən dövrdə əməkdaşlıq çərçivəsində əhalinin rifahının yüksəldilməsi, yeni iş yerlərinin yaradılması və infrastrukturun yenidən qurulması istiqamətində mühüm nəticələrin əldə olunduğunu qeyd edərək, növbəti illərdə bu sahələr üzrə AİB-nin dəstəyinin davam etdirilməsinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

İllik toplantı çərçivəsində keçirilən biznes sessiyada AİB-nin 2025-ci il üzrə fəaliyyətinə dair hesabatı müzakirə edilib, maliyyə və əməliyyat göstəricilərinin icra vəziyyəti dəyərləndirilib. Eyni zamanda Rəhbərlər Şurası tərəfindən bankın 2026-cı il üzrə büdcəsi təsdiqlənərək, institusional idarəetmə çərçivəsinin gücləndirilməsi və strateji prioritetlərin effektiv icrası ilə bağlı bir sıra qərarlar qəbul edilib.

Biznes Sessiyada çıxış edən Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev toplantının yüksək səviyyədə təşkilinə görə AİB-yə və Özbəkistan hökumətinə minnətdarlığını bildirib. Qeyd olunub ki, AİB 2025-ci ildə mühüm nəticələr əldə edərək, kreditlər, qrantlar, səhmdar investisiyaları, zəmanətlər və texniki yardım daxil olmaqla müxtəlif maliyyə alətləri üzrə ümumilikdə 29,3 milyard ABŞ dolları həcmində öhdəlik götürüb. Bu rəqəm 2024-cü illə müqayisədə 20 faiz artım olmaqla, bankın əməliyyat fəaliyyətinin genişləndiyini göstərir.

S.Babayev AİB-nin maliyyə sektoruna yönəltdiyi vəsaitin 7,3 milyard ABŞ dollarına çatdığını qeyd edərək, bu çərçivədə maliyyə sistemlərinin dayanıqlığının gücləndirilməsi, kapital bazarlarının inkişafı və xüsusilə mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün maliyyə əlçatanlığının artırılmasının əsas prioritetlərdən olduğunu vurğulayıb.

Nazir AİB-nin keyfiyyətli infrastruktur, rəqəmsal transformasiya və regional bağlantının gücləndirilməsi istiqamətində fəaliyyətini yüksək qiymətləndirərək, bankın ərzaq təhlükəsizliyi, enerji dayanıqlığı və fiskal sabitliyin təmin olunmasına yönəlmiş təşəbbüslərinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Ölkəmizin işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərindən bəhs edən S.Babayev Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesində əldə olunan irəliləyişlərin regionda uzunmüddətli sülhün və sabitliyin möhkəmlənməsinə töhfə verə biləcəyini qeyd edib.

İllik toplantının ikinci günündə Azərbaycanın maliyyə naziri bir sıra ikitərəfli görüşlər keçirib. Yaponiyanın maliyyə naziri, AİB-nin Yaponiya üzrə rəhbəri Satsuki Katayama ilə görüşdə iki ölkə arasında uzunmüddətli tərəfdaşlıq, Yaponiyanın regional və qlobal inkişaf istiqamətində konstruktiv mövqeyi, eləcə də AİB daxilində çoxtərəfli inkişaf çərçivələrinə liderlik etməsi yüksək qiymətləndirilib.

Nazir Azərbaycanın AİB-nin maliyyələşdirdiyi infrastruktur və bağlantı layihələrinin genişləndirilməsində maraqlı olduğunu qeyd edərək, bilik və təcrübə üzrə də əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə iqtisadi əməkdaşlığın karbohidrogen sektorundan kənar sahələr üzrə şaxələndirilməsi üçün mövcud potensial müzakirə olunub. Yapon şirkətlərinin sənaye zonaları, "yaşıl enerji", dekarbonizasiya, yüksək texnologiyalar və innovasiya sahələrinə investisiya imkanları diqqətə çatdırılıb. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma layihələri, eləcə də infrastruktur və dayanıqlı şəhər inkişafı istiqamətində əməkdaşlıq perspektivləri müzakirə olunub, bir sıra yapon şirkətlərinin bu sahələrə artıq maraq göstərdiyi qeyd edilib.

Özbəkistan Respublikası Baş nazirinin müavini, iqtisadiyyat və maliyyə naziri Cəmşid Kuçkarov ilə keçirilən görüşdə isə Azərbaycan və Özbəkistan Maliyyə nazirlikləri arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub və tərəflər arasında yaxın günlərdə əməkdaşlığa dair memorandumun hazırlanaraq imzalanması barədə razılıq əldə olunub.

*"Azərbaycan"*

# Parlamentlərarası İttifaqın Baş katibi Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib

Ölkəmizdə səfərdə olan Parlamentlərarası İtiffaqın Baş katibi Martin Çunqonq mayın 4-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə tər çiçəklər düzüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində qonaq Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə gül dəstələri qoyub. Ona Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

Ziyarət zamanı qonağı Milli Məclis Katibliyinin rəisi Teymur Tağıyev və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# ICESCO-nun qərargahında "Natəvan Mədəni İrs Mükafatı"nın ilk qaliblərinin təltif edilməsi mərasimi olub

**Mayın 4-də Mərakeşdə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş qərargahında keçirilən "İslam dünyasında münaqişə və münaqişədənsonrakı dövrdə mədəni irsin idarə edilməsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində Heydər Əliyev Fondunun və ICESCO-nun birgə təsis etdiyi "Natəvan Mədəni İrs Mükafatı"nın ("Natavan Heritage Excellence Award") ilk təqdimat mərasimi olub.**










2025-ci ildə təsis olunan və Azərbaycanın görkəmli şairəsi, Qarabağ xanının qızı Xurşidbanu Natəvanın şərəfinə adlandırılan mükafat maddi irsin qorunması və idarə edilməsi sahəsində qabaqcıl təcrübəni bölüşmək, təşviq etmək baxımından əhəmiyyət daşıyır. "Natəvan Mədəni İrs Mükafatı" ölkəmizin milli dəyərlərinin qorunmasını, humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirməklə yanaşı, Azərbaycanın ədəbi-mədəni irsinin təbliğində də xüsusi rol oynayır. Heydər Əliyev Fondu və ICESCO tərəfindən təqdim edilən bu mükafat həmçinin azərbaycanlı şairənin xatirəsinə ehtiram olmaqla, Qarabağın zəngin mədəni irsini yaşadır.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, İordaniya şahzadəsi, Petra Milli İnam Fondunun prezidenti, Beynəlxalq Abidələr və Tarixi Yerlər Şurasının vitse-prezidenti Dana Firas iştirak ediblər.

İki ildən bir təqdim ediləcək "Natəvan Mədəni İrs Mükafatı" iki kateqoriyada - fərdi və layihə kateqoriyalarında qaliblərə verilir. Şərtlərə görə, layihə ICESCO-ya üzv ölkələrdən birində reallaşmalı, maddi-mədəni irsin qorunmasına və bərpasına yönəlməlidir.

Bu dəfə mükafata ICESCO-ya üzv ölkələrdən çoxsaylı müraciətlər daxil olmuş və onlardan 54-ü baxılmaq üçün qəbul edilmişdi. Beynəlxalq münsiflər heyətinin qərarı ilə "Layihə kateqoriyası" üzrə "Hebron/Əl-Xəlil Köhnə Şəhər Dükanlarının Bərpası: irsin qorunması və yerli iqtisadiyyatın canlandırılması üçün inteqrə olunmuş model" layihəsi üzrə Hebron Reabilitasiya Komitəsi (Fələstin) seçilib. Hebron/Əl-Xəlil köhnə şəhəri, o cümlədən İbrahim məscidi 2017-ci ildə UNESCO-nun Təhlükə Altında Olan Dünya İrs Siyahısına daxil edilib. Həmçinin 2020-ci ildə ICESCO-nun İslam Dünyası İrs Siyahısına salınıb və 2027-ci il üçün islam mədəniyyətinin paytaxtı elan olunub.

"Fərdi müraciət" üzrə isə İraq vətəndaşı Əyyub Thanun Yunis Əl-Faris qalib olub. Mosul İrs Fondunun təsisçisi və prezidenti olan Əyyub Thanun Yunis Əl-Faris islam dünyasında ən çox zərər görmüş şəhər irsi mühitlərindən birində "irsin davamlılığı"nın nümunəsini göstərir. O, "Böhran dövründə mədəni irs üçün ilkin yardım" və "Dünya İrsi Gənc Peşəkarlar Proqramı" üzrə ixtisaslaşmış təlimlər keçib, UNESCO-nun Mosul təşəbbüsü üzrə səfiridir. Gənc mütəxəssis kimi onun bütün səyləri münaqişədənsonrakı çoxmillətli mühitdə kimliyin və sosial birliyin bərpasına yönəlib.

"İslam dünyasında münaqişə və münaqişədənsonrakı dövrdə mədəni irsin idarə edilməsi" mövzusunda beynəlxalq konfransda çıxış edən Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycan ilə ICESCO arasında əlaqələr, o cümlədən 2024-cü ildə Şuşada Heydər Əliyev Fondu ilə ICESCO arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq layihələri barədə danışıb. O, multikulturalizm və tolerantlıq modeli ilə dünyada tanınan ölkəmizin mədəniyyət beşiyi olan Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" seçildiyini, bunun ardından isə 2025-ci ildə ICESCO çərçivəsində "Natəvan Mədəni İrs Mükafatı"nın təsis olunmasının xüsusi əhəmiyyətini qeyd edib. ICESCO ilə səmərəli əməkdaşlıqda Azərbaycan Prezidenti İlham Əliyevin və ICESCO-nun xoşməramlı səfiri qismində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səylərinin bilavasitə rol oynadığı qeyd olunub.

Çıxış zamanı müasir dünyada baş verən çoxsaylı münaqişələr fövqündə islam aləmində mədəni irsin qorunmasının və gələcək nəsillərə ötürülməsinin vacibliyinə toxunulub, bu istiqamətdə Heydər Əliyev Fondunun Azərbaycanda və digər ölkələrdə həyata keçirdiyi layihələr barədə iştirakçılara məlumat verilib. Erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionlarında dağıdılmış mədəni irs nümunələrinin bərpası istiqamətində Azərbaycan dövləti, o cümlədən Heydər Əliyev Fondu tərəfindən bərpa edilən tarixi abidələr, məscidlər barədə məlumat verilib.

Qeyd edilib ki, həyata keçirilən layihələr yalnız ölkə daxilini əhatə etmir. Fond beynəlxalq miqyasda, eləcə də Afrika qitəsində fəal iştirak edir. Xüsusilə ICESCO ilə əməkdaşlıq çərçivəsində Burkina-Fasoda və digər ölkələrdə təhsil sahəsində müxtəlif layihələr uğurla icra olunub.

Vurğulanıb ki, Azərbaycanın görkəmli şəxsiyyətlərindən olan Xurşidbanu Natəvanın adını daşıyan mükafat mədəni irsin qorunmasında seçilən şəxslərə verilir. Xurşidbanu Natəvan öz həyatını Qarabağın çiçəklənməsinə həsr edib. O, yalnız poeziya və ədəbiyyat sahələrində deyil, həm də cəmiyyətin inkişafında mühüm rol oynayıb, xeyriyyəçilik fəaliyyəti ilə yadda qalıb.

Tədbir zamanı Heydər Əliyev Fondu tərəfindən şairə Xurşidbanu Natəvana həsr olunan Azərbaycan xalçası ICESCO qərargahına hədiyyə edilib.

"Natəvan Mədəni İrs Mükafatı"nın münsiflər heyətində təmsil olunan İordaniya şahzadəsi Dana Firas mükafatın, xüsusilə münaqişələr zamanı mədəni irs abidələrinin dağılma təhlükəsi ilə üzləşdiyi dövrdə əhəmiyyətini vurğulayıb. O, bir sıra məkanlarda, o cümlədən Hələb, Mosul, Tumbuktuda mədəni və tarixi irsin qorunmasında bir sıra uğurlu layihələrin və təşəbbüslərin həyata keçirildiyini diqqətə çatdırıb. Bu kontekstdə "Natəvan Mədəni İrs Mükafatı"nın təcrübə mübadiləsi, savadlılığın artırılması, islam dünyasında uğurlu təşəbbüslərin təbliği baxımdan vaxtında irəli sürülmüş təşəbbüs olduğu qeyd edilib.

ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik çıxışında bildirib ki, islam dünyasının müxtəlif bölgələrində baş verən münaqişələr nəticəsində yüzlərlə milli irs nümunəsi ya zərər görüb, ya da tamamilə məhv edilib. O qeyd edib ki, Dünya İrs Siyahısına daxil olan 27-dən çox abidə hazırda ciddi təhlükə altındadır.

ICESCO-nun mədəni irsin qorunması və bərpası istiqamətində həyata keçirdiyi tədbirlərdən danışan Baş direktor vurğulayıb ki, işğal dövründə Azərbaycanın Qarabağ bölgəsinə, o cümlədən Şuşa şəhərinə dəymiş ziyanın qiymətləndirilməsi məqsədilə xüsusi missiya göndərilib. Missiya çərçivəsində 120-dən çox tarixi və mədəni irs abidəsinə baxış keçirilib, onların qorunması və bərpası üçün hərtərəfli fəaliyyət planı hazırlanıb.

Bildirilib ki, təşkilat tərəfindən Suriya ərazisində də mədəni irs nümunələrinin mövcud vəziyyətini müəyyənləşdirmək məqsədilə yaxın vaxtlarda analoji missiyanın həyata keçirilməsi planlaşdırılır.

Sonda Səlim əl-Malik qeyd edib ki, ICESCO Azərbaycanla, eləcə də Heydər Əliyev Fondu ilə əməkdaşlığa böyük önəm verir. O, Heydər Əliyev Fondunun Azərbaycanda mədəniyyət sahəsində mühüm və genişmiqyaslı layihələr həyata keçirməsinə də toxunub.

Konfransda çıxış edən Fələstin Dövlətinin turizm naziri Hani Al-Hayik Hebron şəhərinin bərpası üzrə layihənin qalib seçilməsi və bununla da bu layihəyə dəstək göstərilməsinə görə təşəkkürünü bildirib.

"Natəvan Mədəni İrs Mükafatı"nin ilk mükafatçıları təqdim olunan layihələrə göstərilən diqqətə və belə bir beynəlxalq mükafata layiq görülmələrinə görə ICESCO-ya və Heydər Əliyev Fonduna təşəkkür ediblər.

Daha sonra qonaqlar ICESCO nəzdində təşkil edilmiş Sultan Qabus Kitabxanası və münaqişə zonalarında bərpa layihələri üzrə ən yaxşı təcrübələrə həsr olunmuş fotosərgi ilə tanış olublar. Sərgidə 30 ilə yaxın erməni işğalı altında olan ərazilərimizdə dağıdılmış tarixi-mədəni, dini abidələrin bərpası üzrə görülmüş işlər, bu istiqamətdə Heydər Əliyev Fondunun Qarabağda həyata keçirdiyi layihələrə dair fotolar yer alıb.

Konfrans çərçivəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malikin görüşü keçirilib. Görüş zamanı Azərbaycan və digər ölkələrdə gələcək birgə layihələr müzakirə olunub.

**1923** *Azərbaycanın özü qədər əbədi* **2026**

# Heydər Əliyev siyasi irsi: inkişafımızın təməli



**Mayın 10-da xalqımızın Ümummilli Lideri, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin anadan olmasının 103-cü ili tamam olur. Heydər Əliyev elə bir şəxsiyyətdir ki, onun siyasi və dövlətçilik fəaliyyətinin hər bir mərhələsi istər bugünkü, istərsə də gələcək nəsillər üçün bir nümunədir. Prezident İlham Əliyevin liderliyi ilə tarixinin ən qüdrətli dövlətinə çevrilən respublikamızda dövlətçiliyin etibarlı təməllərini məhz Heydər Əliyev yaratdı. Bu təməllər üzərində Azərbaycan inkişaf etdi, gücləndi, beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirdi və işğal altındakı torpaqlarını müharibə yolu ilə azad edərək qalib dövlətə çevrildi.**

İllər keçdikcə biz Heydər Əliyev dühasının Azərbaycan xalqı və dövlətçiliyi qarşısındakı misilsiz xidmətlərini daha dərindən və yaxından görürük. Anadan olmasının 103-cü ildönümündə Heydər Əliyevin tarixi xidmətlərinə nəzər salmaqla işıqlı xatirəsini bir daha ehtiramla yad edirik.

### Heydər Əliyev və liderlik amili

Heydər Əliyev Azərbaycana iki dəfə - həm sovetlər dövründə, həm müstəqillik illərində rəhbərlik etmişdir. Hər iki tarixi dövrün reallıqları göstərir ki, Ulu Öndər rəhbərlik missiyasını Azərbaycanın olduqca çətin dövrlərində öz üzərinə götürmüş və hər dəfə respublikamızı ağır vəziyyətdən xilas etməklə, tariximizin şərəfli və qürurdoğuran səhifələrinin müəllifi olmuşdur. Azərbaycana hər iki rəhbərliyi illərində Heydər Əliyev respublikamızı böhranlardan xilas edib, xalqımızın şərəfli tarixini yazıb və yaradıb. 1969-cu ildən Azərbaycanda başlayan Heydər Əliyev epoxasının hər bir mərhələsi tariximizə yalnız qürurdoğuran həqiqətlərlə həkk olunub.

Bir vacib məqamı da qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycan dövləti qarşısındakı xidmətləri liderlərin xalqların taleyindəki roluna dair müasir dünya tarixinin ən mükəmməl nümunələrindəndir. Ulu Öndərin siyasi fəaliyyəti göstərir ki, güclü lider yalnız ölkəni idarə edən siyasi rəhbər deyil. Güclü lider həm də xalqın milli birliyini təmin edir, onların taleyində dönüş yaradır, dövləti yeni inkişaf mərhələsinə çıxarır və milli yaddaşda silinməz iz qoyur. Məhz Heydər Əliyev kimi liderlər mürəkkəb tarixi dönəmlərdə düzgün istiqamət müəyyən edir, milli maraqları qoruyur və dövlətin davamlı inkişafı üçün möhkəm təməl yaradırlar. Buna görə də liderlik fenomeni dövlətçilik tarixinin ayrılmaz və müəyyənedici amillərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir.

Lider amili xüsusilə böhran dövrlərində daha aydın şəkildə özünü göstərir. Müharibələr, siyasi qeyri-sabitlik, iqtisadi çətinliklər və ya dövlət quruculuğunun ilkin mərhələlərində güclü liderin mövcudluğu xalqın toparlanmasına, milli maraqların qorunmasına və strateji hədəflərin müəyyənləşdirilməsinə imkan yaradır. Azərbaycanın tarixində bütün bunları reallaşdırmağa müvəffəq olan Heydər Əliyevin siyasi və dövlət xadimi kimi həyata keçirdiyi fəaliyyət belə bir həqiqəti də təsdiq edir ki, liderlik fenomeni yalnız siyasi anlayış deyil, həm də dövlətlərin gələcəyini müəyyən edən strateji amil kimi qiymətləndirilməlidir. Bu baxımdan, müasir dünya tarixində siyasi liderlik faktoru Heydər Əliyevin dövlətçilik fəaliyyətinin nümunəsində aydın şəkildə özünü göstərir.

### Ulu Öndərin siyasi irsində dövlətçilik prinsipləri

Müasir beynəlxalq münasibətlər sistemində ideoloji və dövlətçilik prinsipləri hər bir dövlətin varlığını və davamlı inkişafını şərtləndirən əsas siyasi və institusional dayaqlardan biri kimi çıxış edir. Dünyanın inkişaf etmiş dövlətlərinin keçdiyi tarixi inkişaf yoluna nəzər salsaq, onların müəyyən prinsiplərə söykəndiyini görərik.

Azərbaycan dövlətinin söykəndiyi ideoloji və dövlətçilik prinsiplərinin əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmişdir. Bunlar həm də Azərbaycan dövlətinin təməl prinsipləridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun olaraq yenilənmiş həmin prinsiplər Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapmışdır. Bu prinsiplər Heydər Əliyev yolu, müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət və demokratik ənənələrin inkişafıdır.

Bu prinsiplərin hər biri Heydər Əliyevin siyasi irsinin əsasını təşkil edən ideoloji məsələlərdir. Müasir Azərbaycan dövlətinin formalaşması, möhkəmlənməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi bu prinsiplərin və strateji siyasi kursun uğurla həyata keçirilməsinin nəticəsidir. Odur ki, Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyəti Azərbaycanın bu günü və gələcəyi üçün mükəmməl siyasi irs kimi özünü göstərir. Bu siyasi irs Azərbaycan xalqının müstəqilliyi, güclü dövlətçilik, iqtisadi inkişaf, sosial rifah və xalqımızın milli birliyi kimi fundamental istiqamətləri əhatə edir.

Heydər Əliyevin siyasi irsinin əsas istiqamətlərindən biri güclü və müstəqil dövlət quruculuğudur. Ulu Öndər 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra xilas missiyasının göstəriciləri kimi ölkədə siyasi-ictimai sabitliyi təmin etdi, xaos və anarxiyanın qarşısını aldı. Bu sabitlik mütərəqqi dövlət quruculuğu üçün etibarlı zəmin yaratdı. Heydər Əliyevin dövlət quruculuğu strategiyası Azərbaycanın müstəqilliyini formal deyil, real və dayanıqlı bir sistemə çevirdi. 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyasında xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olduğu, dövlətin demokratik, hüquqi və dünyəvi xarakter daşıdığı kimi əsas prinsiplər öz əksini tapdı.

Onu da qeyd edim ki, hüquqi və institusional islahatlar da siyasi irsin mühüm komponentidir. Qanunvericilik bazasının yenilənməsi, Konstitusiyanın qəbul edilməsi və dövlət institutlarının formalaşdırılması uzunmüddətli idarəetmə effektivliyini təmin edən mexanizmlər yaratdı. Bu addımlar dövlətin funksional dayanıqlığını artırdı və idarəetmədə ardıcıllıq prinsipini möhkəmləndirdi.

Heydər Əliyev siyasi irsində əsas məsələlərdən biri milli-ideoloji çərçivənin formalaşdırılmasıdır. Bu ideologiya eyni zamanda azərbaycançılıq məfkurəsi kimi formalaşaraq milli kimliyin əsas sütunlarından birinə çevrildi. Azərbaycançılıq milli və dini münasibətlərin harmonik inkişafını, dini-etnik qruplar arasında birgəyaşayışı, ən başlıcası, xalqımızın milli-mənəvi dəyərlərini özündə təcəssüm etdirir. Ona görə Heydər Əliyevin azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırması xalqımızın dövlətçilik tarixində mühüm hadisələrdən biridir. Bu məfkurə Azərbaycan dövlətinin tərəqqisini şərtləndirən bitkin ideoloji konsepsiyadır.

Heydər Əliyevin siyasi irsində iqtisadi inkişaf strategiyası xüsusi yer tutur. Ulu Öndər 90-cı illərin ortalarından başlayaraq, bazar iqtisadiyyatı münasibətlərinə keçidlə bağlı strateji vəzifələri həyata keçirdi. Dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi təcrübələri nəzərə alınaraq, keçirilən islahatlar nəticəsində sərbəst bazar münasibətlərinə əsaslanan və sosialyönümlü iqtisadi sistemin formalaşdırılması, ölkədə mövcud olan təbii iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin edildi. Əlverişli biznes mühitinin yaradılması ölkəmizə xarici investisiya qoyuluşunu sürətləndirdi. Keçmiş SSRİ məkanında ilk dəfə olaraq Azərbaycanda torpaq əsl sahibinə - kəndliyə qaytarıldı. Ölkə iqtisadiyyatında davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu islahatlar mahiyyət etibarı ilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

Heydər Əliyevin müəyyən etdiyi yeni neft strategiyası ölkəmizin beynəlxalq mövqeyini gücləndirdi və uzunmüddətli inkişaf üçün əsas oldu. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ölkənin iqtisadi gələcəyini müəyyənləşdirdi və Azərbaycanın qlobal enerji xəritəsində yerini möhkəmləndirdi. Bu siyasət nəticəsində xarici investisiyalar ölkəyə cəlb olundu, iqtisadi sabitlik təmin edildi, müasir infrastruktur formalaşdı, regional enerji layihələri reallaşdırıldı. Bütün bunlar Azərbaycanın qeyri-neft sektorunun inkişafına da geniş imkanlar açdı.

Heydər Əliyev milli maraqları qətiyyətlə təmin edən xarici siyasət kursunu müəyyən etdi. Balanslaşdırılmış və praqmatik yanaşmaya əsaslanan bu siyasət Azərbaycanın milli maraqlarını beynəlxalq münasibətlər sistemində prioritetə çevirdi. Bu siyasətin əsas xüsusiyyətləri kimi böyük güclər arasında balansın qorunması, region ölkələri ilə mehriban qonşuluq münasibətlərinin qurulması, beynəlxalq təşkilatlarla inteqrasiya Azərbaycanı beynəlxalq münasibətlər sisteminin etimad və ehtiram göstərilən subyektinə çevirdi. Ən əsası, bu siyasət artıq keçmişdə qalmış Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini bütün beynəlxalq platformalarda qətiyyətlə təmin etdi.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində 1993-2003-cü illərdə respublikamız hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoydu. O dövrdə Azərbaycanın keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, respublikamız, sözün əsl mənasında, mühüm zirvələr fəth edib, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilib.

Bu mənada müasir Azərbaycan dövlətinin formalaşması, möhkəmlənməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi və dövlətçilik prinsiplərinin və strateji siyasi kursun uğurla həyata keçirilməsinin nəticəsidir. Ulu Öndər Heydər Əliyev müstəqilliyimizi xilas etdi, müasir dövlətçiliyimizin etibarlı və sarsılmaz təməllərini yaratdı.

### Heydər Əliyev yolu ilə uğurlara doğru

Ulu Öndərin siyasi irsi bu gün də ölkəmizin yüksəliş və tərəqqi yolunun alternativi olmayan istinadgahıdır. Prezident İlham Əliyevin yürütdüyü siyasət Heydər Əliyevin müəyyən etdiyi strateji kursun uğurlu davamı olmaqla yanaşı, yeni qlobal çağırışlarla zənginləşdirilir. Heydər Əliyev siyasi irsini layiqincə və qətiyyətlə davam etdirən Prezident İlham Əliyev bu təməllər üzərində Azərbaycanı regionda və dünyada söz sahibinə, qalib dövlətə çevirib.

Ötən 22 ildən artıq dövrün reallıqları göstərir ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməklə yanaşı, bu siyasəti zamanın çağırışlarından irəli gələrək ideoloji baxımdan daha da zənginləşdirib. Ölkəmizdə siyasi-ictimai sabitliyin, iqtisadi dayanıqlığın, hərbi təhlükəsizliyin, yüksək sosial rifahın və milli həmrəyliyin təmin olunması, xarici siyasətdə mükəmməl diplomatiyanın həyata keçirilməsi kimi vəzifələrin paralel şəkildə yerinə yetirilməsi Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas məzmununu təşkil etməklə Azərbaycanı öz tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəldib.

Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, "Cənub qaz dəhlizi"nin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi kimi hadisələr cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin əsas uğurlu hadisələri olmaqla bərabər, iqtisadi sahədə qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsini təmin etdi, qeyri-neft sektorunun inkişafı üçün güclü zəmin formalaşdırdı. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü. Bu illər ərzində Azərbaycanda iqtisadiyyat ilə yanaşı, elm, təhsil, səhiyyə, idman inkişaf edib, respublikamız kosmik kluba daxil olub. Bu baxımdan, 22 illik inkişaf mərhələsinə nəzər saldıqda dövlətimizin uğurları sadəcə heyranlıq doğurur. Bu dövrdə Azərbaycanın keçdiyi inkişaf öz dinamizmi, məzmunu və əhatəliliyi ilə fərqlənir. Çünki bu inkişaf məhdud sfera ilə kifayətlənməyərək cəmiyyət həyatının bütün sahələrini əhatə edir və tarixinin ən qüdrətli Azərbaycanını dünyaya təqdim edir.

Heydər Əliyevin siyasi irsində əsas strateji istiqamətlərdən biri də güclü ordu quruculuğu idi. Ulu Öndər dəfələrlə vurğulamışdır ki, dövlətin müstəqilliyi onun iqtisadi və hərbi gücü ilə birbaşa bağlıdır. Bu baxımdan güclü, Azərbaycan Ordusunun yaradılması, mükəmməl hərbi təhsil sisteminin formalaşdırılması Heydər Əliyevin dövlət quruculuğunun əsas səhifələrindən biridir. Bu istiqamətdə həyata keçirilən təkmil və uzaqgörən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycanın 2020-ci ildə əldə etdiyi hərbi qələbənin əsasında dayandı. Beləliklə, 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər və torpaqlarımızın işğaldan azad edilməsi hərbi əməliyyatların nəticəsi olmaqla yanaşı, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş strateji xəttin möhtəşəm nəticəsi idi.

Ulu Öndərin siyasi irsi ictimai fikirdə dövlətçilik və vətənpərvərlik kimi dəyərlərin özünə mühüm yer tutması üçün tarixi əhəmiyyət daşıyır. Buna görə də YAP Heydər Əliyev yolunu əsas amalı hesab edir və fəaliyyətini ona uyğun olaraq müəyyənləşdirir. Bütün bunlar hazırda 755 min nəfərdən çox üzvü olan YAP-ın möhtəşəm zirvələrə yol açan ümumxalq partiyası olduğunu, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti naminə üzərinə düşən missiyanı "Biz birlikdə güclüyük!" çağırışı ilə böyük əzm və qətiyyətlə yerinə yetirdiyini sübut edir.

Heydər Əliyevin siyasi irsi Azərbaycanın inkişaf modelinin əsasını təşkil edən kompleks bir sistemdir. Bu sistem sabitlik, milli ideologiya, iqtisadi strategiya və institusional quruculuğun vəhdəti üzərində qurulmuşdur. Heydər Əliyevin siyasi irsi həm də Azərbaycan dövlətçiliyinin ideoloji sütununu təşkil edir. Bu strateji kurs Azərbaycanın uzunmüddətli inkişaf modelinin əsasını təşkil edir. Ona görə Heydər Əliyev siyasi irsi Azərbaycanın yüksəlişini təmin edən, dövlətçilik ənənələrini gücləndirən və gələcək nəsillərə yol göstərən dərin bir siyasi-fəlsəfi dəyərlər sistemidir.

*Regionda və dünyada söz sahibi olan güclü və qalib Azərbaycan dövləti Heydər Əliyev siyasi irsinin və bu irsi layiqincə davam etdirən, dövrün çağırışlarına uyğun zənginləşdirən Prezident İlham Əliyevin siyasi kursunun təntənəsidir. Bu siyasi irs hər zaman respublikamızın uğurlarının təməlində dayanacaqdır.*

**Mübariz QURBANLI,**
***YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı***

# Naxçıvanın xilaskarı

**Naxçıvan Muxtar Respublikasının yüksəlişində və tərəqqiyə qovuşmasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin tarixi xidmətləri olmuşdur. 1990-cı ildə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə Ümummilli Liderin reallaşdırdığı müdrik və qətiyyətli tədbirlər sayəsində qısa müddətdə muxtar respublikanın etibarlı müdafiəsi təmin edilmiş, dövlət müstəqilliyi ilə bağlı mühüm addımlar atılmışdı. Bu tarixi reallıqları dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".**

Ümummilli Lider Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi blokada nəticəsində iqtisadi və siyasi böhran məngənəsində çırpınan, erməni yaraqlılarının hücumları ilə təkbətək qalan muxtar respublikanı məhv olmaq təhlükəsindən xilas etdi. O günlərdə üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Ali Məclisində qaldırılması, qonşu Türkiyə və İranla zəruri əlaqələr yaradılması Ulu Öndərin təkcə Naxçıvan deyil, bütövlükdə, xalqımız qarşısında misilsiz tarixi xidmətləri idi. Naxçıvanı qoruyub, onu işğaldan, məhv olmaqdan xilas edən Ümummilli Liderimiz bununla bağlı deyirdi: "Mən 3 il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm".

Ulu Öndər Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil, demokratik və dünyəvi dövlət yaradılması üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul olundu. "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2023-cü il tarixli sərəncamında da deyildiyi kimi: "Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.

Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır".

Ümummilli Liderin daimi diqqəti, himayəsi, yerli potensialın hərəkətə gətirilməsi ilə ölkədə ilk dəfə Naxçıvanda başlatdığı aqrar islahatlar uğurla həyata keçirildi. Mövcud sənaye müəssisələri özəlləşdirildi və yenidən quruldu. Yerli ehtiyatlara əsaslanan müasir istehsal sahələri yaradıldı. Naxçıvan şəhərində, rayon mərkəzlərində, yaşayış məntəqələrində əsaslı quruculuq işlərinə başlandı. Təhsil, səhiyyə və digər sahələrin inkişafı prioritet vəzifəyə çevrildi. Əhalinin elektrik enerjisi, qaz, içməli su problemi aradan qaldırıldı. Kommunikasiyalar təzələndi, genişləndi. Rabitə-nəqliyyat şəbəkəsi müasirləşdirildi, tələbata uyğun quruldu. Muxtar respublikanın etibarlı müdafiəsi təmin olundu, hərbi quruculuq məsələləri diqqət mərkəzində saxlanıldı. Həyata keçirilən misilsiz işlərin hamısında əsas istiqamət məmləkətimizin hərtərəfli tərəqqisinə, insana qayğıya, əhalinin maddi-rifah halının, yaşayış səviyyəsinin və şəraitinin daha da yaxşılaşdırılmasına yönəlmişdi.

Ümummilli Liderimizin Naxçıvana gəlişi, əhalinin təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu ulu diyarı mətanətlə qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrilmişdi. Dahi şəxsiyyətin Naxçıvanın xilaskarı kimi göstərdiyi misilsiz xidmətlərindən biri də o idi ki, Ulu Öndər hələ sağlığında Naxçıvanla bağlı arzularının gələcəkdə gerçəkləşməsi, quruculuq xəttinin sonrakı dövrlərdə də uğurlu davam etdirilməsi qayğısına da qalmışdı. Prezident İlham Əliyevin dediyi kimi: "Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana həmişə böyük diqqət və qayğısı var idi. Xüsusilə 1990-cı illərin əvvəllərində naxçıvanlılar Heydər Əliyevi özlərinə rəhbər seçəndən sonra. Həmin ağır, çətin vəziyyətdə Naxçıvanda sabitliyin təmin olunması, Naxçıvanda inkişafın təmin olunması məhz Heydər Əliyevin və naxçıvanlıların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Naxçıvanlılar bu çətin sınaqdan şərəflə çıxdılar və o illər ərzində təməli qoyulmuş layihələr, işlər bu gün öz bəhrəsini verməkdədir".

Tarix boyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrü yaşamış, zəngin mədəni irsi olan qədim Naxçıvan bugünkü inkişafı ilə daha xoş sabahlara doğru irəliləyir. Tarixin yeni Naxçıvanı dostlarımızı sevindirir, düşmənlərə isə gözdağı verir. Vətən, yurd sevgisi üzərində müasir Naxçıvan ucaldılır. Xalqımızın böyük oğlu Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə nümayiş etdirməyi tövsiyə edirdi: "Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır". Əldə olunmuş uğurlar dahi rəhbərin yoluna sədaqətin nəyə qadir olduğunun daha bir göstəricisinə çevrilmişdir. Naxçıvanda bütün istiqamətlərdə başlanan yeni islahatlar praktik şəkildə özünü doğruldur və muxtar respublikanın davamlı inkişafını təmin edən düzgün yol seçilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə cənab İlham Əliyevin qarşıya qoyduğu tapşırıq və tövsiyələr vaxtında və layiqincə icra olunur.

Azərbaycan xalqı bu gün çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayır, bütün dünya azərbaycanlıları qürur və sevinc hissləri keçirirlər. Tariximizə 44 günlük Vətən müharibəsi kimi daxil olan qələbə nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü təmin edildi. Ölkəmizin sosial-iqtisadi cəhətdən davamlı və dinamik inkişafı, regionda aparıcı dövlətə çevrilməsi, Prezident, Ali Baş Komandan İlham Əliyevin Vətənimizin tərəqqisi, dövlətimizin beynəlxalq aləmdə nüfuzunun durmadan yüksəldilməsi, 30 ilə yaxın müddətdə işğal altında qalan doğma Qarabağın azad olunması istiqamətində möhtəşəm fəaliyyəti hər bir vətəndaşımız, yetişməkdə olan hər bir gəncimiz üçün böyük vətənpərvərlik nümunəsi, vətənpərvərlik məktəbidir.

İndi işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri gedir. Ərazilər minalardan təmizlənir, yollar salınır, körpülər, tunellər tikilir, yeni elektrik stansiyaları qurulur, innovativ layihələr həyata keçirilir. Bu gün Azərbaycan ərazi bütövlüyünü təmin etmiş, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparan dövlət olaraq gücünü həm dosta, həm də düşmənə göstərməkdədir. Bir çox dünya ölkələri tərəfindən də maraqla izlənilən bu tədbirlər Azərbaycan dövlətinin iqtisadi gücünü, nüfuzunu göstərir.

Ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur göstərir ki, dahi şəxsiyyət Heydər Əliyevin şah əsəri olan Azərbaycan həm etibarlı əllərdə, həm də dinamik yüksəliş yolundadır. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, torpaqlarımızın işğaldan azad olunmasını və ərazi bütövlüyümüzün bərpasını təmin edən Prezident cənab İlham Əliyev bununla həm də Ulu Öndər Heydər Əliyevin arzularını və vəsiyyətini layiqincə yerinə yetirdi. Bu tarixi uğurlar göstərir ki, Heydər Əliyev ideyaları Prezident İlham Əliyevin liderliyi ilə layiqincə davam etdirilir.

*Prezident İlham Əliyevin diqqət və qayğısı ilə inkişafının yeni mərhələsinə qədəm qoyan muxtar respublikada həyata keçirilən islahatlar cəmiyyət həyatının bütün sahələrinə dinamizm, canlanma gətirib, inkişafı daha da sürətləndirib. Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının əsasında Heydər Əliyev siyasi xətti dayanır. Şübhəsiz ki, dahi rəhbərin yoluna sədaqət qarşıda dayanan vəzifələrin uğurlu icrasını təmin edəcəkdir. Cənab İlham Əliyevin də dediyi kimi: "Bizim inkişafımızın təməlində Ulu Öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik".*

***Aysel DÜNYAMALIYEVA,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

1923 *Azərbaycanın özü qədər əbədi* 2026

**Tarix sübut edib ki, xalqların taleyində həlledici dönüş nöqtələri çox vaxt fenomenal şəxsiyyətlərin iradəsi və uzaqgörənliyi ilə bağlı olur. Elə liderlər var ki, onlar bütöv bir millətin mənəvi simvolu, dövlətçilik dühası və tarixin axarını dəyişən qətiyyətli iradə sahibi kimi yaddaşlara həkk olunurlar. Müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyev məhz belə nadir fenomen, xalqımızın çoxəsrlik tarixinə və taleyinə silinməz möhürünü vuran uca şəxsiyyətdir. Mayın 10-da anadan olmasının 103-cü ildönümü tamam olan Heydər Əliyevin siyasi fəaliyyəti başdan-başa Azərbaycanın var olması və tərəqqisi uğrunda yaşanan fədakar ömür salnaməsidir.**



# Bütöv Azərbaycana gedən yolun təməllərini yaradan lider

Ulu Öndərin millət, xalq sevgisinin ən uca zirvəsində hər zaman Qarabağ və Bütöv Azərbaycan idealları dayanıb. Dahi şəxsiyyət ən mürəkkəb siyasi zamanlarda belə xalqın milli maraqlarını hər şeydən üstün tutub, parçalanmaqda olan bir məmləkəti vahid ideallar ətrafında birləşdirərək zəfərə və bütövlüyə uzanan yolun təməlini atıb.

## Milli dirçəliş, iqtisadi tərəqqi

Bəli, Azərbaycanın müasir dövlətçilik tarixinə nəzər saldıqda, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin təmini istiqamətində atılan hər bir addımın arxasında Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin dayandığını görürük. Ümummilli Liderin hələ 14 iyul 1969-cu ildə ölkə rəhbərliyinə gəlişi ilə respublikada milli dirçəlişin, hərtərəfli inkişafın əsası qoyuldu. Həmin vaxt Azərbaycanda kənd təsərrüfatından tutmuş sənayeyə qədər, ümumiyyətlə, bütün sahələrdə tənəzzül yaşanırdı. Ulu Öndər o dövrdə Azərbaycanı inkişaf etdirərək müstəqil yaşamağa qadir olan bir ölkəyə çevirməyi qarşısına prioritet qoydu və bu istiqamətdə məqsədyönlü addımlar atmağa başladı. Sonradan Ümummilli Lider həmin dövrün ümumi mənzərəsini belə təsvir etmişdi: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".

O zaman Ulu Öndərin rəhbərliyi altında qarşıya qoyulan hədəflər bir-bir uğurla həyata keçirildi, sosial-iqtisadi həyatın bütün sahələrində müsbət dinamika əldə edildi. Həmin dövrdə yaradılan güclü sənaye potensialı və kadr hazırlığı ilə əslində, həm də gələcək müstəqilliyimizin iqtisadi bünövrəsi yaradıldı.

Xüsusilə Qarabağın inkişafı, bölgədə infrastrukturun qurulması və Şuşanın milli mədəniyyət mərkəzi kimi qorunması Ulu Öndərin strateji hədəflərindən biri olub. Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə Qarabağda separatçılıq meyllərinin qarşısı qətiyyətlə alınmışdı. Şuşada Molla Pənah Vaqifin məqbərəsinin ucaldılması, Natəvanın abidəsinin açılması isə bu qədim şəhərin Azərbaycan ruhunun sarsılmaz olduğunu bütün dünyaya nümayiş etdirirdi.

Bir sözlə, Ulu Öndər Qarabağda azərbaycançılıq məfkurəsinin inkişafı, milli və tarixi köklərə bağlılığın artırılması və möhkəmlənməsi üçün səylə çalışırdı. Təbii ki, bütün bunlar Qarabağı Azərbaycandan qoparmaq istəyən və Moskvanın dəstəyini alan qüvvələr üçün məqbul deyildi. Buna görə də hər cür çirkin fəaliyyətlə çalışırdılar ki, nə yolla olur-olsun Heydər Əliyevi vəzifəsindən uzaqlaşdırsınlar.

Təəssüflə qeyd edilməlidir ki, 1980-ci illərin sonlarında Azərbaycana rəhbərlik edənlər qətiyyətli ola bilmədilər, respublikamızın və xalqımızın milli maraqlarından uzaq oldular. Ona görə həmin dövr və müstəqilliyimizin ilk illəri yaddaşlara xaos, anarxiya və böhran illəri kimi həkk olundu. Dövlət idarəçiliyinin iflici, vətəndaş müharibəsi təhlükəsi və torpaqlarımızın sürətlə işğalı Azərbaycanı bir dövlət kimi yox olma həddinə gətirmişdi. Belə bir ümidsiz məqamda xalqın təkidli tələbi ilə 1993-cü ilin yayında Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı əsl xilaskarlıq missiyasına çevrildi. Bu, uçurumun kənarında olan bir millətin dirçəlişə başladığı strateji dönüş nöqtəsi - Milli Qurtuluş Günü oldu. Heç bir mübaliğəyə varmadan demək olar ki, əgər 15 iyun tarixində Heydər Əliyev məsuliyyəti öz üzərinə götürməsəydi, bu gün xəritədə bütöv Azərbaycan dövləti olmazdı.

Belə bir çətin məqamda xalqı ölkəsi naminə taleyüklü qərar verən dahi şəxsiyyət Heydər Əliyev Qarabağın azadlığı üçün həm hərbi, həm iqtisadi, həm də diplomatik təməllər lazım olduğunu bilirdi. 1994-cü ildə onun Ali Baş Komandanlığı altında keçirilən uğurlu Horadiz əməliyyatı sarsılmış xalqın inamını özünə qaytaran ilk böyük hərbi nailiyyəti idi. Bu qələbə nəticəsində Füzuli rayonunun 20 Arazboyu kəndinin, Horadiz qəsəbəsinin və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin işğaldan azad edilməsi nizami ordu quruculuğunun ilk töhfəsi oldu. Bununla həm də işğaldan qurtulan torpaqlarımıza ilk qayıdış gerçəkləşdirildi.

Məhz Ulu Öndərin birbaşa təşəbbüsü və uzaqgörən hərbi siyasəti nəticəsində 1999-cu ilin aprelində Azərbaycan Ordusunun elit bölməsi olan Xüsusi Təyinatlı Qüvvələr yaradıldı. Bu, ordumuzun müasir standartlara keçidində atılan ən cəsarətli addımlardan biri idi. Dahi lider bu qüvvələrin formalaşması üçün qardaş Türkiyənin zəngin hərbi təcrübəsindən yararlanmağı strateji prioritet kimi müəyyən etdi və XTQ-nin ən müasir silah və texnika ilə təchizatını daim şəxsi nəzarətində saxladı.

Heydər Əliyevin xüsusi təyinatlıların formalaşmasına verdiyi bu dəstək, əslində, 20 il sonrakı böyük qələbənin gizli qəhrəmanlarını hazırlamaq missiyası idi. Bu döyüşçülərə təkcə fiziki güc deyil, sarsılmaz vətənpərvərlik ruhu və fədakarlıq hissi aşılanırdı. Ümummilli Liderin təməlini qoyduğu bu peşəkar məktəbin yetirmələri 44 günlük Vətən müharibəsində böyük qəhrəmanlıq göstərdilər. Qarabağın mirvarisi Şuşanın sıldırımlarına dırmaşaraq, dünyanı heyrətə salan qəhrəmanlıq dastanı yazdılar. XTQ-nin bu gün bölgədə ən güclü elit birləşmələrdən biri olması vaxtilə Ulu Öndər Heydər Əliyevin milli ordu quruculuğunda göstərdiyi səylərin ən parlaq hərbi təzahürüdür.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın taleyini dünyanın böyük dövlətlərinin iqtisadi maraqları ilə bağlayan diplomatik və siyasi təhlükəsizlik qalxanı rolunu oynadı. Heydər Əliyev dünyanın ən iri neft şirkətlərini Bakıya gətirməklə həm də Azərbaycanın ərazi bütövlüyünə beynəlxalq maraq yaratdı. Bu müqavilədən əldə edilən ilk gəlirin məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilməsi də təsadüfi xarakter daşımırdı. 2001-2002-ci illərdə imzalanan fərmanlarla Biləsuvar, Füzuli və Ağdamda müasir qəsəbələr salındı və acınacaqlı vəziyyətdə olan çadır şəhərcikləri ləğv edildi.

Ulu Öndər Heydər Əliyev gərgin iş qrafikinə baxmayaraq, istər bayramlarda, əlamətdar günlərdə, hətta adi zamanlarda daim keçmiş məcburi köçkünlərlə bir araya gəlir, onların yaşayış şəraiti ilə yaxından maraqlanır, problemlərini dinləyib həllinə göstəriş verirdi. Ulu Öndərin çadır düşərgələrinə səfər etməsi, məcburi köçkünlərin dərdini dinləməsi, onların bir gün mütləq öz yurdlarına dönəcəyi ilə bağlı qəti inam ifadə edən sözləri bu insanlarımızın Vətənə qayıdış ümidini heç zaman sönməyə qoymurdu: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".

## Diplomatik cəbhədə göstərilən sarsılmaz iradə

Heydər Əliyev dühasının ən parlaq təzahürlərindən biri də onun beynəlxalq müstəvidə yürütdüyü milli maraqlara söykənən diplomatik strategiyası idi. Ulu Öndər yaxşı bilirdi ki, müstəqilliyin əbədiliyi və ərazi bütövlüyünün bərpası üçün təkcə iqtisadi və hərbi güc kifayət etmir. Bunun üçün həm də dünyanın ən nüfuzlu kürsülərində Azərbaycanın haqlı səsini diktə edən, tarixin axarını dəyişən siyasi iradə ortaya qoymaq lazımdır. Beləliklə, 1994-cü ildə atəşkəs razılaşmasına nail olmaqla ölkədə nisbi sabitliyi təmin edən Ulu Öndər, əslində, daha böyük bir diplomatik savaşın təməlini qoydu. Hakimiyyətdə olduğu 10 il ərzində bu böyük siyasətçi bir an belə Qarabağ probleminin beynəlxalq gündəlikdən düşməsinə, "dondurulmuş münaqişə" kimi unudulmasına imkan vermədi. Heydər Əliyev hər bir xarici səfərini, hər bir mötəbər tribunanı Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün fürsətə çevirdi. BMT-nin kürsüsündən tutmuş ATƏT-in zirvə toplantılarına qədər bütün platformalarda o, Azərbaycanın üzləşdiyi işğal faktını, qaçqın və məcburi köçkünlərin ağır humanitar fəlakətini dünya liderlərinin diqqətinə çatdırırdı. Ulu Öndərin barışmaz mövqeyi və dəmir məntiqi sayəsində BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi hər zaman gündəmdə saxlanıldı. O, beynəlxalq birlikdən bu sənədlərin kağız üzərində qalmamasını, icra olunmasını qətiyyətlə tələb edirdi.

Dahi diplomat ən mürəkkəb danışıqlarda belə geri çəkilməyən, milli qüruru hər şeydən üstün tutan bir lider kimi beynəlxalq birliyi Azərbaycanın reallıqları ilə barışmağa məcbur edirdi. Bu diplomatik savaşın ən gərgin və həlledici məqamı isə 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitində yaşandı...

Tam inamla söyləmək olar ki, bu sammit Azərbaycanın diplomatik zəfərlərinin ilk və ən möhkəm hüquqi təməli oldu. O vaxt Ermənistan öz işğalçılıq siyasətini ört-basdır etməyə çalışaraq, münaqişənin həlli prinsiplərini özündə ehtiva edən 20-ci maddəyə veto qoymaq istəyirdi. Lakin Ulu Öndər Heydər Əliyev qətiyyətli və barışmaz mövqe nümayiş etdirərək bəyan etdi ki, əgər bu maddə sənədə salınmasa, o, sammitin bütün sənədlərinə veto qoyacaq.

Bu kəskin etiraz və gərgin müzakirələr nəticəsində 54 dövlətdən 53-ü Azərbaycanın haqlı mövqeyini dəstəklədi. Sammitin yekun sənədinə daxil edilən xüsusi bəyanatda - Ermənistan və Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan tərkibində Dağlıq Qarabağa ən yüksək dərəcəli özünüidarəetmə verən özünütəyinetmə əsasında Dağlıq Qarabağın sazişlə müəyyən edilmiş hüquqi statusu, tənzimləmə müddəalarına bütün tərəflərin əməl etməsini təmin edən qarşılıqlı öhdəliklər daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi öz əksini tapdı. Beləliklə, Heydər Əliyev Ermənistanın "konsensus" qaydasından sui-istifadə etmək cəhdini boşa çıxararaq, münaqişənin beynəlxalq hüquq müstəvisində həlli üçün dəyişməz formul ortaya qoydu.

1996-cı il dekabrın 6-da ATƏT-in Lissabon Zirvə toplantısının yekunları ilə əlaqədar respublika ictimaiyyətinin nümayəndələrilə görüşündəki nitqində Ulu Öndər bu sammitin tarixi əhəmiyyətini belə izah etmişdi: "Lissabon Zirvə görüşünün müsbət nəticələrindən biri də ondan ibarətdir ki, bu günlər bütün dünya ictimaiyyəti, dünyanın bütün informasiya orqanlarının - qəzetlərin, televiziya və radionun diqqəti Lissabona cəlb olunmuşdu - bu, təbiidir, çünki orada böyük bir beynəlxalq tədbir həyata keçirilirdi, o cümlədən xüsusən Ermənistan-Azərbaycan münaqişəsinə cəlb olunmuşdu. Dünya ictimaiyyətinin nəzərdiqqətinin bu problemə belə geniş cəlb olunması, eyni zamanda onların bu məsələnin həlli yollarını axtararaq problemi dərindən araşdırması, öyrənməsi nəticəsində biz Azərbaycanın haqlı olmasını dünyaya yaya bildik, təbliğ edə, nümayiş etdirə bildik".

Ulu Öndərin gərgin diplomatik fəaliyyəti nəticəsində dünya Azərbaycanın ərazi bütövlüyünü sarsılmaz bir prinsip kimi tanıdı və bununla da gələcək tarixi Qarabağ qələbəmiz üçün həlledici olan hüquqi baza formalaşdırıldı.

## Böyük inam

Ulu Öndər Heydər Əliyev fenomenini millətinin nəzərində ucaldan əsas amil onun hər zaman xalqının yanında olması idi. İnsanlar üçün o, hər bir azərbaycanlının taleyini düşünən "Ata" obrazı idi. Ulu Öndər parçalanmaqda olan xalqı azərbaycançılıq məfkurəsi ətrafında birləşdirərək milli həmrəyliyə nail oldu. Bu birlik sonradan zəfər həmrəyliyinə çevrilərək Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə öz zirvəsinə çatdı.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük və bəlkə də ən taleyüklü xidməti özündən sonra ölkəni qüdrətli gələcəyə daşıyacaq siyasi varis yetişdirməsi oldu. Onun 2003-cü ildə xalqa müraciətində böyük bir səmimiyyət və qətiyyətlə dediyi "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" kəlamı siyasi vəsiyyət olmaqla yanaşı, Azərbaycanın bütövlüyünə və Zəfərinə açılan yeni səhifə idi. Ulu Öndər İlham Əliyev şəxsiyyətində həm özünün diplomatik məktəbini keçmiş peşəkar bir lider, həm də sarsılmaz milli iradəyə malik vətənpərvər şəxsiyyət yetişdirmişdi.

Bu tarixi etimad illər ötdükcə öz təsdiqini real işlərdə, qüdrətlənən orduda və möhkəmlənən dövlətçilikdə tapdı. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə başlatdığı və yarımçıq qalan arzuları Prezident İlham Əliyevin rəhbərliyi ilə addım-addım gerçəyə çevrilməyə başladı.

2020-ci ilin payızında başlanan 44 günlük Vətən müharibəsi isə bu inamın ən böyük sınağı və parlaq təntənəsi oldu. Azərbaycanın həmin il sentyabrın 27-də başladığı əks-hücum əməliyyatı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müasir hərb tarixinə yeni taktiki model gətirdi. İlk günlərdən ön cəbhə xəttinin uğurla yarılması, Murovdağ silsiləsi və Suqovuşan kimi strateji yüksəkliklərin azad edilməsi düşmənin 30 illik müdafiə sistemini iflic etdi. Qısa zaman ərzində 300-dən çox yaşayış məntəqəsinin azad edilməsi Azərbaycan Ordusunun həm texnoloji, həm də peşəkarlıq baxımından düşməndən qat-qat üstün olduğunu nümayiş etdirdi. Bu hərbi yürüşün kulminasiya nöqtəsi isə noyabrın 8-də Şuşanın azad edilməsi oldu ki, bu da düşmənin hərbi müqavimət iradəsini birdəfəlik qırdı.

Noyabrın 9-da daha 70 kəndin azad edilməsi ilə Ermənistanın qarşısında yalnız iki seçim qaldı. Ya tam məhv olmaq, ya da kapitulyasiya aktına qol qoymaq. 10 noyabr gecəsi imzalanmış üçtərəfli Bəyanat münaqişənin hərbi mərhələsinə son qoydu və Azərbaycanın diplomatik diktəsini təsdiqlədi. Ali Baş Komandanın tətbiq etdiyi mükəmməl hərbi-siyasi taktika sayəsində Ağdam, Laçın və Kəlbəcər rayonları bir güllə atılmadan, itki verilmədən işğaldan azad edildi.

Bəzən tarixin gərdişində elə rəmzi məqamlar olur ki, onlar hadisələrin təsadüf yox, həm də ilahi ədalətin nəticəsi olduğunu sübut edir. Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi 2023-cü il Azərbaycan tarixinə həm də separatizmin kökünün birdəfəlik kəsildiyi il kimi həkk olundu. 1993-cü ildə dahi liderin böyük fədakarlıqla qarşısını aldığı ölkəmizin parçalanma təhlükəsi, düz 30 il sonra - məhz onun 100-cü ildönümündə reallaşan antiterror tədbirləri ilə birdəfəlik tarixin arxivinə gömüldü.

Xankəndidə separatçı rejimin ağ bayraq qaldırması və Azərbaycanın suverenliyinin bütün ölkə ərazisində tam təmin edilməsi Ulu Öndər Heydər Əliyevin ruhunu şad etdi. Çünki Ümummilli Liderin vaxtilə böyük uzaqgörənliklə qurub-yaratdığı, hər daşında izi olan Xankəndi artıq yad nəfəslərdən təmizlənmiş, öz həqiqi sahiblərinə qovuşmuşdu. 15 oktyabr 2023-cü ildə Prezident İlham Əliyevin Xankəndi şəhərində Azərbaycan bayrağını ucaltması, Ulu Öndər arzularının çin olması anlamına gəlirdi.

Dahi şəxsiyyət Heydər Əliyevin 100 illik yubileyi ilində Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad, azad edilmiş torpaqlarda dalğalanan Azərbaycan bayrağı dünyaya mesaj verdi ki, Heydər Əliyevin qurduğu dövlət sarsılmazdır və onun vəsiyyəti tam, qəti və əbədi olaraq yerinə yetirilib.

Prezident İlham Əliyevin Şuşa azad edildikdən sonra Şəhidlər xiyabanından xalqa müraciəti zamanı səsləndirdiyi kimi: "...Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!.." Bu kəlamın arxasında 17 illik gərgin hazırlıq, hər günü zərgər dəqiqliyi ilə hesablanmış diplomatiya və sarsılmaz iradə dayanırdı. Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycanı xilas edib təməllərini möhkəmləndirmişdisə, cənab İlham Əliyev bu təməllər üzərində bütöv Azərbaycanı inşa etdi.

İndi Qarabağ və Şərqi Zəngəzur Ulu Öndərin xəyal etdiyi kimidir. Bərpa olunan şəhərləri, çiçəklənən kəndləri və hər bir qarışında milli kimliyimizin izləri ilə...

Vətən müharibəsindən dərhal sonra Azərbaycan öz gücünə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti və quruculuq işlərinə başladı. Bu gün həmin torpaqlara səfər edərkən burada dövlətimizin həyata keçirdiyi nəhəng layihələrin şahidi oluruq. Bu ərazilərdə artıq üç beynəlxalq hava limanı istifadəyə verilib - Zəngilan, Füzuli, Laçın. Həmçinin çoxsaylı körpülər, tunellər, elektrik stansiyaları tikilib, yeni yollar çəkilib.

Ulu Öndərin mənəvi irsinin yaşadılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. Fondun işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı bərpa işləri Ümummilli Liderin ruhuna ehtiramdır. Qarabağ və Şərqi Zəngəzurda dini-mədəni abidələrimizin qısa müddətdə bərpası Heydər Əliyevin illər öncə tarixi torpaqlarımızda ucaltdığı milli ruhun qayıdışının rəmzidir.

Bir mühüm məqamı da vurğulamaq lazımdır ki, Azərbaycan qazanmış olduğu tarixi qələbə ilə həm də sülh prosesinin müəllifidir. Ötən ilin avqustunda Vaşinqtonda əldə olunan razılaşmalar, sülh istiqamətində atılan qətiyyətli addımlar, Zəngəzur dəhlizi (TRIPP) kimi nəhəng nəqliyyat-logistika təşəbbüsləri bölgədə tamamilə yeni reallıqlar formalaşdırır. Azərbaycan 44 günlük müharibədən sonra qarşı tərəfə sülh müqaviləsi təklif edən dünyadakı nadir ölkələrdən biri kimi tarixə düşdü. Bu sülhməramlı liderlik beynəlxalq müstəvidə də ən yüksək səviyyədə etiraf olunur.

*Prezident İlham Əliyevin Əbu-Dabidə humanizm və qardaşlıq rəmzi olan "Zayed İnsan Qardaşlığı Mükafatı", eləcə də bu günlərdə "Sülh və Barışıq üçün Gernika mükafatı" ilə təltif edilməsi ölkəmizin dünyadakı artan nüfuzunun əyani sübutudur. Bu ali mükafatlar cənab İlham Əliyevə məhz regionda onilliklər boyu davam edən münaqişəyə son qoyan uzaqgörən siyasətinə görə verilmişdir.*
*Azərbaycanın qazandığı bütün bu möhtəşəm nailiyyətlərin, qələbələrin, sülhün və qüdrətin arxasında isə böyük düha Heydər Əliyevin sönməz ideyaları dayanır. Ulu Öndərin yolu ilə inamla irəliləyən Azərbaycan bu gün bütöv, suveren və dünyada söz sahibi olan qalib dövlət kimi əbədiyaşarlıq qazanıb.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı***

# Bakıda klassik musiqi konserti təşkil olunub

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103 illiyi ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə metronun "Gənclik" stansiyasının yaxınlığındakı istirahət parkında açıq havada Ulu Öndərin əziz xatirəsinə həsr edilən "Bir ömrün simfoniyası" adlı klassik musiqi konserti keçirilib.

Bakı Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, paytaxt sakinləri və qonaqların iştirakı ilə keçirilən konsertdə Mustafa Mehmandarovun rəhbəri və baş dirijoru olduğu "Archi" Kamera Orkestrinin ifasında musiqi əsərləri səsləndirilib.

Konsert zamanı səhnədə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən video-fotomateriallar nümayiş etdirilib, onun sevdiyi klassik mahnılar səsləndirilib.

Qeyd edilib ki, son illərdə dövlətimizin başçısı İlham Əliyevin ölkəmizin, o cümlədən paytaxt Bakı şəhərinin inkişafı istiqamətində gördüyü işlər və həyata keçirilən böyük layihələr Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib, istifadəyə verilən müasir istirahət parkları və bağlar paytaxtımızı parklar və yaşıllıqlar şəhəri edib.

Konsertdə Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Aqşin Əlizadə, Arif Məlikov, Müslüm Maqomayev kimi dahi Azərbaycan bəstəkarlarının unudulmaz bəstələri ilə yanaşı, dünyaşöhrətli Yohannes Brams və Astor Piazzollanın də əsərləri ifa edilib.

Azərbaycanın mədəniyyət xadimlərinin bir-birindən maraqlı ifaları ilə keçən təntənəli konsert iştirakçıların böyük marağına səbəb olub, incəsənət xadimlərinin çıxışları sürəkli alqışlarla qarşılanıb.

Konsertə Müslüm Maqomayevin "Azərbaycan" mahnısının sədaları altında möhtəşəm atəşfəşanlıqla yekun vurulub.

# Heydər Əliyev Mərkəzində "İz" sənədli filminin nümayişi olub

Mayın 2-də Heydər Əliyev Mərkəzində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində "İz" sənədli filminin nümayişi olub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu tərəfindən təqdim edilən filmdə Ulu Öndərin həyat və fəaliyyətindən bəhs olunur. Filmin süjet xətti Ümummilli Lider Heydər Əliyevin çıxışları, müsahibələri əsasında onun həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edir.

Filmdə Ümummilli Liderin Azərbaycana və xalqa bağlılığı, Azərbaycanın müstəqil dövlət kimi qüdrətlənməsi, Qarabağın işğaldan azad edilməsi istiqamətində apardığı ardıcıl siyasət əksini tapıb. Eyni zamanda 30 illik işğaldan sonra torpaqlarımızın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olunması, ərazi bütövlüyümüzün bərpa edilməsi, bununla da Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinin və arzularının reallaşması da filmdə yer alıb.

1923 **Azərbaycanın özü qədər əbədi** 2026

# Şanlı Zəfərdən parlaq gələcəyə

**Mayın 3-də Laçın şəhərində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev irsi: şanlı Zəfərdən parlaq gələcəyə" mövzusunda tədbir keçirilib.**

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov qeyd edib ki, müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsi Azərbaycan dövlətçilik tarixində müstəsna yer tutur: "Ulu Öndərin uzaqgörən və qətiyyətli siyasəti nəticəsində ölkəmizdə müasir, demokratik və dünyəvi dövlətin möhkəm təməli qoyulmuşdur. Milli maraqlara əsaslanan dövlət idarəçiliyi, elmin, təhsilin və mədəniyyətin inkişafı məhz Ulu Öndərin adı ilə bağlıdır. Bu gün əldə etdiyimiz uğurlar onun müəyyən etdiyi strateji kursun məntiqi davamıdır".

M.Məmmədov bildirib ki, Azərbaycanın enerji strategiyasının uğurla reallaşdırılması, dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq təşkilatlarla əlaqələrinin genişlənməsi və ölkəmizin mühüm regional logistika mərkəzinə çevrilməsi bilavasitə Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir: "Məhz onun rəhbərliyi dövründə Azərbaycan öz geostrateji mövqeyindən, iqtisadi və mədəni potensialından səmərəli istifadə edərək qısa müddətdə beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınmış və dünyanın dinamik inkişaf edən dövlətlərindən birinə çevrilmişdir".

"Uzun illər həsrətində olduğumuz Laçın azaddır, bərpa olunur və sürətlə inkişaf edir. Bu torpaqların azad olunması Azərbaycan xalqının birliyinin, güclü dövlətin və qətiyyətli liderliyin bariz nümunəsidir. Ümummilli Lider Heydər Əliyev Laçının strateji əhəmiyyətini yüksək qiymətləndirərək bildirirdi ki, bu rayon Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü baxımından xüsusi önəm daşıyır. Bu baxış bu gün də öz təsdiqini tapır. 1992-ci ildə işğal nəticəsində dağıdılan Laçın bu gün yenidən qurulur, öz əsl sahiblərinə qovuşur. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi qələbə Ulu Öndərin siyasətinin məntiqi davamıdır. Bu gün Prezident İlham Əliyev tərəfindən bu siyasi kurs uğurla davam etdirilir və Azərbaycan daha da güclənir, beynəlxalq arenada mövqelərini möhkəmləndirir", - deyə səlahiyyətli nümayəndə vurğulayıb.

Onun sözlərinə görə, hazırda Laçında genişmiqyaslı quruculuq işləri aparılır. "Müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, yollar inşa edilir. Artıq yüzlərlə ailə doğma yurduna qayıdıb və bu proses davam edir. Laçın yalnız bərpaolunan şəhər deyil, o, gələcəyin şəhərinə çevrilir. Burada həm müasir infrastruktur, həm də milli-mədəni dəyərlər üzərində qurulan yeni həyat formalaşır" , - deyən M.Məmmədov əlavə edib ki, Heydər Əliyev ideyaları Azərbaycanın inkişafının, sabitliyinin və gələcəyinin əsasını təşkil edir.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bugünkü tədbirin qədim Azərbaycan torpağı olan, uzunmüddətli işğal və məhrumiyyətlərə baxmayaraq, həsrətimizi unudulmaz sənətkarımız Məhəbbət Kazımovun məşhur ifası ilə yaşatdığımız, ordumuzun rəşadəti sayəsində azad edilərək artıq dirçəliş və inkişaf mərhələsinə qədəm qoymuş Laçında keçirilməsi xüsusi rəmzi məna daşımaqla həm tarixə ehtiramın, həm də gələcəyə inamın ifadəsidir: "Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində ölkəmizin ərazi bütövlüyü və mütləq suverenliyinin təmin olunması xalqımızın milli qürurunun bariz təcəssümü və dövlətçilik tariximizin şanlı səhifəsi olmaqla, vaxtilə "Bütün işğal olunmuş torpaqlar Azərbaycan xalqının iradəsi, qəhrəman oğulların şücaəti ilə azad olunacaq", - deyən Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının təntənəsidir".

Tahir Budaqov vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək dövlətçiliyimizi məhv olmaq təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyini möhkəmləndirərək hüquqi, dünyəvi və demokratik dövlət kimi möhkəm təməllər üzərində gələcəyə inamla addımlamasını təmin etmişdir: "Onun xalqımız qarşısında ən böyük xidmətlərindən biri də siyasi varisliyin təmin edilməsidir. Bu gün Heydər Əliyev yolunu inamla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycana möhtəşəm uğurlar qazandırmaqla onun gücünün və nüfuzunun daha da artmasını şərtləndirir. Tarixi Zəfər qazandıqdan sonra işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri Böyük qayıdış proqramının uğurla icra olunduğunu göstərir. Laçın bu prosesin ən gözəl nümunələrindəndir. Burada innovativ yanaşmalar əsasında sosial inklüzivlik, ekoloji təhlükəsizlik, o cümlədən "yaşıl infrastruktur" quruculuğu əsas götürülməklə "ağıllı" şəhər konsepsiyası həyata keçirilir ki, bu da dayanıqlı məskunlaşmanın, o cümlədən müasir standartlara uyğun yüksəkkeyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaradır. Laçın təkcə strateji əhəmiyyətə malik ərazi deyil, həm də Azərbaycanın ən dilbər guşələrindən biridir. Böyük turizm potensialına malik olan bu rayonun zəngin təbiəti, unikal iqlimi və relyefi onu xüsusilə cazibədar edir. Qarşıdakı dövrdə böyük quruculuğa paralel olaraq turizmin müxtəlif sahələrinin, o cümlədən ekoloji, dağ, sağlamlıq turizminin inkişafı ölkə iqtisadiyyatına mühüm töhfələr verəcəkdir".










YAP Sədrinin müavini bildirib ki, Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi ölkəmizin inkişafında müstəsna rol oynayır: "Milli maraqları daim uca tutan partiyamızın əksər üzvləri Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirərək Azərbaycanın daha da güclənməsi naminə məqsədyönlü fəaliyyət göstərirlər. YAP Laçın rayon təşkilatı da yeni dövrün reallıqlarından irəli gələn çağırışları bundan sonra da diqqət mərkəzində saxlamalı və Böyük qayıdış prosesinə fəal dəstəyini davam etdirməlidir. Siz bu gün şanlı tarixin canlı şahidi və iştirakçısı olaraq doğma torpağımızda yeni həyat qurmaq kimi şərəfli bir missiyanı ləyaqətlə yerinə yetirirsiniz. Bu, böyük xoşbəxtlik olmaqla bərabər, ciddi məsuliyyətdir. Əminik ki, dövlətimizin dəstəyi, sizin zəhmətiniz və milli birliyimiz sayəsində Laçın Azərbaycanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək və ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayacaqdır. Hər birinizə möhkəm cansağlığı, uzun ömür və şərəfli fəaliyyətinizdə davamlı uğurlar arzulayıram".

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Şahbaz Muradov çıxışında bildirib ki, müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaradıb ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hər zaman böyük ehtiyac olacaq. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən Ulu Öndər nəinki xalqımızın, həm də bütünlükdə müsəlman aləminin, türk dünyasının ən böyük tarixi şəxsiyyətlərindəndir.

Onun sözlərinə görə, Ümummilli Liderimiz Heydər Əliyev hələ sovetlər dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlarda Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş ittifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin edib, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atıb: "1971-ci ildə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi də Ulu Öndərimizin xalqımız qarşısında böyük xidmətlərindəndir. Heydər Əliyev ilk azərbaycanlı idi ki, SSRİ kimi nəhəng dövlətin rəhbərliyi səviyyəsinə yüksəlib, xalqına möhtəşəm xidmətləri ilə Azərbaycanın güvənc yerinə çevrilib".

Ş.Muradov qeyd edib ki, müstəqilliyimizin ilk illərində Azərbaycan ağır vəziyyətdə olarkən - 1993-cü ilin iyun ayında xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı: "Bu tarixi hadisə Azərbaycanı və bütünlükdə xalqımızı fəlakətlərdən xilas etdi. Həmin tarixdən etibarən Azərbaycanın intibahı başlandı".

Hazırda ölkəmizdə Heydər Əliyev siyasətinin uğurla davam etdirildiyini deyən natiq diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Azərbaycanı güclü və qalib dövlətlər sırasına çıxarıb. "Cənab İlham Əliyevin dediyi kimi, Azərbaycan heç zaman indiki kimi qüdrətli olmayıb. Azərbaycan dünyada şöhrət qazanıb, dövlətimizin başçısı isə dünya liderləri arasında yüksək intellektli, praqmatik düşüncəli, uzaqgörən siyasətçi və qətiyyətli lider kimi tanınır. Prezident, Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini yerinə yetirib, şanlı ordumuz işğalçıları torpaqlarımızdan təmizləyərək Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. Cənab Prezident tarixi ədaləti bərpa edərək Azərbaycan xalqının adını qalib xalq kimi tarixə yazdırdı", - deyə Ş.Muradov vurğulayıb.

Çıxış edən AMEA-nın Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Solmaz Məhərrəmova bildirib ki, Ümummilli Lider Heydər Əliyevin ən böyük gücü xalqın ona sonsuz sevgisində idi: "O, azərbaycançılıq ideologiyasını dövlət siyasətinin mərkəzinə gətirdi, hələ 1978-ci ildə ana dilimizə dövlət dili statusu qazandırmaqla milli kimliyimizi qorudu. Heydər Əliyev həm də müasir dövlətimizin iqtisadi və siyasi-hüquqi sütunlarını quran memardır".

Onun sözlərinə görə, Ulu Öndərin fəaliyyətində Laçın rayonunun həmişə xüsusi yeri olub. "Heydər Əliyev Laçını Azərbaycanın strateji cəhətdən ən önəmli, çox gözəl guşələrindən biri adlandırırdı. 1996-cı ildə laçınlı ziyalılarla keçirdiyi görüşdə mən də iştirak edirdim. Həmin görüşdə Ümummilli Liderimiz laçınlıların mərdliyini, dövlətə sadiqliyini xüsusi qeyd etmişdi. O, həmişə inanırdı ki, biz mütləq doğma torpaqlarımıza qayıdacağıq. Bu gün biz qürurla deyirik: Ulu Öndərin ruhu şaddır! Çünki Onun başlatdığı yolu layiqincə davam etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun qüdrəti sayəsində Laçın azaddır. Bizim borcumuz Heydər Əliyevin əmanəti olan müstəqil Azərbaycanı qorumaq və daha da ucaltmaqdır", - deyə S.Məhərrəmova vurğulayıb.

Azərbaycan Milli Qəhrəmanlar Cəmiyyətinin Laçın üzrə nümayəndəsi, Milli Qəhrəman Oqtay Güləliyevin həyat yoldaşı Afət Novruzova çıxışında deyib ki, Ulu Öndər Heydər Əliyevin həyat yolu sadəcə bir liderin taleyi deyil, bütöv bir xalqın dirçəlişinin, dövlətin möhkəmlənməsinin və milli ruhun yenidən doğulmasının tarixidir: "Onun hər addımı, hər qərarı Azərbaycan xalqına olan sonsuz sevgi və bağlılıqdan qaynaqlanırdı. O, xalqına güvənirdi, xalq da ona inanırdı".

Müasir Azərbaycanın öz gücünü bütün dünyaya nümayiş etdirdiyini deyən A.Novruzova bildirib ki, Ulu Öndərin təməlini qoyduğu müstəqil dövlətimiz bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələr fəth edir. "44 günlük Vətən müharibəsində Azərbaycan xalqı bir yumruq kimi birləşdi. Analar övladlarını Vətənə əmanət etdi, atalar qürurla oğullarını döyüşə yola saldı. O günlərdə igid oğullarımız tarix yazdı. Mənim həyat yoldaşım - Milli Qəhrəman Oqtay Güləliyev də Birinci Qarabağ müharibəsində bu müqəddəs yolun şərəfli yolçularından biri olub. O, Vətən uğrunda canından keçərkən bir an belə tərəddüd etmədi. Çünki bu torpaq onun üçün sadəcə doğulduğu yer deyil, namusu, qüruru və varlığı idi".

A.Novruzovanın fikrincə, bu gün Azərbaycan bayrağı azad Qarabağda qürurla dalğalanırsa, bu, şəhidlərimizin ruhunun qələbəsi, qazilərimizin, əsgər və zabitlərimizin şücaətinin nəticəsidir: "Milli Qəhrəman Oqtayın da, mənim də doğulub boya-başa çatdığımız müqəddəs Laçın torpağı Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi, şəhidlərimizin qanı və canı bahasına və rəşadətli Azərbaycan Ordusunun şücaəti sayəsində azadlığına qovuşdu. Bu gün bütün şəhidlərimizin ruhu şaddır. Mən isə sonsuz qürur və böyük xoşbəxtlik hissi ilə deyirəm ki, doğma Laçınımıza, öz evimizə qayıtmışam".

A.Novruzova bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva şəhid ailələrinə və qazilərə yüksək diqqət və qayğı göstərirlər: "Dövlət öz qəhrəmanlarını unutmur, onların ailələrini daim diqqətdə saxlayır".

Çıxış edən Laçın rayonu, Ə.H.Məmmədov adına Zabux kənd tam orta ümumtəhsil məktəbinin hərbi rəhbəri, Vətən müharibəsi qazisi Taleh İsgəndərli "30 illik həsrətə son qoyan Vətən müharibəsində iştirak etmək, işğaldan azad olunan torpaqlarımızın, o cümlədən doğma Laçının azadlığı uğrunda döyüşlərdə yer almaq mənə də nəsib oldu. Şükürlər olsun ki, xalqımız bu mübarizədən şanlı qələbə ilə çıxdı", - deyib.

O dedi ki, Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında sıx birləşərək, "dəmir yumruq" kimi vahid gücə çevrildi və dövlətimizin ərazi bütövlüyünü bərpa etdi: "Şəhidlərimizin əziz xatirəsini daim uca tutmaq hər birimizin müqəddəs borcudur. Bu gün mən ikiqat xoşbəxtəm. Çünki artıq doğma Laçınımızda - bərpa edilən, yenidən qurulan ərazilərimizdə yaşamaq və fəaliyyət göstərmək mənə qismət olub".

T.İsgəndərli Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyduğunu söyləyib. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafında mühüm rol oynayır: "Biz hər zaman Müzəffər Ali Baş Komandanımızın ətrafında sıx birləşmişik və bundan sonra da bu birliyimizi qoruyacağıq".

Milli Məclisin deputatı Rövşən Muradov da çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, Ulu Öndərin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirin Laçın şəhərində keçirilməsinin əhəmiyyətini vurğulayıb. Milli Məclisin deputatı laçınlıların hər zaman dövlətçiliyə sadiq olduğunu deyib.

Sonra tədbirdə YAP Laçın rayon təşkilatının ictimai-siyasi həyatında uğurlu fəaliyyətinə görə bir qrup şəxsə fəxri fərmanlar, partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Eyni zamanda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə keçirilmiş inşa, bədii qiraət və mahnı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

Daha sonra tədbir iştirakçıları Laçın rayonunun Sus kəndində ağacəkmə aksiyasında iştirak ediblər.

***"Azərbaycan"***



# Avropaya ünvanlanan mesajlar

## Prezident İlham Əliyev sülh prosesi və Qərbin qərəzli davranışları ilə bağlı Azərbaycanın qətiyyətli mövqeyini Aİ rəhbərlərinin diqqətinə çatdırdı

**Mayın 4-də Ermənistanın paytaxtı İrəvan şəhərində "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə videobağlantı formatında çıxış edib.**

Dövlətimizin başçısı vurğulayıb ki, Avropa Siyasi Birliyinin sammitlərinin 2026-cı ildə Ermənistanda, 2028-ci ildə isə Azərbaycanda keçirilməsi ilə bağlı razılıq əldə olunub. Ölkə rəhbəri qeyd edib ki, Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın Azərbaycana səfəri zamanı dövlətimizin başçısının sammitdə iştirakı müzakirə edilib və videoformatda qoşulacağı razılaşdırılıb: "Prezident Koştanın Azərbaycana iki aydan az vaxt əvvəl etdiyi səfəri zamanı biz Zirvə görüşündə iştirakımı müzakirə etdik və razılaşdıq ki, mən tədbirə videobağlantı formatında qoşulacağam. Mən həmçinin auditoriyanı məlumatlandırmaq istərdim ki, bir il öncə Tiranaya səfərim zamanı prezident Koşta və prezident Ursula fon der Lyayen Zirvə görüşünün 2026-cı ilin mayında Ermənistanda təşkil olunması ideyasına rəyimi soruşdular. Mən dəstəklədim. Öz növbəmdə mən tarazlı yanaşmanın saxlanılması üçün növbəti Zirvə görüşlərindən birinin Azərbaycanda keçirilməsi təklifi ilə çıxış etdim. Təklif qəbul olundu. Beləliklə, mən "Avropa Siyasi Birliyi"nin üzvlərini 2028-ci ilin mayında Azərbaycanda keçiriləcək Zirvə görüşünə dəvət edirəm. Yeri gəlmişkən, Ermənistan həmçinin namizədliyimizi dəstəklədi. Bu, Azərbaycan ilə Ermənistan arasında sülhün real olmasının aydın göstəricisidir. Biz cəmi doqquz aydır ki, sülh şəraitindəyik və sülhdə yaşamağı öyrənirik".

Əvvəlcə qeyd edək ki, Prezident İlham Əliyevin Ermənistanda keçirilən "Avropa Siyasi Birliyi"nin 8-ci sammitinə videoformatda qoşulması həm Bakı-İrəvan arasında sülh prosesinin önəmini vurğulamaq, həm də strateji mesajlar baxımından çox əhəmiyyətlidir. Prezident İlham Əliyev videoformat vasitəsilə Ermənistanın evsahibliyi etdiyi tədbirə regionun yeni reallıqlarını diktə edən tərəf kimi qatıldı. Sammitin İrəvanda keçirilməsinə baxmayaraq, Azərbaycan Prezidentinin bu platformada iştirakı regionun gələcək taleyinin rəsmi Bakının iştirakı olmadan müəyyən edilməsinin qeyri-mümkün olduğunu göstərdi.

Prezident İlham Əliyevin Ermənistandakı tədbiri dəstəkləməsi və qarşılıqlı olaraq növbəti tədbirin Bakıda keçirilməsini təklif etməsi Azərbaycanın balanslı xarici siyasət kursuna sadiqliyini göstərir. Bu, beynəlxalq təşkilatların regiona yanaşmasında birtərəfliliyin qarşısını alan strateji gedişdir. Belə mötəbər tədbirlərin hər iki ölkədə ardıcıl keçirilməsi Cənubi Qafqazın artıq münaqişə zonası deyil, beynəlxalq müzakirələrin mərkəzi kimi qəbul edildiyini təsdiqləyir. Azərbaycanın 2026-cı il Ermənistan sammitini dəstəkləməsi qarşılığında 2028-ci il sammitini Bakıya qazandırması isə yüksəksəviyyəli diplomatik qələbədir.

Dövlətimizin başçısının İrəvandakı sammiti dəstəkləməsi Azərbaycanın sülh prosesində nə dərəcədə səmimi və konstruktiv olduğunu bütün Avropaya nümayiş etdirdi. Bu addım Ermənistan daxilindəki revanşist qüvvələrin absurd iddialarını da tamamilə alt-üst etdi. Prezident İlham Əliyev bildirdi ki, biz cəmi doqquz aydır ki, sülh şəraitindəyik və sülhdə yaşamağı öyrənirik: "Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı. Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub. Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib".

Prezident İlham Əliyevin "sülh şəraitində yaşamağı öyrənirik" deməsi onilliklər boyu davam edən münaqişədən sonra cəmiyyətlərin, dövlət institutlarının yeni reallığa adaptasiya prosesini ifadə edir. Uzunmüddətli qarşıdurmadan sonra dinc yanaşı yaşama formasına keçid sosial-psixoloji hazırlıq tələb edir. 9 aylıq qısa müddət sülhün kövrəkliyi ilə yanaşı, prosesin artıq geri dönməz xarakter aldığını göstərir. Ağ Evdə imzalanan sənədlərə istinad edilməsi də sülh prosesinin beynəlxalq legitimliyini, qlobal güclər tərəfindən dəstəkləndiyini vurğulayır.

Dövlətimizin başçısı çıxışında, sadəcə, siyasi bəyanatlarla kifayətlənmədi, eyni zamanda "Tramp marşrutu" və Ermənistana yanacaq ixracı kimi konkret faktları səsləndirdi. Azərbaycanın Ermənistana benzin və dizel tədarük etməyə başlaması onilliklər boyu davam edən iqtisadi təcridin başa çatması, rəsmi Bakının xoş məramının və sülhə olan real sadiqliyinin göstəricisidir. Bu, Zəngəzur dəhlizi və digər kommunikasiyaların tam gücü ilə işləməsi üçün bir növ pilot layihə rolunu oynayır.

Azərbaycan liderinin çıxışında prosesi ləngitməyə və ya pozmağa çalışan qüvvələrlə bağlı da açıq mesaj var. Burada söhbət Ermənistanın daxilindəki radikal revanşistlərdən və Cənubi Qafqazda gərginliyin qalmasında maraqlı olan bəzi xarici dairələrdən gedir. Azərbaycan bu manevrləri qabaqcadan görür və onları diplomatik müstəvidə zərərsizləşdirməyə hazır olduğunu nümayiş etdirir.

Dövlətimizin başçısının videoçıxışının digər əhəmiyyətli məqamı Avropa Parlamentinin və AŞPA-nın tənqidi idi. Prezident İlham Əliyev Avropa Komissiyasının sülh prosesindəki obyektiv rolunu təqdir etməklə yanaşı, heç də bütün Avropa təsisatlarının eyni yanaşmanı nümayiş etdirmədiyini deyib. Dövlətimizin başçısı vurğulayıb ki, ikili standartlar bu gün AŞPA üçün bir növ fəaliyyət üsuluna çevrilib. Ölkə rəhbəri diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından altı ay sonra Avropa Parlamenti Azərbaycanla bağlı təhqiramiz ifadələrlə dolu 14 qətnamə qəbul edib: "İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı il aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib. Cavab olaraq Azərbaycan parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib. Nəzərə alsaq ki, "Avropa Siyasi Birliyi"nin Zirvə görüşlərində biz öz fikirlərimizlə və narahatlıq doğuran məsələlərlə açıq şəkildə mübadilə edirik, mən, sadəcə, bu halda baş verənlər barədə həmkarlarımızı məlumatlandırmaq istədim ki, son qərarla bağlı səhv informasiya və manipulyasiya olmasın".

Prezident İlham Əliyev bu platformadan istifadə edərək, Avropa təsisatları arasındakı ziddiyyətləri onların üzünə söylədi. Dövlətimizin başçısı beynəlxalq hüququn tətbiqindəki ədalətsizliyi konkret rəqəmlər və faktlarla ifşa etdi. Vurğuladı ki, 5 il ərzində qəbul edilən 14 qətnamə AP-nin Azərbaycana qarşı qərəzinin obsesiya səviyyəsinə çatdığının göstəricisidir.

Dövlətimizin başçısı nitqi ilə dünyaya bəyan etdi ki, Azərbaycan Avropa ilə bərabərhüquqlu və qarşılıqlı hörmətə söykənən əməkdaşlığa hazırdır, lakin milli suverenliyin və ərazi bütövlüyünün müzakirə obyekti edilməsinə və ya təzyiq rıçağına çevrilməsinə əsla icazə verməyəcək.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

1923 *Azərbaycanın özü qədər əbədi* 2026

# Böyük Qayıdış: Heydər Əliyev ideyalarının təntənəsi

**Mayın 4-də Xankəndi şəhərində Yeni Azərbaycan Partiyası (YAP) və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Böyük Qayıdış: Heydər Əliyev ideyalarının təntənəsi" mövzusunda tədbir keçirilib.**






Əvvəlcə Qarabağ Universitetinin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Çıxış edən Qarabağ Universitetinin rektoru Şahin Bayramov vurğulayıb ki, bu gün müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü doğma Qarabağda, Xankəndi şəhərində qeyd etmək böyük rəmzi məna daşıyır və qürurverici hadisədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərin qazanılması və işğaldan azad olunmuş ərazilərimizin sürətlə dirçəldilməsi məhz Ulu Öndərin uzaqgörən siyasətinin təntənəsidir: "Doğma yurdlarımıza elm, təhsil və mədəni dəyərlərimizlə qayıdışın simvoluna çevrilən Qarabağ Universitetinin yaradılması və hazırda minlərlə gəncin burada ali təhsil alması məhz Heydər Əliyev ideyalarının uğurla reallaşdırılmasının bariz nümunəsidir".

"Qarabağ Universitetinin başlıca missiyası yalnız yüksəkixtisaslı kadrlar hazırlamaq deyil, eyni zamanda Vətəninə, xalqına və dövlətinə bağlı, Heydər Əliyev ideyalarına və milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirməkdir. Qarabağ Universitetində Ümummilli Liderimizin zəngin irsinin öyrənilməsi və təbliği daim diqqət mərkəzində saxlanılır. Əminik ki, Ulu Öndərin misilsiz ideyalarına bağlılıq gənclərimizin işıqlı gələcəyinə parlaq yol açacaq və gələcəyin peşəkar mütəxəssisləri kimi onların ölkənin və regionun inkişafına mühüm töhfələr verməsində müstəsna rol oynayacaq",- deyə rektor vurğulayıb.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bugünkü tədbirin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, uzun illər işğal altında qaldıqdan sonra dövlət başçımızın qətiyyətli siyasəti, Müzəffər Ordumuzun şücaəti nəticəsində azad edilərək öz əzəli sahibinə qovuşan Xankəndi şəhərində keçirilməsi xüsusi tarixi, mənəvi və siyasi əhəmiyyətə malikdir. Bu torpaqlarda yenidən həyatın canlanması, iqtisadiyyatın bütün sahələrinin, elm və təhsilin dirçəldilməsi dövlətimizin gücünün, xalqımızın sarsılmaz iradəsinin və milli həmrəyliyimizin parlaq təzahürüdür: "Bu gün əziz xatirəsini böyük ehtiramla yad etdiyimiz Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi müasir tariximizdə silinməz iz qoymuşdur. Ulu Öndər daim Qarabağın, o cümlədən Xankəndinin Azərbaycanın ayrılmaz hissəsi olduğunu qətiyyətlə bəyan etmiş, ölkəmizin ərazi bütövlüyünün bərpasını dövlət siyasətinin əsas prioriteti kimi müəyyənləşdirmişdir. Onun məqsədyönlü siyasəti nəticəsində Azərbaycan taleyüklü sınaqlardan uğurla çıxaraq müstəqil dövlət kimi davamlı inkişaf yoluna qədəm qoymuşdur. Azərbaycanın müstəqilliyi və dövlətçilik ənənələri möhkəmləndirilmiş, mənəvi dəyərlərimizin qorunması, azərbaycançılıq ideologiyasına əsaslanan milli həmrəyliyin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlər qazanılmış və bugünkü - müasir və qalib Azərbaycanın etibarlı bünövrəsi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən Heydər Əliyev siyasətinin müasir dövrün çağırışlarına uyğun zənginləşdirilərək uğurla davam etdirilməsi nəticəsində ölkəmiz öz qüdrətini daha da artıraraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkəmiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq Zəfərə imza ataraq ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə mütləq suverenliyini bərpa etmiş, Azərbaycan bayrağı işğaldan azad edilmiş bütün ərazilərdə, o cümlədən Xankəndi şəhərində ucaldılmışdır".

Tahir Budaqov bildirib ki, bu gün "Böyük qayıdış" proqramının tərkib hissəsi kimi Xankəndidə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, müasir infrastruktur yaradılır, sosial obyektlər, yaşayış kompleksləri, təhsil və mədəniyyət müəssisələri inşa olunur: "Müzəffər Liderimizin qeyd etdiyi kimi, Qarabağ və Şərqi Zəngəzur bölgəsi, o cümlədən Xankəndi Azərbaycanın ən gözəl guşələrindən biridir və bu ərazilər qısa müddət ərzində regionun inkişaf mərkəzinə çevriləcəkdir".

YAP Sədrinin müavini vurğulayıb ki, Xankəndidə Qarabağ Universitetinin təsis olunması dövlət başçısının gələcəyə yönəlik aydın strateji baxışının bariz ifadəsidir: "Bu ali təhsil müəssisəsi bilik məkanı olmaqla yanaşı, həm də azad olunmuş torpaqlarda tarixi ədalətin bərpasının, intellektual potensiala əsaslanan mənəvi dəyərlərin və milli ruhun yüksəlişinin simvoludur. Prezident İlham Əliyevin vurğuladığı kimi, Qarabağ Universiteti regionun elm, təhsil və innovasiya mərkəzinə çevriləcək və gələcək inkişafın əsas dayaqlarından biri olacaqdır".

"Ümummilli Liderimizin xalqımıza siyasi mirası olan Yeni Azərbaycan Partiyası dövlətimizin böyük quruculuq fəaliyyətinə yaxından dəstək verir. Partiyamız Böyük qayıdış strategiyasının həyata keçirilməsində, azad olunmuş ərazilərdə sosial-iqtisadi və humanitar layihələrin təşviqində, xüsusilə gənclərin bu proseslərə cəlb olunmasında mühüm rol oynayır. Qarabağ Universiteti ilə əməkdaşlıq çərçivəsində maarifləndirici tədbirlərin keçirilməsi, tələbələrin inkişafına yönəlmiş layihələrin dəstəklənməsi isə dövlətçilik ideallarına sadiq, yüksək intellektual və mənəvi keyfiyyətlərə malik gənc nəslin formalaşmasına xidmət edir", - deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini qeyd edib ki, Ulu Öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, təhsilin inkişafına da xüsusi önəm vermiş, istər SSRİ dövründə, istərsə də müstəqillik illərində respublikamıza rəhbərlik etdiyi zaman milli kadr potensialının formalaşdırılmasını strateji vəzifə kimi müəyyənləşdirərək bu istiqamətdə ardıcıl siyasət həyata keçirmişdir: "Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva təhsilin inkişafını xüsusi diqqət mərkəzində saxlayırlar. Yeni məktəblər, universitetlər inşa edilir, mövcud infrastruktur müasirləşdirilir, gənclərin istər ölkə daxilində, istərsə də dünyanın aparıcı universitetlərində təhsil almaq imkanları genişləndirilir. Tarixi ənənələr, milli dəyərlər və müasir çağırışlara uyğun qurulan təhsil sistemində aparılan davamlı islahatlar gələcəyə istiqamətlənmiş addımlar kimi sosial-iqtisadi və humanitar inkişafa təkan verir. Dövlət başçısının siyasi iradəsi sayəsində fəaliyyətə başlayan Qarabağ Universiteti təkcə bir ali təhsil müəssisəsi deyil, eyni zamanda Azərbaycan xalqının möhtəşəm Zəfərinin, quruculuq əzminin və intellektual inkişafının rəmzidir. Universitetdə çalışan professor-müəllim heyəti və burada təhsil alan tələbələrin əzmkar fəaliyyəti Qarabağ bölgəsinin və bütövlükdə ölkəmizin elmi və mənəvi intibahına mühüm töhfələr verəcəkdir".

Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları üzrə xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov çıxışında bildirib ki, 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xankəndi şəhəri və ətraf ərazilər tam nəzarətə götürülərək ölkənin suverenliyi tam bərpa edilib. O qeyd edib ki, bu tarixi nailiyyət Azərbaycan dövlətinin gücünü, xalqın birliyini və qətiyyətli siyasi iradəsini bir daha nümayiş etdirib.

Səbuhi Qəhrəmanov vurğulayıb ki, hazırda azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri sürətlə davam etdirilir. Onun sözlərinə görə, "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlara qayıdışı təmin olunur və bu proses mərhələli şəkildə həyata keçirilir: "Artıq Xankəndi şəhəri və ətraf yaşayış məntəqələrində məskunlaşma prosesi başlayıb, əhali üçün müasir yaşayış şəraiti yaradılır. Regionda sosial-iqtisadi inkişafın təmin olunması məqsədilə mühüm infrastruktur layihələri icra edilir. Xankəndi dəmir yolu xəttinin bərpası, Xocalı hava limanının yenidən qurulması, yol və kommunikasiya xətlərinin çəkilməsi regionun strateji əhəmiyyətini daha da artırır. Bununla yanaşı, sahibkarlığın inkişafına dəstək göstərilir, yeni iş yerləri yaradılır və investisiya mühiti yaxşılaşdırılır. Artıq bölgəyə özəl sektor tərəfindən 90 milyon manatdan çox investisiyalar cəlb olunub".

S.Qəhrəmanov çıxışında qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik kursu bu gün də uğurla davam etdirilir və Azərbaycan regionda güclü mövqeyini daha da möhkəmləndirir: "Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzur yaxın illərdə ölkənin ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək".

Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin müəllimi Şamxal Əbilov çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik kursunda Qarabağ məsələsi milli maraqların, suverenliyin və ərazi bütövlüyünün əsas istiqamətlərindən biri kimi xüsusi yer tuturdu. Onun sözlərinə görə, Ulu Öndər Qarabağ probleminə yalnız ərazi məsələsi kimi deyil, Azərbaycan dövlətçiliyinin və milli təhlükəsizliyin əsas elementi kimi yanaşırdı.

Ş.Əbilov qeyd edib ki, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkədə sabitliyin bərpası, dövlət institutlarının möhkəmləndirilməsi və nizami ordu quruculuğu baxımından həlledici dönüş nöqtəsi oldu. "Heydər Əliyevin çoxşaxəli siyasi fəaliyyəti Qarabağ məsələsində Azərbaycanın mövqeyinin beynəlxalq səviyyədə tanınmasına və gələcək qələbənin strateji əsaslarının formalaşmasına mühüm töhfə verdi", - deyə universitetin müəllimi söyləyib.

Çıxış edən Qarabağ Universitetinin Mühəndislik fakültəsinin 2-ci kurs tələbəsi, Qarabağda antiterror əməliyyatının iştirakçısı İlqar İsgəndərli bildirib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirdə çıxış etmək onun üçün böyük qürur və məsuliyyətdir. O qeyd edib ki, vaxtilə döyüş yollarının keçdiyi Xankəndi şəhərində bu gün tələbə olaraq təhsil almaq onun üçün sözlə ifadə olunmayacaq bir duyğudur. O, antiterror əməliyyatlarında iştirakını xatırladaraq Azərbaycan Ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi tarixi Zəfərin hər bir əsgər üçün iftixar olduğunu bildirib: "Qarabağ Universitetində təhsil alan gənclər Ulu Öndərin müəyyən etdiyi dövlətçilik və azərbaycançılıq ideyaları əsasında Qarabağın gələcək inkişafına mühüm töhfə verəcəklər".

Sonra Qarabağ Universitetində ümumi orta müvəffəqiyyət göstəricisi ən yüksək olan bir qrup tələbəyə təşəkkürnamələr təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Daha sonra Qarabağ Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında konsert proqramı təqdim olunub.

***"Azərbaycan"***

# Parlamentin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası Azərbaycana qarşı aparılan hibrid hücum kampaniyalarına dair açıqlama yayıb

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası Qərbdə mənzillənən ermənipərəst dairələr tərəfindən Azərbaycana qarşı aparılan hibrid hücum kampaniyalarına dair açıqlama yayıb.**

AZƏRTAC açıqlamanı təqdim edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı davamlı uğurların və Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin həyata keçirilməsi fonunda, habelə Bakı şəhərində keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ərəfəsində Azərbaycan Respublikasına qarşı Qərb ölkələrində mənzillənən ermənipərəst dairələr tərəfindən son vaxtlar hibrid təhdid elementlərindən istifadə olunduğu müşahidə edilir.

Müşahidə olunan aktivliyin Azərbaycanda keçirilmiş COP29 konfransı ərəfəsində və tədbir zamanı aparılan fəaliyyətlərlə bənzərlik təşkil etməsi Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası tərəfindən (Komissiya) öz səlahiyyətləri çərçivəsində araşdırma aparılmasını zəruri edib.

Qeyd edilməlidir ki, o vaxt ölkəmizə qarşı hibrid təhdidlərin əsasən iki növü - "Lawfare", yəni hüquqi vasitələrlə təzyiq və dezinformasiya kampaniyaları geniş vüsət almışdı.

Komissiya tərəfindən cari il mayın 2-də ermənipərəst dairələr tərəfindən əlaqələndirilmiş şəkildə aparılan dezinformasiya kampaniyası ilə bağlı açıqlama verilib. Eyni zamanda Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizə təzyiq göstərmək istəyən Avropa Parlamenti, Belçika Federal Parlamentinin Nümayəndələr Palatası və Niderland Nümayəndələr Palatasına layiq olduqları cavabları verib, lazımi addımları atıb, qəbul edilən ədalətsiz və anti-Azərbaycan qətnamələrə kəskin etirazını bildiribdir.

Komissiya tərəfindən ilk növbədə Belçika Federal Parlamentinin Nümayəndələr Palatasının qəbul etdiyi, həmçinin hüquqi qüvvəsi olmayan və öhdəlik yaratmayan qətnamənin həm layihə versiyasının (04.02.2026), həm də qəbul olunmuş variantının (16.04.2026) mətnləri müqayisəli təhlil edildikdən sonra burada hiyləyə yol verildiyi müəyyən olunub.

Belə ki, müəllif Mişel De Maeqd (Michel De Maegd) və digər dörd həmmüəllif tərəfindən layihə komitəyə təqdim olunan zaman onun dili yumşaq, adı neytral ("Belçikadan 2026-cı ilin mayında İrəvanda keçiriləcək Avropa İttifaqı-Ermənistan və Avropa Siyasi Birliyi sammitlərindən Ermənistan ilə Azərbaycan arasında sülh prosesini gücləndirmək üçün istifadə etməsinə çağıran qətnamə") və sülh prosesini dəstəkləyən olsa da, yekun versiya daha radikal olmuş, Azərbaycana qarşı sərt addımların atılması və ölkəmizin daxili işlərinə qarışmaq tələbləri ilə "zənginləşdirilmişdir".

Düşünürük ki, bu cür taktikadan istifadə olunmasında məqsəd qətnamə layihəsini Xarici əlaqələr komitəsindən keçirərək rahat formada plenar iclasa tövsiyə olunması niyyəti ilə edilib.

Bununla bağlı şübhələrimizi artıran digər fakt isə aprelin 16-da plenar iclas zamanı baş verən proseslərlə bağlıdır. İlk növbədə qeyd edilməlidir ki, Belçika parlamentindəki prosedur qaydalarına görə, plenar iclas zamanı səsverməyə çıxarılan bütün məsələlər (istər qətnamə və ya başqa bir sənəd olsun) müzakirədən dərhal sonra deyil, iclasın yekununda səsə qoyulur.

Azərbaycan əleyhinə olan bu qətnamənin müzakirəsi və səsvermə ilə bağlı videokadrlardan da göründüyü kimi, müzakirələr zamanı iclas zalı, demək olar, boş olub və orada 150 deputatdan yalnız 30-35 nəfər iştirak edib. Bu, onu deməyə əsas verir ki, belçikalı deputatların təxminən 80 faizi üçün nə qətnamə ilə bağlı edilən çıxışlar, nə də onun məzmunu əhəmiyyət kəsb etməyib. Lakin həmin gün gündəlikdə digər vacib məsələlər və səsvermədə iştirak zəruri olduğu üçün zaldakı bütün deputatlar (134 nəfər) avtomatik şəkildə Azərbaycan əleyhinə olan qətnaməyə də səs vermiş olublar.

Bu qətnamə ilə bağlı diqqətçəkən digər məqam isə orada açıq formada *"Ermənistanla əlaqələrdə Niderland və Lüksemburq nümunələrinə uyğun hərəkət etmək"* çağırışın olmasıdır. Qətnamədə bu cür ifadəyə yer verilməsi erməni lobbisinin təsiri altında fəaliyyət göstərən bir sıra Avropa İttifaqına üzv ölkələrin deputatlarının əlaqələndirilmiş formada fəaliyyət göstərən "ermənipərəst blok" formalaşdırdıqlarını deməyə əsas verir.

Bu məsələdə mənzil-qərargahı Brüsseldə yerləşən və Avropanın 13 ölkəsində fəaliyyət göstərən "Ədalət və Demokratiya naminə Avropa Erməni Federasiyası (EAFJD)" adlı lobbi təşkilatının əsas rol oynadığı, onun Belçika parlamentinin Xarici əlaqələr komitəsinin bir sıra üzvləri ilə sıx münasibətlərinin olduğu, habelə 2025-ci ilin aprelində həmin komitə üçün təqdimat keçirdiyi faktlarla müəyyən edilib.

Mişel De Maeqdin parlamentdə 2019-2026-cı illər ərzində fəaliyyətinə nəzər saldıqda, onun müəllifi və ya həmmüəllifi olduğu bütün qətnamə layihələrinin 7-si sırf Azərbaycana qarşı olub. Bu fəaliyyəti çərçivəsində o anti-Azərbaycan və ya ölkəmizin adı keçən məsələlərlə bağlı Belçika Krallığının hökumət rəsmilərinə ümumilikdə 6 yazılı sual ünvanlayıb. Onun plenar iclaslar zamanı verdiyi şifahi suallarının sayı 3, komitə iclaslarında isə bu tipli sualların sayı 19 olub.

Araşdırmalar zamanı De Maeqdin Ermənistan rəsmiləri və Belçikada fəaliyyət göstərən erməni lobbi qrupları ilə, o cümlədən "EAFJD"lə institusional işbirliyində olduğu müəyyən edilib. Onun sosial media və mediadakı fəaliyyətlərinin təhlili zamanı tez-tez erməni media orqanlarına müsahibələr verməsi, birmənalı şəkildə ermənipərəst mövqe sərgiləməsi müşahidə edilib. De Maeqdin ötən ilin martında erməni mediasına verdiyi müsahibədəki ifadələr isə parlamentarinin erməni lobbisi tərəfindən hibrid təhdid aləti kimi istifadə olunduğunu açıq şəkildə nümayiş etdirir:

"Biz səsimizi yüksəltməliyik. Biz Azərbaycana olan təzyiqi bütün mümkün vasitələrlə artırmalıyıq. Mən bu məsələni bir daha xarici işlər naziri və Baş nazirlə müzakirə etdim. Bu məsələ təcilidir. Bu qətnamə layihəsi məhz bu məqsədə xidmət edir. Bu, Belçika Hökumətini hərəkətə keçməyə və öz təsir gücündən istifadə etməyə çağırır. Qətnamə Əliyev rejiminə qarşı sanksiya tətbiq etməyi tələb edir. Mən bu məsələdə həmişəki kimi fəal iştirak edəcəyəm və bu mübarizədə heç vaxt təslim olmayacağam".

Niderland Nümayəndələr Palatasında isə təşəbbüskarı Don Seder (Don Ceder) olan və Azərbaycana qarşı qəbul olunan sənəd - "motion"la bağlı apardığımız araşdırma zamanı bu fəaliyyətlərin də arxasında erməni lobbisinin olduğu müəyyən edilib.

İlk növbədə qeyd edilməlidir ki, "motion" adlı bu tip sənədlər komitə iclaslarında hər hansı bir qanun və ya siyasət sənədi ilə bağlı, plenar iclaslarda isə müzakirə olunan istənilən bir məsələ ilə bağlı deputatlar tərəfindən yazılı şəkildə ünvanlanan və səsvermə ilə qəbul edilən təklif formasıdır.

Aprelin 16-da Don Seder tərəfindən səsləndirilən "motion"lardan biri Azərbaycan, digəri isə Azərbaycanın da adı keçməklə Türkiyə əleyhinə olub. Qondarma erməni soyqırımının Niderland Hökuməti tərəfindən tanınması ilə bağlı edilən ikinci "motion"da diqqətçəkən məqam isə orada da Belçika parlamentinin 16 aprel tarixli qətnaməsində olduğu kimi, digər dövlətlərin təcrübəsindən istifadə edilməsinə çağırışın olmasıdır. Əgər orada Niderland və Lüksemburq təcrübələrinə istinad edilirdisə, Don Sederin təklifində "ehtiyac olduğu təqdirdə Belçika və Lüksemburqa məsləhət və ekspert dəstəyi üçün müraciət edilməsi" xahiş olunur.

Onun Niderland Parlamentindəki anti-Azərbaycan və anti-Türkiyə fəaliyyətlərinin, yazılı sorğularının (Qeyd: onun deputat seçildiyi vaxtdan verdiyi ümumi sorğuların 12-si anti-Azərbaycan və anti-Türkiyə olub), sosial media və mediadakı paylaşım və yazılarının təhlili göstərir ki, "Niderland Erməni Təşkilatları Federasiyası (FAON)" lobbi təşkilatı ilə sıx əməkdaşlıq çərçivəsində o da belçikalı həmkarları kimi ölkəmizə qarşı hibrid təhdid aləti kimi istifadə olunur. Niderland Parlamentinin rəsmi veb-səhifəsində isə onun 2024-cü il yanvarın 28-də "Niderland Erməni Fondu"ndan iki ədəd konsert biletini hədiyyə olaraq qəbul etdiyi göstərilir.

**Avropa Parlamentində** (AP) aprelin 30-da qəbul edilən *"Ermənistanda demokratik dayanıqlığın dəstəklənməsi"* adlı qətnamənin təhlili də bir sıra maraqlı məqamları üzrə çıxarıb.




## Gifts

- Invited by the Municipal Executive of Rotterdam. Attended the VIP evening of North Sea Jazz with his wife. The value is unknown. 12-07-2024
- Received 2 tickets from the Armenia Fund Netherlands for a concert by the Gurdjieff Ensemble at the Concertgebouw in Amsterdam. The value of the tickets is €78.00. 28-01-2024
- Received the book 'Handboek Minister' from Elsevier Weekblad, valued at €14.95. 04-04-2023
- Received the book '21 Secrets of a Strategic Dialogue' worth €24.95. 04-04-2023
- Received a Grote Bosatlas from Noordhoff Publishers. The value is unknown. 07-04-2022

**European Parliament**

| Document type | Committee | Reference | Date | Summary |
|---|---|---|---|---|
| Motion for a resolution | | B10-0195/2026 | 24/04/2026 | |
| Motion for a resolution | | B10-0196/2026 | 24/04/2026 | |
| Motion for a resolution | | B10-0197/2026 | 24/04/2026 | |
| Motion for a resolution | | B10-0198/2026 | 24/04/2026 | |
| Motion for a resolution | | B10-0199/2026 | 24/04/2026 | |
| Motion for a resolution | | B10-0200/2026 | 24/04/2026 | |







Qeyd olunmalıdır ki, Avropa Parlamenti 8 siyasi qrupu və müstəqilləri birləşdirən 720 deputatdan (hazırda bu rəqəm 719-dur) ibarətdir.

Adıçəkilən qətnamə ilə bağlı diqqəti çəkən ilk məqam onun layihəsinə təklif edilən dəyişikliklərin tarixi olmuşdur. Belə ki, AP-də təmsil olunan 6 siyasi qrupun hər biri öz təkliflərini ayrılıqda versələr də, tarixin qondarma erməni soyqırımının ildönümü - 24 aprel gününə təsadüf etməsi və orada AP-nin 2015-ci il 15 aprel tarixli "Erməni soyqırımının 100 illiyi" adlı qətnaməyə istinad edilməsi ortada qlobal erməni şəbəkəsinin rolu olduğuna dair şübhələri daha da artırır.

Təklifləri təqdim edən ümumilikdə 36 nəfərin kimlikləri və əlaqələri araşdırıldıqda isə, demək olar ki, hamısının erməni lobbisi ilə əlaqələri və zaman-zaman ermənipərəst mövqeləri ilə çıxış etmələri müəyyən olunub.

Aprelin 28-də isə qətnamənin yekun layihəsi 5 siyasi qrupda təmsil olunan 42 nəfər tərəfindən təklif edilərək plenar iclasa təqdim olunub. Aprelin 30-da isə faktiki 719 deputatdan səsvermədə 571 nəfər iştirak edib ki, onların da 476-sı qətnamənin lehinə, 47-si əleyhinə və 48-i bitərəf qalıb. Daha sonra iki deputat da sənədin lehinə səs vermək niyyətlərini ifadə edib.

Həmin 42 nəfərin ölkə təmsilçiliyi aşağıdakı kimidir:

- Polşa - 8 nəfər;
- Belçika və Litva hər biri - 5 nəfər;
- Çexiya və Slovakiya hər biri - 3 nəfər;
- Almaniya, Niderland, Portuqaliya, İspaniya, Xorvatiya və Fransa hər biri - 2 nəfər;
- Avstriya, Bolqarıstan, Yunanıstan, İtaliya, Lüksemburq və Rumıniya hər biri - 1 nəfər.

Siyasi qruplar üzrə:

- Avropa Xalq Partiyası - 19 nəfər;
- Avropa Mühafizəkarlar və Reformistlər - 9 nəfər;
- Avropanı Yeniləyək - 8 nəfər;
- Sosialistlər və Demokratlar - 5 nəfər;
- Yaşıllar/ Avropa Azad Alyansı - 1 nəfər.

Qətnamə birbaşa Ermənistanla bağlı olsa da, layihəyə təkliflərdə ölkənin daxili siyasətini tənqid edən bütün məqamlar yekun versiyadan çıxarılmışdır.

Eyni zamanda 6 siyasi qrup tərəfindən təklif olunan layihələrin ikisində Azərbaycanla bağlı heç bir neqativ məqam olmasa da, Solçu, Sosialistlər və Demokratlar, Avropa Xalq Partiyası və Avropa Mühafizəkarlar və Reformistlər qruplarını təmsil edən 34 deputatın təkliflərinin təhlilləri göstərir ki, orada Azərbaycanla bağlı, ölkəmizin daxili işlərinə müdaxiləni nəzərdə tutan, beynəlxalq hüququn norma və prinsiplərinə ziddi olan, bir sıra ədalətsiz, qərəzli və həddindən artıq qeyri-obyektiv ifadələrə yol verilib. Ən qatı anti-Azərbaycan təşəbbüslərlə çıxış edən parlamentarilər isə Solçu qrup adından Georgos Georgeo (Giorgos Georgiou (Kipr) və Marina Mejur (Marina Mesure (Fransa) olmuşlar.

Qətnamənin özündə və ona təklif edilən əlavələrdə Azərbaycan əleyhinə istifadə edilən təşəbbüslərin təhlili nəticəsində onların qlobal erməni şəbəkəsinin və ayrı-ayrı lobbi qruplarının vaxtaşırı səsləndirdikləri tezislər ilə eynilik təşkil etdiyi müəyyən edilmişdir.

Hər üç parlamentlərdə təmsil olunan şəxslərlə bağlı faktlar bir daha onların erməni lobbi şəbəkəsinin aktiv üzvləri olduqlarını, anti-Azərbaycan və anti-Türkiyə gündəliyinə uyğun koordinasiya şəklində hərəkət etdiklərini və hibrid təhdid alətləri kimi istifadə olunduqlarını deməyə əsas verir.

Bu şəbəkələrin təhlili göstərir ki, eyni təşkilatlar və fərdlər 2024-cü ildəki anti-Azərbaycan proseslərdə də oxşar "fəallıq" nümayiş etdiriblər. Onlar barədə ətraflı məlumatla Komissiyanın 2024-cü ilin dekabrında təqdim etdiyi "COP29-a qarşı hibrid hücumlar: Cəmiyyətimiz hibrid təhdidlərin qurbanı olmamalıdır!" adlı hesabatda tanış olmaq olar.

(https://meclis.gov.az/news.php?id=-5851&lang=az)

Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin həyata keçirilməsini və prosesin məntiqi sonluqla bitməsini istəməyən qüvvələr, regionda əməkdaşlıq, inkişaf və rifah mühitinə, xalqların xoşbəxt gələcəyinə qarşı çıxan müəyyən dairələr hər vəchlə iki ölkə arasında formalaşmaqda olan münasibətlərə zərbə vurmaq istəyirlər.

Komissiyanın gəldiyi qənaətə görə, Ermənistanda keçirilən "Avropa Siyasi Birliyi"nin Sammiti və Avropa İttifaqı-Ermənistan Sammiti öncəsi bu cür fəaliyyətlər məqsədyönlü şəkildə aparılır və diqqətin cəlb edilməsi hədəfini güdür.

Ermənistanın hakimiyyət dairələrinin bu proseslərlə nə dərəcədə əlaqəli olduqları da burada ciddi bir sual və şübhə mövzusudur. Hesab edirik ki, Ermənistan rəsmiləri sülh gündəliyinə xələl gətirəcək bu kimi halların qarşısını almaq üçün ciddi addımlar atmalı və ya məsələyə aydınlıq gətirməlidirlər. Əks təqdirdə bu, sülh gündəliyinə münasibətdə qeyri-səmimi yanaşma kimi qəbul edilə bilər.

Sonda Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya xarici ölkə parlamentlərindəki deputat həmkarlarına müraciət edərək xahiş edir ki, erməni lobbisinin tezisləri və fəaliyyəti nəticəsində Ermənistan və Azərbaycan arasında mövcud olan kövrək sülh prosesinə, habelə ölkələrimiz arasında münasibətlərə xələl gətirə biləcək məsələlərlə bağlı bəzi həmkarlarının saxta və "sülhsevər" təşəbbüslərinə dəstək verməsinlər.

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı Marafonu 2026"da mükafatlandırma mərasimi olub

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı Marafonu 2026"da mükafatlandırma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, marafonun "Sea Breeze" ərazisindəki finiş zonasında qaliblərə medalları Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva təqdim edib.

Mərasimdə həmçinin Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov və "Agalarov Development" şirkətinin prezidenti Emin Ağalarov iştirak ediblər.

Ardınca xatirə şəkli çəkdirilib.

Marafonda finiş xəttinə kişilər arasında ilk çatan idmançı Türkiyədən Əhməd Alkanoğlu olub. İkinci yerdə ukraynalı yarışçı Vitaliy Şafar, üçüncü yerdə isə Qırğızıstan təmsilçisi Yrskeldi Akerov qərarlaşıb.

Qadınların mübarizəsində Rusiyadan Elena Tolstıx birinci, Azərbaycandan Anna Yusupova ikinci, Qazaxıstandan Şirin Akimbay üçüncü yerin sahibi olub.

Qeyd edək ki, bu il "Bakı Marafonu" ilk dəfə olaraq 21 kilometrlik məsafədə deyil, tam 42 kilometrlik marşrutda keçirilib. Marafona 25 min iştirakçı qatılıb.










# Leyla Əliyeva "Azərbaycan təbiətinin izi ilə" sərgisinin açılış mərasimində iştirak edib





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "Explore Azerbaijan with IDEA" layihəsi çərçivəsində Dənizkənarı Milli Parkda keçirilən "Azərbaycan təbiətinin izi ilə" adlı sərginin açılış mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, sərgidə layihənin fotoqraf və videoqrafı Saleh Baxşiyev tərəfindən Azərbaycanın müxtəlif milli parklarında lentə alınan 30 fauna növünə aid fotoşəkillər nümayiş olunur. Təqdim edilən fauna növlərinin böyük hissəsi Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilib.

Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan sərgi IDEA İctimai Birliyi, Dənizkənarı Bulvar İdarəsi və Bakı Zooloji Parkının tərəfdaşlığı ilə keçirilir. Bir ay davam edəcək sərgi çərçivəsində şəhər sakinləri və paytaxtın qonaqları Azərbaycanın zəngin biomüxtəlifliyini əks etdirən fotoşəkillərlə yaxından tanış olmaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə 2025-ci ildə fəaliyyətə başlayan "Explore Azerbaijan with IDEA" layihəsinin əsas məqsədi Azərbaycanın canlı aləminin təkrarolunmaz gözəlliklərini yerli və beynəlxalq auditoriyaya tanıtmaq, həmçinin ölkəmizin təbiətinin özünəməxsus zənginliyini əks etdirən multimedia bazası formalaşdırmaqdır. "Explore Azerbaijan with IDEA" təkcə maarifləndirici layihə deyil, həm də təbiətin qorunması və gələcək nəsillərə ötürülməsi üçün çağırışdır.





# Leyla Əliyeva və Arzu Əliyeva Beynəlxalq Xalça Festivalını ziyarət ediblər

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva İçərişəhərdəki Qoşa Qala meydanında keçirilən Beynəlxalq Xalça Festivalını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, onlar festivalda nümayiş olunan xalça nümunələri, ənənəvi sənətkarlıq məmulatları, eləcə də müxtəlif ölkələrin milli tətbiqi-dekorativ sənət nümunələrinin sərgiləndiyi pavilyonlarla tanış olublar.

Daha sonra onlar festivalda iştirak edən yerli və xarici qonaqlarla xatirə şəkilləri çəkdiriblər.









# Sülhə qarşı hibrid hücumlar da iflasa məhkumdur

**Cənubi Qafqaz regionu öz tarixinin həssas və eyni zamanda ümidverici dövrlərindən birini yaşayır. Onilliklər boyu davam edən qanlı münaqişənin sona çatması, regionun nəqliyyat və enerji qovşağına çevrilməsi artıq xəyal yox, real perspektivdir. Lakin tarixi təcrübələr göstərir ki, dayanıqlı sülh heç də maneəsiz, əngəlsiz baş tutmur. Son günlər Azərbaycana, xüsusən Bakı və İrəvan arasındakı sülh prosesinə qarşı yönələn hücumların intensivləşməsi də ondan xəbər verir ki, savaş meydanında məğlub olanlar, illər boyu münaqişədən siyasi dividend qazanan dairələr bütün qüvvələrini "hibrid müharibə"si müstəvisinə keçiriblər.**

Söhbət sosial şəbəkələrdə 4-5 təxribatçının statusundan yox, mütəşəkkil, vahid mərkəzdən idarə olunan və nəhəng maliyyə resursları ilə dəstəklənən qrupların sistemli fəaliyyətindən gedir. Erməni lobbi təşkilatları və onların beynəlxalq tərəfdaşları tərəfindən idarə olunan bu kampaniya Azərbaycanın sülh gündəliyini zəiflətmək, ölkənin beynəlxalq nüfuzuna kölgə salmaq və regionda yenidən qeyri-müəyyənlik mühiti yaratmaq məqsədi daşıyır.

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının aşkar etdiyi faktlar bu görünməz savaşın pərdəarxasını çılpaqlığı ilə ortaya qoyur. Parlamentin sözügedən komissiyası ermənipərəst dairələr tərəfindən Azərbaycana qarşı həyata keçirilən informasiya kampaniyasına dair açıqlama yayıb. Vurğulanıb ki, aparılan monitorinqlər zamanı son günlər Azərbaycanı, eləcə də sülh gündəliyini hədəfləyən dezinformasiya kampaniyasının həyata keçirildiyi müşahidə edilib. Araşdırmalar zamanı kampaniyanın vahid tezis ətrafında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni lobbi təşkilatları, müəyyən nüfuz və vəzifə sahibi olan xarici ölkə vətəndaşları, habelə media orqanları tərəfindən aparıldığı müəyyən olunub.

Lobbi təşkilatları qarayaxma kampaniyasını qondarma "soyqırımı", "hərbi əsirlər" və Xankəndi şəhərindəki tikililər ətrafında ajiotaj yaratmaqla aparıblar. Son bir həftədə dezinformasiya kampaniyasında 130 fərqli hesab vasitəsilə 220-dən çox paylaşım edilib, ümumilikdə bir milyona yaxın qarşılıqlı əlaqə (reaksiya) qeydə alınıb. Paylaşımlar daha çox erməniəsilli bloqçuların, erməni xəbər saytlarının, həmçinin ermənipərəst xarici bloqçu və fəalların hesablarından edilib.

Milli Məclisin müvafiq komissiyasının bəyanatı Azərbaycanın informasiya təhlükəsizliyi müstəvisində qarşılaşdığı mütəşəkkil hücumların miqyasını və metodologiyasını ifşa edən mühüm açıqlamadır. Hibrid savaşda qapalı kanallar və şifrəli mesajlaşma platformalarından istifadə edilməsi prosesin xüsusi xidmət orqanlarının və ya peşəkar lobbi şəbəkələrinin hazırladığı xüsusi əməliyyat olduğunu göstərir. Kampaniyanın müxtəlif ölkələrdən fərqli şəxslər tərəfindən aparılması "müstəqil rəy" illüziyası yaratmaq məqsədi daşıyır. Lakin komissiyanın "vahid tezis" vurğusu bu maskanı düşürür.

Erməni lobbisi üç istiqaməti hədəf seçib. Birincisi, qondarma "soyqırımı"dır ki, bu, onilliklərdir istifadə olunan təzyiq rıçağıdır. Mütəmadi gündəmə gətirilən "hərbi əsirlər" mövzusu da Azərbaycanın beynəlxalq nüfuzuna insan haqları müstəvisində zərbə vurmaq cəhdidir. Azərbaycanın öz suveren ərazilərində apardığı quruculuq işlərini "mədəni irsin silinməsi" kimi qələmə vermək təşəbbüsü isə Qərb auditoriyası üçün hesablanmış həssas manipulyasiyadır. Bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpasından sonra Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda apardığı sürətli bərpa-quruculuq işləri erməni diasporunu təşvişə salıb. Onlar Xankəndi və digər ərazilərdəki qanunsuz tikililərin sökülməsini və ya yenidən qurulmasını "tarixi irsin silinməsi" kimi təqdim edərək UNESCO və digər qurumları Azərbaycana qarşı qaldırmağa cəhd edirlər.

Komissiyanın təqdim etdiyi statistika təhdidin ciddiliyini rəqəmlərlə sübut edir. 130 hesab tərəfindən 220 paylaşımın edilməsi, lakin buna qarşılıq 1 milyon qarşılıqlı əlaqənin olması paylaşımların süni şəkildə trendə salındığını göstərir. Uydurma "böyük reaksiya" rəqəmsal alqoritmləri aldadaraq dezinformasiyanın neytral xarici istifadəçilərin qarşısına çıxmasına səbəb olur. Maraqlı detallardan biri odur ki, kampaniya Meksikadan Vatikana, Polşadan Hindistana qədər geniş coğrafiyanı əhatə edir. Aydın məsələdir ki, nüfuzlu media quruluşlarında saxta xəbər yerləşdirmək çətin olduğundan, lobbi daha çox kiçik saytların imkanlarından yararlanır. Daha sonra önəmsiz saytlarda gedən yalan xəbərləri "beynəlxalq mətbuat yazır" deyərək istinad mənbəyinə çevirirlər.

Bütün bu fəaliyyətlərin yekun məqsədi Ermənistan və Azərbaycan arasındakı kövrək sülh gündəliyini pozmaqdır. Komissiya haqlı olaraq qeyd edir ki, bu dairələr münaqişədən siyasi və maliyyə dividendi qazanan qüvvələrdir. Sülh onlar üçün "işsiz qalmaq" və təsir imkanlarını itirmək deməkdir. Parlamentin müvafiq komissiyasının açıqlaması Azərbaycanın aktiv monitorinq və ifşa mərhələsinə keçdiyini göstərir. Hibrid təhdidlərin rəsmi səviyyədə bu qədər detallı təhlil edilməsi dövlətimizin informasiya cəbhəsindəki ayıq-sayıqlığını nümayiş etdirir. Bu, həm daxili auditoriya üçün ehtiyatlı olun, yalanlara aldanmayın mesajıdır, həm də beynəlxalq birliyə yönəlmiş "oyunların fərqindəyik" xəbərdarlığıdır.

Erməni lobbisinin indiki dövrdə aktivləşməsinin səbəbi bir neçə mühüm geosiyasi və daxili siyasi faktorlarla izah olunur. İyunun 7-də Ermənistanda növbəti parlament seçkiləri keçiriləcək. Hazırda Ermənistan daxilindəki revanşist qüvvələr və onları dəstəkləyən diaspor təşkilatları üçün bu seçkilər son şansdır. Lobbi sülh müqaviləsinə yaxın olan mövcud hakimiyyəti "milli maraqları satmaqda" ittiham edərək devirməyə və ya zəiflətməyə çalışır. Onlar Ermənistandakı radikal müxalifətə media resursları və birbaşa maliyyə yardımı edərək, İrəvanın sülh gündəliyini "satqınlıq" kimi qələmə verir, cəmiyyətdə fəlakət qorxusu yayır. Xüsusən "azərbaycanlıların Ermənistana qayıdışı" kimi həssas mövzular seçkiqabağı erməni cəmiyyətində qorxu və ajiotaj yaratmaq üçün ən əlverişli alətlərdir. Sülh sazişinin imzalanması erməni lobbisinin onilliklərdir üzərində qurduğu "münaqişə biznesi"nin və siyasi təsir rıçaqlarının sonu deməkdir. Buna görə də yekun müqavilə reallaşmazdan əvvəl beynəlxalq rəyi Azərbaycana qarşı çevirərək prosesi pozmağa, ən azından yubatmağa çalışırlar.

Lakin dəyişməz həqiqət ondan ibarətdir ki, Azərbaycan təkcə hərb meydanında yox, diplomatik və informasiya masasında da reallıqları diktə edən tərəf olduğunu sübut edib. Erməni lobbisinin ən böyük strateji məğlubiyyəti ondadır ki, artıq "mübahisəli ərazi" anlayışı tarixin arxivinə gömülüb. Azərbaycan dövlət sərhədlərinə tam nəzarət edir. Ölkəmiz Avropanın və regionun enerji təhlükəsizliyində oynadığı vacib rolla özünü mühüm tərəfdaş statusuna qaldırıb. Azərbaycanın təşəbbüskarı olduğu nəqliyyat və logistika layihələri region ölkələrini, gələcəkdə Ermənistanın özünü belə iqtisadi zəncirlərlə Bakıya bağlayır. Sülhü istəməyən dairələr bu iqtisadi məntiqin qarşısında aciz qalırlar. Lobbi təşkilatları hansısa ölkənin parlamentində qətnamə çıxartmağa nail olsalar da, həmin dövlətlərin hökumətləri real iqtisadi və strateji maraqları siyasi oyunlara qurban vermirlər.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropanın Azərbaycana artan marağı qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır



**Son dövrlərdə bu və ya digər ölkələrin dövlət və hökumət başçılarının Azərbaycana davamlı səfərləri ölkənin geosiyasi və geoiqtisadi əhəmiyyətinin artdığını aydın şəkildə nümayiş etdirir. Latviya Prezidenti Edqars Rinkeviçsdən və Ukrayna Prezidenti Volodimir Zelenskidən sonra Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri bunun bariz nümunəsidir. Bu səfərlər yalnız ikitərəfli münasibətlərin inkişafı deyil, eyni zamanda Azərbaycanın beynəlxalq arenada mövqeyinin gücləndiyini göstərən mühüm amildir. Avropa ölkələrinin Azərbaycana artan marağı onların regionda sabitlik, enerji təhlükəsizliyi və yeni nəqliyyat dəhlizləri ilə bağlı strateji hədəflərindən irəli gəlir.**

Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, bu gün Azərbaycan dayanıqlı iqtisadi tərəqqisi, təkmil inkişaf modeli ilə dünyanın diqqətindədir. Azərbaycanın iqtisadiyyatını düzgün əsaslar üzərində qurması bugünkü uğurlarında əhəmiyyətli rol oynayır. "Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası həm neft-qaz, həm də qeyri-neft sektorunda uğurlara yol açıb. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq enerji layihələri Avropanın enerji təminatında mühüm rol oynayır. Azərbaycan təkcə enerji ixrac edən ölkə deyil, eyni zamanda enerji təhlükəsizliyinin təminatçısıdır", - deyə deputat bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə davam edən gərgin vəziyyət Avropa üçün enerji təhlükəsizliyi məsələsini prioritetə çevirib. Uzun illər ərzində Rusiya qazından asılı vəziyyətdə olan Avropa İttifaqı alternativ mənbələr axtarışını sürətləndirib. Bu kontekstdə Azərbaycan etibarlı tərəfdaş kimi ön plana çıxır. Avropa ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın genişlənməsi, xüsusilə qaz ixracının artırılması ilə bağlı əldə olunan razılaşmalar qarşılıqlı marağın əsasını təşkil edir. Enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi deyəndə, ilk növbədə, yeni mənbələr nəzərdə tutulur.

"Azərbaycan Avropanın enerji təhlükəsizliyində bundan sonra da etibarlı tərəfdaş olacaq. Ölkəmiz Avropa istehlakçılarının etibarlı xam neft təchizatçısıdır. Bundan sonra isə qaz təchizatçısı kimi də potensialımız artacaq və bu, ixracatçı olaraq bizim üçün, tranzit ölkələr və istehlakçılar üçün daha çox imkanlar yaradacaq. Bununla da ölkəmizin dünyanın, Avropanın enerji xəritəsində möhkəmlənən rolu daha da artacaq. Bu günlərdə Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə rəsmi səfəri çərçivəsində Qəbələdə keçirilən Azərbaycan-Çexiya biznes-forumu özündə bütün bu məqamları ehtiva edir. Prezident İlham Əliyev bəyanatında qeyd etdi ki, Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür", - deyə deputat bildirib.

V.Rəhimzadə vurğulayıb ki, bu fakt Azərbaycanın Avropa bazarındakı mövqeyinin gücləndiyini nümayiş etdirir: "Enerji təhlükəsizliyi beynəlxalq münasibətlər sistemində hər bir ölkənin geosiyasi mövqeyini, regional təsir imkanlarını və beynəlxalq etibarlılığını müəyyən edən əsas amillərdən biri kimi önə çəkilir. Azərbaycan bu gün etibarlı və arzuolunan tərəfdaş kimi dünyanın diqqətindədir. Azərbaycanın ikitərəfli əlaqələrinin gündəliyindən bəhs edərkən enerji amili xüsusi qeyd edilir. Hər bir ölkə Azərbaycanla iqtisadi əməkdaşlıqda maraqlı olduğunu xüsusi qeyd edir. Azərbaycan qazı artıq Mərkəzi və Şərqi Avropa ilə yanaşı, Qərbi Avropa bazarına da daxil olmaqdadır. Bu kimi faktlar Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu bir daha təsdiqləyir. Onu da qeyd edək ki, 2022-ci ilin iyul ayında Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış Strateji Tərəfdaşlıq sənədi əməkdaşlığın yeni mərhələsinin təqdimatı oldu. Razılaşmaya əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının Avropaya illik tədarük həcminin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur".

Deputat qeyd edib ki, Zəngəzur dəhlizinin perspektivdə Mərkəzi Asiya ilə Avropa arasında enerji və nəqliyyat körpüsünə çevrilməsi Azərbaycanın sülh təşəbbüslərinin strateji əhəmiyyətini bir daha nümayiş etdirir. Azərbaycanın regional sabitliyə verdiyi töhfə Avropanın enerji təhlükəsizliyinin mühüm təminatlarından biridir. Azərbaycan regionda sülh, enerji təminatçısı kimi mövqeyini möhkəmləndirir. Bu əməkdaşlığın əsas sütunlarından biri "Cənub qaz dəhlizi" layihəsidir. Xəzər dənizinin enerji resurslarını Avropa bazarına birbaşa çıxaran bu dəhliz təkcə iqtisadi deyil, həm də geosiyasi əhəmiyyətə malikdir. Layihə Avropanın enerji marşrutlarını şaxələndirməsinə imkan verir və Azərbaycanın strateji rolunu gücləndirir. Azərbaycanın coğrafi mövqeyi də Avropa üçün xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi Azərbaycanın tranzit potensialını artırır və onu qlobal ticarət sistemində vacib halqaya çevirir. Bu isə Avropa dövlətlərinin iqtisadi və logistika maraqları ilə üst-üstə düşür.

V.Rəhimzadə bildirib ki, Azərbaycan, sözün əsl mənasında, etibarlı tərəfdaşdır və dostluğa sadiqdir: "Məhz dostluq, qarşılıqlı anlaşma, strateji tərəfdaşlıq üzərində qurulmuş əlaqələr tərəfdaş ölkələrin maraqlarını təmin edir, əməkdaşlığa da güclü zəmin yaradır. Azərbaycanın xarici siyasət uğurları bu gün istər ayrı-ayrı dövlətlərlə ikitərəfli, istərsə də beynəlxalq təşkilatlarla əlaqələrinin inkişafında, evsahibliyi etdiyi qlobal forumlarda, dövlət başçısı İlham Əliyevin iştirak etdiyi tədbirlərin sayında özünün aydın ifadəsini tapır. Bu günümüzün reallıqları Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerinin və rolunun aydın mənzərəsini təqdim edir. Nəticə etibarilə, Avropa ölkələrinin Azərbaycana artan marağı çoxşaxəli və uzunmüddətli strateji hədəflərə əsaslanır. Enerji təhlükəsizliyi, geosiyasi mövqe, iqtisadi əməkdaşlıq və regional sabitlik kimi amillər bu marağı şərtləndirən əsas faktorlar kimi çıxış edir. Mövcud tendensiya göstərir ki, yaxın gələcəkdə Avropa ilə Azərbaycan arasında münasibətlərin daha da dərinləşməsi gözlənilir".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qətiyyətli cavab

### Avropa Parlamenti ilə münasibətlərin rəsmən dayandırılması göstərir ki, Azərbaycanla təzyiq və şantaj dilində danışmaq olmaz

**Milli Məclisin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlığı dayandırmaqla bağlı qərar qəbul etməsi, Azərbaycanın milli maraqlarını və suveren hüquqlarını qorumaq yolunda atdığı prinsipial və qətiyyətli addımdır.**





Bu həm də onu göstərir ki, Bakı artıq qərəzli qətnamələri sadəcə pisləməklə kifayətlənmir, antiazərbaycançı qüvvələri layiqincə yerlərinə otuzdurur. Milli Məclisin son qərarı da korrupsiya mərkəzinə çevrilmiş ermənipərəst Avropa Parlamentinə kəskin və strateji cavabdır.

### Qərəzli qətnamələr və təhrif olunmuş reallıqlar

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfər və suverenliyini tam bərpa etməsi bəzi beynəlxalq dairələrdə, xüsusilə də Avropa Parlamentində ciddi narahatlıq doğurubdur. Uzun illərdir ölkəmizə qarşı ikili standartlar və "qara piar" kampaniyası yürüdən bu qurum, son addımları ilə artıq dialoq imkanlarını tamamilə tükəndirib. Milli Məclisin Avropa Parlamenti ilə bütün əlaqələri kəsməsi də bu səbəbdəndir.

AP-nin sərgilədiyi bədnam mövqe, bu qurumun reallıqdan nə qədər uzaq düşdüyünü göstərir. 2021-ci ildən bəri Azərbaycan əleyhinə 10-dan çox qətnamə qəbul edən riyakar qurum faktiki olaraq erməni lobbisinin və islamofob dairələrin ruporuna çevrildiyini ortaya qoyur. Avropa Parlamentinin cari il aprelin 30-da sərgilədiyi bədnam mövqe, bu qurumun riyakarlığının növbəti sübutudur.

Həmin tarixdə qəbul edilmiş qətnamədə də ölkəmizə qarşı əsassız və qərəzli müddəalar, həqiqətdən uzaq iddialar yer alıb. Qarabağda həyata keçirilən antiterror tədbirlərindən sonra burada yaşayan ermənəsilli əhaliyə Azərbaycan bayrağı altında yaşamaq təklif olundu, onlara hər cür şərait və təhlükəsizlik zəmanəti verildi. Onu da qeyd etməliyik ki, antiterror tədbirləri aparılanda da mülki əhaliyə zərər verilməməsi üçün lazım olan bütün tədbirlər görüldü və bir ermənənin belə burnu qanamadı. Lakin ermənəsilli əhali könüllü şəkildə ölkəmizi tərk etməyi seçdi və gedərkən də onlara hər cür şərait yaradıldı, hətta qida ilə də təmin edildilər. O da gün kimi aydın idi ki, qərəzli dairələr Qarabağdan gedən ermənəsilli şəxslərdən öz çirkin məqsədləri üçün istifadə edəcəklər. Həqiqətən də vaxtaşırı bu məsələdən ölkəmizə qarşı çirkin məqsədlərlə istifadə edildiyinin şahidi oluruq.

AP-nin sözügedən qərəzli qətnaməsində insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər törətmiş ermənəsilli şəxslərin "müharibə əsiri" statusunda qeyd edilməsi də anti-Azərbaycan ritorikasından xəbər verir.

Avropa Parlamenti 30 il boyunca bir milyon azərbaycanlının hüquqlarının tapdalanmasına, ərazilərimizin minalanmasına və mədəni irsimizin məhv edilməsinə susduğu halda, bu gün "insan haqları" pərdəsi altında daxili işlərimizə müdaxilə etməyə çalışır. Ötən ilin avqustunda Vaşinqtonda əldə olunmuş sülh irəliləyişlərini və regionda formalaşan yeni reallıqları həzm edə bilməyən AP, sülh prosesini dolayı yolla əngəlləmək missiyasını öz üzərinə götürüb.

Avropa Parlamentinin bu "fəallığının" arxasında dayanan səbəblər heç də demokratik dəyərlər deyil. Korrupsiya şəbəkələri və müxtəlif maraq qruplarının təsiri göstərir ki, bu təsisat artıq qanunverici orqan deyil, siyasi sifarişlərin icraçısıdır. Avropada tüğyan edən islamofobiya, antisemitizm və miqrant problemlərini həll etmək əvəzinə, Azərbaycanı hədəf seçmək riyakarlığın zirvəsidir.

Prezident İlham Əliyevin 2026-cı ilin yanvarında vurğuladığı kimi: "Avropa Parlamentinin Azərbaycana qarşı olan bu qərəzli vəziyyəti Azərbaycanın müstəqil siyasətini həzm edə bilməyən xüsusi lobbiçilik qruplarının fəaliyyətinin nəticəsidir".

### AP Azərbaycan üçün heç bir siyasi çəkiyə malik deyil

Avropa Parlamentinin növbəti qərəzli qətnaməsi bir daha sübut etdi ki, bir çox avroparlamentari səs verdiyi mətnin mahiyyətindən belə xəbərsizdir. Bu, Avropa parlamentarizminin düşdüyü acınacaqlı vəziyyətin aydın təzahürüdür. Buna görə də artıq Azərbaycan üçün AP ilə hansısa ortaq platformada təmsil olunmaq əhəmiyyətini itirib. Milli Məclisin adıçəkilən qurumun Azərbaycan əleyhinə fəaliyyəti ilə əlaqədar qəbul etdiyi qərarda da deyilir ki, bu gün demokratik dəyərlərin iflasa uğradığı, korrupsiya və rüşvətxorluğun dərin kök saldığı, lobbi qruplarına və müxtəlif maraq dairələrinə xidmət edən Avropa Parlamenti Azərbaycanofob və islamofob düşüncənin ardıcıl surətdə ifadə olunduğu struktura çevrilmişdir: "Əsas narahatlıq doğuran məqamlardan biri də budur ki, bu qurum yalnız Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına maneə törətmir. Bu həm də regionumuzda uzunmüddətli sülh və sabitliyin bərqərar edilməsi istiqamətində atılan addımlara qarşı çıxır, revanşist qüvvələri təhrik etməklə regionumuzu yenidən münaqişə ocağına çevirməyə cəhd göstərir. Bütün bunlar isə Avropa Parlamenti ilə əməkdaşlığın mahiyyətini heçə endirir".

Milli Məclis qərara alıb: Azərbaycan Milli Məclisinin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılsın; Azərbaycan Milli Məclisinin Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin fəaliyyətində iştirakına son qoyulsun; Avronest Parlament Assambleyasının Nizamnaməsinə uyğun olaraq, Azərbaycan Milli Məclisinin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılsın və prosedur dövründə Milli Məclisin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmasın.

Mayın 1-də Avropa İttifaqının Azərbaycan Respublikasındakı səfiri Mariyana Kuyunciç Xarici İşlər Nazirliyinə çağırılıb. Görüşdə, Avropa Parlamenti tərəfindən 30 aprel tarixində qəbul edilmiş qətnamədə ölkəmizə qarşı yer almış əsassız və qərəzli müddəalar qəti şəkildə pislənib və bununla bağlı qarşı tərəfə etiraz notası təqdim edilib.

Sözügedən qətnamədəki müddəaların reallıqları təhrif etdiyi, obyektivlik prinsiplərinə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət öhdəliklərinə zidd olduğu vurğulanıb. Avropa Parlamentinin bu cür yanaşma sərgiləməsinin regionda normallaşma prosesinə, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin perspektivlərinə mənfi təsir etdiyi vurğulanıb.

Görüşdə, Avropa İttifaqı tərəfi Azərbaycan-Avropa İttifaqı münasibətlərinə, eləcə də regionda sülh və normallaşma prosesinə zərər vuran bu kimi addımların qarşısını almağa çağırılıb.

Bütün bunlar sadəcə etiraz deyil, həm də xəbərdarlıqdır. Azərbaycan öz suverenliyini heç bir kənar təzyiqə və şantaja qurban verməyəcək. Ermənistana neft məhsulları ixrac edən, regionda humanizm və sülh prinsipləri ilə çıxış edən rəsmi Bakı, buna qarşılıq olaraq əleyhinə aparılan qarayaxma kampaniyalarını qəbul etməyəcək.

Avropa Parlamenti özünün qərəzli və islamofob siyasəti ilə Azərbaycan kimi mühüm tərəfdaşı itirmək yolunu seçdi. Azərbaycan isə beynəlxalq hüquqa və öz gücünə dayanaraq, diktə ilə deyil, bərabərhüquqlu tərəfdaşlıqla yoluna davam edir.

Bir sözlə, Avropanın korrupsiya və riyakarlıq simvoluna çevrilmiş bu qurum artıq Azərbaycan üçün heç bir siyasi və mənəvi çəkiyə malik deyil.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Qərəzin və korrupsiyanın ünvanı olan Avropa strukturu



**Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən qeyri-qanuni işğalına son qoyulması istiqamətində heç bir konstruktiv addım atmayan Avropa Parlamenti (AP) uzun illər ərzində işğalın legitimləşdirilməsinə çalışıb, həmin ərazilərə Azərbaycan tərəfinin icazəsi olmadan parlament üzvləri səfərlər ediblər. Ümumiyyətlə, AP son illərdə mandatından kənar, dövlətlərin daxili işlərinə qarışmaqla məşğuldur.**

Avropa Parlamenti Azərbaycana qarşı davamlı şəkildə, əsassız iddialar irəli sürür, həqiqəti əks etdirməyən narrativlər yayır və hətta təzyiq xarakterli mövqe nümayiş etdirir. Bu hallar xüsusilə İkinci Qarabağ müharibəsi dövründə daha qabarıq müşahidə olunub.

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Aİ ölkəmizin məhkəmə sistemini sual altına almaqla daxili işlərimizə müdaxilə edir. Onun sözlərinə görə, Avropa Parlamentinin bu qeyri-sabit davranışlarını izah edən bir sıra məqamlar mövcuddur: "Avropa İttifaqı daxilində, xüsusilə xarici siyasət məsələlərində, üç əsas institut arasında vahid və ardıcıl mövqe yoxdur. Avropa parlamenti daxilində üçüncü tərəflərin mövqelərini səsləndirən maraq qrupları və lobbiçilər fəaliyyət göstərir. Son illərdə baş vermiş müxtəlif korrupsiya qalmaqalları bu qurumda şəffaflıqla bağlı ciddi suallar doğurur. Bu qalmaqallar fonunda diqqətçəkən məqam ondan ibarətdir ki, vaxtilə Azərbaycanı müəyyən məsələlər üzrə ittiham edən bəzi deputatlar sonradan özləri istintaqa cəlb olunublar. Bu faktlar institutun özünün etibarlılığını itirdiyini və daxildə müəyyən problemlərlə üzləşdiyini göstərir".

Deputat qeyd edib ki, zaman-zaman Rusiya ilə şübhəli əlaqələr də bu qurumun nüfuzuna xələl gətirib. Digər tərəfdən, AP-də təmsil olunan qruplar seçici qarşısında məsuliyyət daşımırlar, çünki onlar əsasən öz ölkələrində seçkilərdə uğursuz olmuş siyasətçilərdir.

Azərbaycanın Avropa Parlamentinin ikili standartları ilə üzləşən yeganə ölkə olmadığını qeyd edən P.Vəliyeva əlavə edib ki, bu qurum ölkəmizə qarşı bir daha əsassız, birtərəfli və həqiqəti əks etdirməyən iddialar irəli sürməyə çalışıb. Bu cür yanaşmalar regionda sabitlik və əməkdaşlığa xidmət etmir. "Avropada islamofobiya, irqçilik, ksenofobiya və digər diskriminasiya növləri geniş yayılsa da, Avropa Parlamentinin üzvlərinin bir çoxu nəinki bu meyillərlə mübarizə haqda düşünür, əksinə, bunu təsdiqləyir, təbliğ edirlər. Müstəmləkəçiliyi XXI əsrdə də davam etdirən Avropanın kolonial gücləri bir dəfə də olsun koloniyalarda baş verən insan hüquq və azadlıqlarının pozuntusu barədə məsələ qaldırmır. Məqsədli assimilyasiyaya məruz qalan ərazilərdə insanların suverenlik, öz müqəddəratını həll etmək kimi çağırışlarına məhəl qoyulmur, dinc aksiyaların vəhşiliklə qarşısı alınır, yüzlərlə hüquq müdafiəçiləri və aktivistlər həbs edilirlər. AP bu barədə hesabatları görməzdən gəlir".

Pərvanə Vəliyeva Marina Kaljurandın Avropa Parlamentinin üzvü kimi fəaliyyəti dövründə Azərbaycanla bağlı müzakirələrdə obyektivlikdən uzaq, açıq şəkildə qərəzli mövqe sərgiləmiş siyasətçilərdən biri kimi tanındığını diqqətə çatdıraraq xatırladıb ki, o, Azərbaycana qarşı mütəmadi olaraq yönəlmiş qətnamə layihələrini dəstəkləmiş, insan hüquqları və siyasi azadlıqlar mövzularında selektiv yanaşma nümayiş etdirərək birtərəfli və siyasi sifarişli ritorika ilə çıxış etmişdir. Xüsusilə Qarabağ məsələsində Kaljurandın yanaşması beynəlxalq hüququn əsas prinsiplərinə - dövlətlərin ərazi bütövlüyü və suverenliyinə açıq ziddiyyət təşkil edib. Bu selektiv susqunluq Kaljurandın insan hüquqları diskursundan siyasi alət kimi istifadə etdiyini açıq şəkildə ortaya qoyur. Eyni zamanda Kaljurandın regional proseslərə dair mövqelərinin müəyyən hallarda Rusiyanın Cənubi Qafqazdakı maraqları ilə üst-üstə düşməsi, onun "dəyərlər siyasəti" adı altında geosiyasi məqsədlərə xidmət edən xətti təbliğ etdiyini göstərən ciddi suallar doğurur.

P.Vəliyeva Avropa Parlamentində Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən digər simalardan birinin isə Avstriyadan olan keçmiş deputat Ulrike Lunacek olduğunu vurğulayıb. Yaşıllar/Avropa Azad Alyansı fraksiyasının aparıcı üzvlərindən biri kimi Lunacek uzun illər Azərbaycan əleyhinə kampaniyaların fəal iştirakçısı kimi çıxış edib. Lunacek, həmçinin Azərbaycan ərazilərinin işğalı faktını, dağıdılmış şəhər və kəndləri, məcburi köçkünlərin hüquqlarını gündəmdən kənarda saxlayaraq, manipulyativ şəkildə söz və mətbuat azadlığı arqumentlərindən istifadə edib, bu əsasla Avstriya rəsmilərini Azərbaycana səfərdən çəkindirməyə çağırıb. "Avropa İttifaqının keçmiş rəsmisi Cozef Borelin Okampo kimi erməni diasporunun siyasi aləti olan şəxsin komandasında yer alması da yüksəksəviyyəli məmurların korrupsiya əməllərinin hansı həddə çatdığını ifşa etdi. İnsan hüquqları anlayışının siyasi silaha çevrilməsi erməni lobbisinin və onların maraqlarına xidmət edən informasiya mühitinin formalaşmasına şərait yaradır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan bu günədək öz milli maraqlarını qətiyyətlə müdafiə edib, heç bir beynəlxalq təzyiq qarşısında öz məqsədlərindən geri çəkilməyib. Daxili işlərimizə qarışanlara hər zaman layiqli cavablar verilib. Bu baxımdan, Avropa Parlamentinin qərar və qətnamələrinin ölkəmiz üçün heç bir əhəmiyyəti yoxdur. Ona görə də Milli Məclis tərəfindən ölkəmiz əleyhinə qərəzli və əsassız kampaniyaların məkanına çevrilmiş AP və onun aidiyyəti strukturları ilə münasibətlərin dayandırılması doğru qərardır.

Azərbaycanın regionda sabitlik və sülhün təmin olunmasına sadiq qaldığını vurğulayan P.Vəliyeva bildirib ki, Prezident İlham Əliyev əsas məqsədin Cənubi Qafqazda uzunmüddətli sülhün təmin edilməsi olduğunu dəfələrlə vurğulayıb. Mövqeyimiz aydındır: Cənubi Qafqazda sülh, sabitlik və əməkdaşlıq - hər kəs üçün əsas prioritet məhz bu olmalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Avropa Parlamentində korrupsiyaya bulaşmış deputat çoxdur

**Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Okamponun və onun oğlu Tomas Okampo ilə birgə videosu, həmçinin digər görüntülər bir daha göstərdi ki, Azərbaycana qarşı qərəzli iddialar irəli sürən, ölkəmizi heç bir hüquqi əsaslar olmadan günahlandıran, bu və ya digər qruplar tərəfindən maliyyələşən şəxslər onların iradəsinə uyğun mövqe sərgiləyirlər.**

Burada mürəkkəb mexanizmdən söhbət gedir. Okampo timsalında bu şəxslər erməni diasporunun nümayəndələrindən maliyyə dəstəyi alır və həmin vəsait fonunda süni şəkildə yaradılmış ittihamnamələr irəli sürərək, Azərbaycanı ləkələməyə çalışırlar. Burada Avropa institutları da müəyyən formada rol oynayırlar.

Avropa Parlamentinin korrupsiyalaşmış deputatların çox olduğunu vurğulayan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı mütəxəssisi Sultan Zahidov qəzetimizə açıqlamasında deyib ki, onlar Avropa İttifaqının dəyərlərinə, hüquqi əsaslarına uyğun fəaliyyət göstərmirlər. Bunun da bariz nümunəsi Avropa Parlamentinin aprelin 30-da qəbul etdiyi qərəzli qətnamədir. Bu sənədin məcburetmə effekti yoxdur, amma bununla belə Avropa daxilində bir gündəlik formalaşdırır. "Bu qətnamə onu göstərir ki, Avropa Parlamentində hələ də erməni diasporundan və ermənəsilli oliqarxlardan dəstək alan deputatlar mövcuddur. Okampo videoda Avropa Parlamentində müəyyən əlaqələrə sahib olduğunu açıq-aşkar qeyd edir. Hətta Cozef Borelin müşavirinin onun əlində olduğunu bildirir və onun əli ilə komissiyaya təzyiqlər göstərəcəyini deyir. Bu, Azərbaycana qarşı yönəlmiş çirkin korrupsiyalaşmış bir şəbəkəni ifşa edir. Bu şəbəkədə həm ABŞ-dəki erməni diapsor nümayəndələri, həm Rusiyadakı erməni oliqarxlar, həm də Karapetyan, Vardanyan kimi şəxslər yer alır. Eyni zamanda Avropa İttifaqının daxilindəki məmurlar da bu şəbəkənin üzvləridirlər", - deyə o bildirib.



Ekspert Okamponun hələ Beynəlxalq Cinayət Məhkəməsinin hakimi işləyərkən böyük qalmaqalları olduğunu xatırladaraq deyib ki, "Şpigel" və Avropa Araşdırmaçı Jurnalistlər Əməkdaşlığı şəbəkəsi onun əməllərini ifşa etmişdi. Məlum olmuşdu ki, o, liviyalı bir milyarderdən pul alıb, eyni zamanda vəzifə səlahiyyətlərindən sui-istifadə edib. Ofşor banklarda qeyri-qanuni hesablara malik olub ki, bu da onun vergidən yayınmaq məqsədlərinin təzahürüdür. Bu cür kirlənmiş bir şəxsin növbəti dəfə kirlənməsi təəccüblü deyil. Yəni Okampo öz mənəviyyatını, dəyərləri pula satmış şəxsdir. Ondan fərqli mövqe gözləməməliyik.

S.Zahidov qeyd edib ki, Azərbaycan və Ermənistanın dayanıqlı sülh üçün çalışdığı, münasibətlərin normallaşmağa doğru getdiyi bir vaxtda Avropa Parlamentinin qərəzli qətnamə qəbul etməsi sülh prosesinə təhlükə törətmək məqsədi daşıyır: "Bu, təəssüfedici haldır. Sülhü, sabitliyi, inkişafı, əməkdaşlığı daim təbliğ edən qurum kimi Azərbaycanın regionda sülh, əməkdaşlıq yolunda atdığı addımları təqdir etmək əvəzinə əksini görürük. Bu, Avropa Parlamentinin və Avropadakı bəzi institutların pul müqabilində müəyyən qruplara xidmət etdiyinə işarədir. Bütün bunlar göstərir ki, Avropa İttifaqı öz siyasətinə ciddi şəkildə yenidən baxmalıdır. Okamponun Aİ-dəki fəaliyyəti və parlamentdəki yardımçıları ilə bağlı Brüsseldə ciddi araşdırma aparılmalıdır, əks təqdirdə bu kimi hallar Aİ-nin nüfuzuna ciddi xələl gətirəcək".

Okamponun çıxışında Paşinyanın devrilməsi ilə bağlı məsələnin yer aldığına toxunan mütəxəssis bildirib ki, bu, Ermənistanın daxili işlərinə müdaxilədir. Əgər Avropa İttifaqı Paşinyanı dəstəkləyirsə, deməli, Okampo kimilərin İrəvanın daxili işlərinə müdaxiləsinin qarşısını almaq üçün də addımlar atmalıdır.

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*

# Milli Məclisin komitə iclaslarında

**Mayın 4-də Milli Məclisin Aqrar siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Rzayev bildirib ki, gündəliyə iki məsələ daxil edilib.**



Komitə sədri əvvəlcə "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda müzakirəyə təqdim edib. Qeyd edilib ki, qanun layihəsinə edilən dəyişikliklərin əsas məqsədi əkin və çoxillik əkmələr üçün nəzərdə tutulmuş kənd təsərrüfatı torpaqlarında istehsala mane olan yaşıllıqların (ağac, kol və digər bitkilərin kökündən çıxarılması və ya kəsilməsi) götürülməsinin hüquqi əsaslarını və mexanizmini formalaşdırmaqdır. Layihə bu cür maneələrin aradan qaldırılmasını qanunla icazə verilən hallar sırasına daxil edir və xüsusilə kolların kəsilməsi üçün sadələşdirilmiş prosedur tətbiqini nəzərdə tutur. Diqqətə çatdırılıb ki, sənəd əkin təyinatlı torpaqlarda müasir texnologiyaların daha effektiv tətbiqinə, məhsuldarlığın yüksəlməsinə, fitosanitar mühitin yaxşılaşdırılmasına, su resurslarından istifadənin səmərəliliyinin artırılmasına və istehsal prosesində texniki maneələrin aradan qaldırılmasına xidmət edəcək.

Daha sonra Mülki Məcəllədə, Vergi Məcəlləsində, Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında" , "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi ilə əlaqədar qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verən komitə sədri bildirib ki, sənəddə komitənin profilinə uyğun qanunlara edilən dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihələri ilə bağlı müzakirələrdə komitənin sədr müavini Razi Nurullayev, komitənin üzvləri Cavanşir Paşazadə, Azər Badamov, Aydın Hüseynov, Parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov çıxış ediblər, məsələlərlə bağlı qeydlərini, təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra onlayn iclasın gündəliyində olan qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Onlayn iclasda komitənin üzvləri Novruzəli Aslanov, Xanlar Fətiyev, Malik Həsənov, Vüqar İskəndərov və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

Mayın 4-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin növbəti iclası keçirilib. Komitənin sədri Sadiq Qurbanov iclası açaraq, bir neçə gündən sonra müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin doğum gününün qeyd olunacağını bildirib. Azərbaycanın inkişafının Ulu Öndərin adı ilə bağlı olduğunu və bu gün onun yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Sonra Sadiq Qurbanov iclasda "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirə olunacağını bildirib. Qeyd edilib ki, layihədə məqsədli təyinatı əkin, çoxillik əkmələr olan kənd təsərrüfatı təyinatlı torpaqlardakı fəaliyyətə mane olan yaşıllıqların götürülməsinin hüquqi əsasının və bundan irəli gələrək götürmənin mexanizminin yaradılması nəzərdə tutulur.

Sonra iclasda iştirak edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hüquq şöbəsinin müdiri Aynurə Kərimova qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, sənəddə bir neçə istiqamətdə dəyişikliklər təklif olunur. Belə ki, layihədə "yaşıllıqların götürülməsi" anlayışına "bərpa edilmədən kəsilməsi" sözlərinin əlavə edilməsi təsbit olunur. Bununla yanaşı qeyd edilib ki, qanunun 13.1-ci maddəsində yaşıllıqların götürülməsinə əsas verən altı hal müəyyən edilib. Bura məqsədli təyinatı əkin, çoxillik əkmələr olan kənd təsərrüfatı təyinatlı torpaqlardakı yaşıllıqların kənd təsərrüfatı fəaliyyətinə mane olması halının əlavə edilməsi nəzərdə tutulur. Layihədə həmçinin həmin torpaqlarda olan kolların kəsilməsi üçün ümumi icraatdan fərqli olan daha sadələşdirilmiş icraatın (məlumatlandırma icraatının) tətbiq olunması təklif edilir. Bu məqsədlə kolların kəsilməsi qanunla müəyyən edilən məlumatların aidiyyəti informasiya sistemi vasitəsilə müvafiq dövlət orqanına verilməsi yolu ilə tənzimlənəcək. Digər dəyişikliklərdə əkin təyinatlı torpaqlardakı ağaclara münasibətdə yaşıllıqların götürülməsinin ümumi qaydalarının tətbiq edilməsi, kol, gül-çiçək və ot bitkilərinin kəsilməsi üçün bərpa dəyərinin ödənilməməsi ilə bağlı məsələlər tənzimlənir.

Daha sonra müvafiq nazirliklərin nümayəndələri qanun layihəsi barədə fikirlərini səsləndiriblər. Çıxışlarda ərzaq təhlükəsizliyinin, aqrar sahədə rəqabətliliyin təmin edilməsi, ixrac potensialının artırılması üçün torpaq və su resurslarından effektiv istifadə edilməsinin vacibliyindən danışılıb. Bildirilib ki, qanun layihəsi aqrar sektorun dayanıqlı inkişafına, əkin yerlərindən daha səmərəli istifadə edilməsinə, məhsuldarlığın yüksəlməsinə, istehsal prosesində texniki maneələrin aradan qaldırılmasına xidmət edəcək.

Məsələ ətrafında müzakirələrdə komitə sədri Sadiq Qurbanov, komitənin sədr müavini Fatma Yıldırım, üzvləri Asif Əsgərov, Vüqar Rəhimzadə, Eyvaz Qurbanov, Afət Həsənova çıxış edərək qeyd və təkliflərini söyləyiblər.

Parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hüquq şöbəsinin müdiri Aynurə Kərimova, nazirliyin Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə, Kənd Təsərrüfatı Nazirliyinin Hüquq və icra intizamı şöbəsinin müdiri Yasər Abdullayev qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Bakı Şəhər İcra Hakimiyyətində ənənəvi elmi-praktik konfrans keçirilib

**Bakı Şəhər İcra Hakimiyyətində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 103-cü doğum gününə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda elmi-praktik konfrans keçirilib.**



Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, paytaxt məktəbliləri arasında keçirilən və artıq ənənəvi hal almış bu konfransda Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi və aparatın əməkdaşları, paytaxt rayonlarında keçirilən konfranslarda qalib seçilmiş məktəblilər və KİV nümayəndələri iştirak ediblər.

Tədbirin əvvəlində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov konfrans iştirakçılarını salamlayaraq bildirib ki, bu gün ölkə rəhbəri cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan dinamik inkişaf edir. Görülən işlərin nəticəsidir ki, əhalinin sosial rifahı daha da yüksəlir. Bu hər yerdə, küçədə, cəmiyyətdə hiss edilir. Bu fakt ölkə şəhərlərinin təmizliyi və baxımlılığında da özünü büruzə verir. Əhali öz növbəsində kommunal xidmətlərlə birlikdə şəhərlərin təmizliyi və gözəlləşməsinə öz töhfəsini verir. Bu da onu deməyə əsas verir ki, ölkəmizin bugünkü inkişafının təməlində əvvəllər Heydər Əliyevin, indi isə İlham Əliyevin siyasəti durur.

Qeyd edilib ki, paytaxt rayonlarında keçirilən konfranslarda şagirdlər Azərbaycan tarixinin ən qədim zamanlarından günümüzə qədər olan dövrləri, o cümlədən Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycan tarixindəki rolu barədə öz elmi məqalələri ilə çıxışlar ediblər. Müsabiqədə həm də 44 günlük Vətən müharibəsində qazanılan şanlı zəfərə, antirerror tədbirlərinə, Xankəndi, Xocalı, Ağdərə, Xocavənddə Azərbaycanın Dövlət bayrağının ucaldılması və digər mövzulara xüsusi yer verilib.

Şagirdlərin özlərinin aparıcılığı ilə keçirilən konfransda gənc tədqiqatçıların məruzələri dinlənilib. Konfransda qeyd olunub ki, məktəblilərin Azərbaycan tarixinin daha dərindən öyrənilməsinə marağını artıran bu müsabiqə ənənəvi xarakter daşıyır və hər il minlərlə məktəbli bu müsabiqədə iştirak edir. Builki müsabiqədə Bakı şəhərinin 315 məktəbi və 3750-dən artıq şagirdi öz referatları ilə iştirak ediblər. Qalib şagirdlərin referatları komissiya tərəfindən seçilərək Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə çap olunacaq yeni kitaba daxil ediləcəkdir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Gənclər siyasəti dövlətin inkişaf strategiyasının əsas istiqamətlərindən biridir

**Hər bir cəmiyyətin inkişafının əsas elementlərindən biri olan təhsil ölkənin, millətin gələcəyini, onun sosial-iqtisadi rifahını, mədəni səviyyəsini müəyyənləşdirən əsas faktorlar sırasında yer alır. Təhsil vasitəsilə formalaşan bilik və bacarıqlar bütün mühüm parametrlər üzrə inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilir. Tərəqqisi ilə dünyanın cazibə mərkəzinə çevrilən ölkələrin timsalında bunun əyani nümunələrini görmək mümkündür. Tarix boyu görkəmli dövlət xadimləri, o cümlədən Ümummilli Lider Heydər Əliyev təhsili millətin gələcəyi kimi dəyərləndirmiş və bu sahənin inkişafını prioritet istiqamət kimi müəyyənləşdirmişlər. Onların yanaşmasında xüsusən də cəmiyyətin gələcəyi kimi savadlı, zamanın tələbləri ilə ayaqlaşan gənc nəslin formalaşması, qabaqcıl təhsilə yiyələnməsi strateji prioritetlər sırasında olmuşdur.**



Tarixi proseslərin inkişaf axarına yön verən böyük şəxsiyyətlərdən biri kimi Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri gənc nəslə diqqət və qayğı göstərilməsi, ölkənin ictimai-siyasi həyatında onların fəal iştirakının təmin edilməsi ilə bağlı olmuşdur. Bunun üçün hər zaman münbit şərait yaradılmışdır. Bu müstəvidə onun gənclər və təhsil siyasəti sahəsində həyata keçirdiyi islahatlar ölkəmizin uzunmüddətli inkişaf strategiyasının əsas sütunlarından birinə çevrilmişdir. Məhz Ulu Öndərin Azərbaycana istər birinci, istərsə də ikinci rəhbərliyi dövründə formalaşdırılan bu siyasət yalnız dövrün sosial-iqtisadi problemlərinə cavab verməklə kifayətlənməmiş, eyni zamanda müstəqil Azərbaycanın gələcək inkişaf perspektivlərini müəyyən edən fundamental istiqamətlər formalaşdırmışdır.

Hələ ötən əsrin ikinci yarısında Azərbaycanın indikindən tamam fərqli siyasi-iqtisadi formasiyasında təhsil sisteminin modernləşdirilməsi və gənclərin ideoloji, intellektual və peşəkar hazırlığının gücləndirilməsi mühüm vəzifə kimi qarşıya çıxırdı. Lakin bu vəzifənin layiqincə yerinə yetirilməsi ilə bağlı çoxsaylı problemlərdə özünü qabarıq şəkildə büruzə verirdi. Yalnız 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi ilə bu sahədə yeni mərhələ başlanmışdır. Onun strateji yanaşması nəticəsində təhsil yalnız bilik ötürmə vasitəsi kimi deyil, həm də milli kadr potensialının formalaşdırılması və dövlətçilik ideyalarının möhkəmləndirilməsi vasitəsi kimi ön plana çıxmışdır. Qeyd olunanlar ölkənin milli maraqlarının təmini baxımdan müstəsna əhəmiyyət kəsb edirdi və Ulu Öndər bunu belə səciyyələndirirdi: "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır". Bu yanaşma əsasında verilən təhsil gənc nəslin formalaşmasında, onlara milli-mənəvi dəyərlərin aşılanmasında mühüm rol oynamışdır. Elə bu da cəmiyyətin harmonik inkişafına və milli kimliyin qorunmasına əvəzsiz töhfələr vermişdir. Məhz Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində 1970-ci illərdən etibarən Azərbaycanda ümumtəhsil məktəblərinin sayı dəfələrlə artmışdır. 1965-ci ildə belə məktəblərin sayı 700-dən biq qədər artıq idisə, 1982-ci ildə bu rəqəm 4267-yə yüksəlmişdir. 1969-1982-ci illər ərzində Azərbaycanda beş yeni ali təhsil müəssisəsi fəaliyyətə başlamışdır. Azərbaycan xalqının bu böyük oğlunun təşəbbüsü və uzaqgörənliyi nəticəsində 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəbin yaradılması həm ölkənin, həm də gənclərin həyatında ciddi yeniliklərlə müşayiət olunmuşdur. Ümumiyyətlə, bu məktəb milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrin formalaşmasında əsas bazislərdən birinə çevrilmişdir və xalqımız onun bəhrəsini bu gün də görür. Ulu Öndərin böyük dühası ilə ötən əsrin 70-80-ci illərində Azərbaycanda təhsil müəssisələrinin geniş şəbəkəsi yaradılmış, onların dünyanın ən qabaqcıl standartları əsasında fəaliyyəti üçün hər cür şərait formalaşdırılmışdır.

Yenə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən mühüm addımlardan biri də azərbaycanlı gənclərin keçmiş SSRİ-nin və digər ölkələrin aparıcı ali məktəblərində təhsil almasının təşkili olmuşdur. 1970-1980-ci illərdə Sovetlər İttifaqının 170-dən çox nüfuzlu ali məktəbində 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil alması məhz Ümummilli Liderin sayəsində də mümkün olmuşdur. Bu siyasət nəticəsində minlərlə gənc müxtəlif sahələr üzrə yüksəkixtisaslı mütəxəssis kimi yetişərək ölkəmizə qayıtmış, milli kadr potensialı daha da güclənmiş, gənclər dövlət quruculuğunda mühüm rol oynamağa başlamışlar.

Digər tərəfdən, bu istiqamətdə görülən işlər yalnız kadr hazırlığı baxımından deyil, həm də Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsi və inteqrasiyası baxımından əhəmiyyətli olmuşdur. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu 1982-1987-ci illər ərzində də Ulu Öndər gənclərimizin müxtəlif xarici ölkələrdə təhsil almasına xüsusi diqqət yetirmiş, belə şəxsləri Azərbaycanın milli sərvəti kimi yüksək qiymətləndirmişdir. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı ilə gənclər və təhsil siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Müstəqil dövlət quruculuğu şəraitində bu sahədə həyata keçirilən islahatlar daha sistemli və məqsədyönlü xarakter almış, təhsil sisteminin yeni çağırışlara cavab verən hüquqi bazası formalaşdırılmış, müvafiq qanunlar qəbul edilmişdir. Bu dövrdə digər istiqamətlərdə olduğu kimi gənclər siyasəti də institusional xarakter almış, gənclərlə iş üzrə dövlət strukturları yaradılmış, müxtəlif proqramlar və strategiyalar qəbul edilmişdir. 1998-ci ilin martında Heydər Əliyevin imzaladığı sərəncamla Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradılmış, 1999-cu il iyunda isə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunmuşdur. "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında", "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" fərmanlar ölkədə təhsilin dünya standartları səviyyəsinə çatdırılmasında böyük önəm kəsb etmiş, bundan gənclər də əhəmiyyətli dərəcədə bəhrələnmişlər. Ümummilli Liderin təşəbbüsü və iradəsi ilə 1997-ci ildə təsis edilən Azərbaycan Gəncləri Günü gənc nəslə yüksək diqqət və qayğının daha bir təzahürünə çevrilmişdir.

Ümumiyyətlə, Ulu Öndərin hakimiyyətdə olduğu bütün dövrlərdə ölkəmizdə gənclərdən ibarət yüksəkixtisaslı mütəxəssislərin hazırlanması əsas prioritetlərdən biri kimi müəyyənləşdirilmişdir. Qeyd olunan məqsədlə həm yerli ali təhsil müəssisələrinin inkişafına diqqət yetirilmiş, həm də gənclərin xarici ölkələrin nüfuzlu universitetlərində təhsil almasına şərait yaradılmışdır. Eyni zamanda təhsil sistemi ilə elmi-tədqiqat institutları arasında əlaqələrin gücləndirilməsi, innovativ düşüncənin təşviqi siyasətin mühüm istiqamətlərindən biri olmuşdur. Təhsil prosesində Azərbaycan dilinin, tarixinin və mədəniyyətinin tədrisinə xüsusi önəm verilmişdir. Yürüdülən gənclər siyasəti yalnız təhsil sahəsi ilə məhdudlaşmamış, cəmiyyətin bu təbəqəsinin sosial fəallığının artırılması, onların dövlət quruculuğu prosesinə cəlb olunması və vətənpərvərlik ruhunda tərbiyə olunması kimi istiqamətləri də əhatə etmişdir. Bütün bunların nəticəsi olaraq, Azərbaycanda savadlılıq səviyyəsi yüksəlmiş, elmi potensial güclənmiş və gənclərin cəmiyyətə inteqrasiyası daha effektiv şəkildə təmin olunmuşdur.

Həyata keçirilən bu siyasət Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab İlham Əliyevin yürütdüyü dövlət siyasətində təhsil və gənclər sahələri ayrılıqda deyil, qarşılıqlı əlaqədə və vahid strateji xətt çərçivəsində inkişaf etdirilən istiqamətlər kimi özünü qabarıq şəkildə büruzə verir. Bu vəhdət müasir Azərbaycan cəmiyyətinin davamlı inkişafının təmin olunmasına yönəlmiş kompleks yanaşmanı əks etdirməklə yanaşı, qloballaşmanın və texnoloji transformasiyanın sürətləndiyi bir dövrdə ən qiymətli sərvət olan insan kapitalının formalaşmasına böyük töhfələr verir.

Azərbaycan liderinin siyasətində gənclər, sadəcə, bir sosial qrup kimi deyil, həm də dövlətin strateji resursu olaraq qiymətləndirilir və onların inkişafı təhsil sistemi ilə birbaşa əlaqələndirilir. Belə yanaşma nəticəsində təhsil sahəsində həyata keçirilən islahatlar gənclərin hərtərəfli inkişafına xidmət edir, gənclər siyasəti isə təhsil vasitəsilə əldə olunan bilik və bacarıqların real həyatda tətbiqinə müvafiq zəmin yaradır. Nəticədə təhsil və gənclər siyasəti arasında üzvi bağlılıq formalaşır və bu, dövlətin uzunmüddətli inkişaf strategiyasının əsas sütunlarından birinə çevrilir. Təhsil sisteminin davamlı şəkildə modernləşdirilməsi bu vəhdətin əsas elementlərindən biri kimi daim özünü qabarıq şəkildə büruzə verir.

Digər tərəfdən, gənclər siyasəti təhsil prosesinin davamı kimi çıxış edərək bu aktiv təbəqənin təmsilçilərinin cəmiyyətə inteqrasiyasını uğurla təmin edir. Xüsusən də gənclərin ictimai-siyasi fəallığının artırılması, onların liderlik bacarıqlarının inkişaf etdirilməsi və müxtəlif sosial layihələrdə iştirakı bu siyasətin mühüm istiqamətləri hesab olunur. O da olduqca mühümdür ki, sözügedən prosesdə təhsil vasitəsilə formalaşan bilik və dəyərlər praktik müstəvidə tətbiq olunur və gənclərin cəmiyyətin aktiv üzvlərinə çevrilməsi təmin edilir. Başqa sözlə, təhsil və gənclər siyasəti bir-birini tamamlayaraq möhtəşəm nəticələrin əldə edilməsinə gətirib çıxarır. Bunlara paralel olaraq, təhsildə innovativ təlim metodlarının tətbiqi gənclərin daha çevik və adaptiv fərdlər kimi formalaşmasında müsbət rol oynayır. Eyni zamanda gənclərin xaricdə təhsil alması və beynəlxalq təcrübə qazanması da həyata keçirilən siyasətin mühüm komponentidir.

Dövlət tərəfindən həyata keçirilən proqramlar vasitəsilə gənclərin dünyanın aparıcı təhsil müəssisələrində təhsil alması müvəffəqiyyətlə təşviq edilir. Buna konkret nümunə kimi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nı qeyd etmək olar. Bu proqram çərçivəsində minlərlə azərbaycanlı gənc dünyanın aparıcı universitetlərində müxtəlif ixtisaslar üzrə təhsilalma imkanı əldə etmişdir. Sözügedən istiqamətdə görülən işlərin davamı olaraq, Prezident İlham Əliyev "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nı təsdiq etmişdir. Daha sonra Prezidentin imzaladığı sərəncama müvafiq olaraq, dövlət proqramının müddəti uzadılmış və 2022-2028-ci illər olaraq müəyyən edilmişdir. Bu proqramlar yalnız fərdi inkişaf baxımından deyil, həm də ölkənin ümumi inkişafı prizmasından əhəmiyyətlidir. Xaricdə təhsil alan gənclər əldə etdikləri bilik və təcrübəni ölkəyə gətirərək müxtəlif sahələrdə tətbiq edir və bu da milli kadr potensialının güclənməsinə gətirib çıxarır.

Daha bir vacib hal odur ki, Prezident İlham Əliyevin müəyyən etdiyi siyasi və ideoloji xətt çərçivəsində Azərbaycan gəncliyi milli maraqların qorunmasını, dövlətə sədaqəti və ictimai məsuliyyəti öz fəaliyyətinin əsas prinsipləri kimi qəbul edir. Belə bir yanaşma nəticəsində formalaşan gənc nəsil yalnız sosial fəallığı ilə deyil, həm də dövlətçilik düşüncəsinə malik olması ilə fərqlənir. Müasir Azərbaycan gəncləri ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayan, milli maraqlara sadiq və vətənpərvərlik ruhunda yetişmiş bir qüvvə kimi çıxış edir. Onların dövlət başçısına olan dəstəyi yalnız siyasi mövqe deyil, eyni zamanda milli həmrəyliyin və ideoloji bütövlüyün ifadəsi kimi qiymətləndirilə bilər. 2020-ci ildə baş verən Vətən müharibəsi bir daha Azərbaycan gəncliyinin bu ideoloji və siyasi xətt ətrafında necə səfərbər olduğunu aydın şəkildə nümayiş etdirdi. Müharibə dövründə gənclər həm ön cəbhədə, həm də arxa cəbhədə yüksək fədakarlıq və vətənpərvərlik qətiyyəti göstərmiş, Ali Baş Komandanın çağırışlarına böyük ruh yüksəkliyi ilə cavab vermişlər.

Burada xüsusilə diqqətəlayiq məqamlardan biri ondan ibarətdir ki, 1990-cı illərin əvvəllərində doğma torpaqlarını tərk etməyə məcbur qalan nəsil 2020-ci ildə artıq yetkin və vətənpərvər gənclər kimi həmin ərazilərin azad olunmasında fəal iştirak etmişdilər. Bu fakt son onilliklər ərzində aparılan gənclər və təhsil siyasətinin uğurlu nəticəsi kimi qiymətləndirilə bilər. Ümumiyyətlə, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan gəncliyi yüksək döyüş ruhu, vətənə bağlılıq və milli birlik nümayiş etdirmişdir. Dövlət başçısı 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan bayrağını ucaldarkən qeyd etmişdir: "Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq".

*Gənclərimizin 44 günlük savaşda və ondan sonrakı əməliyyatlarda göstərdiyi qəhrəmanlıq nümunəsi gələcək nəsillər üçün vətənpərvərlik və dövlətə sədaqət baxımından böyük örnəkdir. Bu gün cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət nəticəsində formalaşan Azərbaycan gəncliyi dövlətçilik ideyalarına sadiq, milli maraqları üstün tutan və ölkənin gələcək inkişafında aparıcı rol oynamağa qadir olan bir nəsli təmsil edir. Barəsində bəhs olunan bu nəsil yalnız günümüzün deyil, həm də Azərbaycanın gələcək nailiyyətlərinin əsas təminatçısı kimi çıxış edir.*

***Veysəl VƏLİYEV,***
***Azərbaycan Respublikasının Ali Məhkəməsinin Məhkəmə təcrübəsinin təhlili şöbəsinin Mülki və kommersiya işləri üzrə məhkəmə sektorunun məsləhətçisi***

● 5 May Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günüdür

# İlmə-ilmə toxunan həyat

**Bəzən insanın taleyi bir saniyənin içində dəyişir. Gün sanki həmişəki kimi başlayır, zaman öz axarı ilə süzülür, heç bir təhlükə görünmür. Amma həyatın gözlənilməz bir anında baş verən hadisə bütün planları, xəyalları, gələcəyi alt-üst edir. O andan sonra həyat artıq əvvəlki kimi olmur. Kimisi bu dəyişiklik qarşısında sınır, kimisi isə həmin dağıntıların içindən yenidən doğulur. Bu, məhz ikinci yolu seçənlərin - büdrəsə də, yoluna davam edənlərin əzmkar hekayəsidir.**














Solmaz Səfərovanın ömür yolu da hamar olmadı. Onun yaşam mübarizəsi həm də səbrin, iradənin, özünü yenidən tapmağın canlı sübutuna çevrildi. Bununla o, insan ruhunun nə qədər güclü ola biləcəyini göstərdi.

### Uşaqlıqdan başlayan çətin yol

1984-cü ildə Siyəzən rayonunun Böyük Həmyə kəndində dünyaya gələn Solmazın həyatı hələ doğulmamışdan sınaqlarla başlayıb. O, atasını heç vaxt görməyib. Atası onun anasının bətnində olduğu vaxt, cəmi 7 aylıqkən dünyasını dəyişib. 42 yaşında həyatla vidalaşan atadan sonraya 6 uşaq və hamilə qadın qalıb. Anası cəmi 34 yaşında yeddi uşağın yükünü çiyninə götürməli olub. Bu, təkcə maddi yox, həm də mənəvi baxımdan ağır bir həyat demək idi. Solmaz deyir ki, o günləri xatırlayanda hələ də göz yaşlarını saxlaya bilmir.

Solmazın həyatında kəskin dönüş 19 yaşında baş verir. Evdə olduğu zaman hündürlükdən yıxılır və bununla bütün həyatı bir anda dəyişir. Yerdən qalxmaq istəyəndə ayaqlarını hiss etmədiyini anlayır. Baxır ki, ayaqları yerindədir, amma heç bir hiss yoxdur. Solmaz bir daha ayağa qalxa bilmir. Xəstəxanada məlum olur ki, onurğa travması alıb, fəqərələri sınıb. Dəfələrlə əməliyyat olunub. Solmazın yenidən sağlamlığına qovuşması üçün ailəsi əlindən gələni edir. Evdə olan hər şey satılır, pul toplanır, müxtəlif həkimlərə müraciət edilir. Amma nəticə dəyişmir...

### İnad, ümid və mübarizə

Həkimlərin "Səni qaldırsa, yalnız idman ayağa qaldıra bilər" sözünü eşidən Solmazın mübarizəsi elə həmin andan başlayır. Günlərlə, saatlarla, yorulsa da, ağrılardan qovrulsa da, idman edir. Bəzən gün ərzində 7-8 saat məşq edir. Özünə proqram qurur. Səhər durur, saatlarla məşq edir, bir az dincəlir, yenidən idmana başlayır. Ayaqlarını hərəkət etdirmək üçün xüsusi dəmir aparatlarla çalışır. Dəfələrlə yıxılır, ayaqlarında çatlar əmələ gəlir, amma dayanmır.

On il əlil arabasından istifadəni qəbul etmir. Bu, onun üçün sadəcə bir vasitə deyil, psixoloji baryer idi. O düşünürdü ki, əgər əlil arabasına otursa, artıq heç vaxt ayağa qalxa bilməyəcək. Bu inad Solmazı uzun müddət evə məhkum edir. İllərlə evdən çıxmır. Hər 3-4 aydan bir reabilitasiya mərkəzlərinə gedir. Orada özü kimi insanlarla tanış olur, yeni şeylər öyrənir, ruhdan düşməməyə çalışır.

2012-2013-cü illərdə həyatında yeni bir səhifə açılır. Reabilitasiya mərkəzində ona idmanla daha ciddi məşğul olmağı tövsiyə edirlər. Həmsöhbətim deyir ki, uzun illər evdə etdiyi idman hərəkətləri onu qüvvətləndirmişdi: "Xüsusilə qollarım çox güclü idi. Yüngül atletika növünü seçdim, disk atma, nüvə atma və nizə atma ilə məşğul olmağa başladım. Siyəzən rayonunda yaşadığım üçün Bakıda qalmağa yerim yox idi. Belə qərara alındı ki, elə Ramanada yerləşən 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində yaşayım. Həm Gənclikdə yerləşən məşq yerimə gedib-gəlirdim, həm də buradakı dərnəklərə qoşulurdum. 2013-cü ildən 2018-ci ilə qədər paralimpiya ailəsinin üzvü oldum. Bu illər həyatımın dönüş nöqtəsi oldu".

Solmazın həyatında ən böyük dönüşlərdən biri də əlil arabasını qəbul etməsi olur. Bu, onun üçün məğlubiyyət deyil, azadlıq olur. Artıq o, evdən çıxır, işləyir, cəmiyyətin aktiv üzvünə çevrilir. Solmaz beynəlxalq turnirlərdə iştirak edir, Avropa və dünya çempionatlarına qatılır. Hətta Avropa çempionatında 3-cü yerə layiq görülür. İdman onun üçün sadəcə fiziki fəaliyyət deyildi. Bu, onun cəmiyyətə qayıdışı idi. Evdən çıxmayan Solmaz artıq dünyanı gəzir, insanlarla tanış olur, özünü sübut edir.

### Növbəti sınaq

Amma həyat onu yenə də sınağa çəkir. 2017-2018-ci illərdə onurğasında yenidən problemlər yaranır. Kəskin ağrılar başlayır. İdmanla məşğul olmaq mümkünsüz hala gəlir. İdmandan uzaqlaşmaq onun üçün ağır qərar olur. Amma bu dəfə o artıq əvvəlki Solmaz deyildi. Mübarizə aparmağı öyrənmişdi. O bilirdi ki, həyatda bir qapı bağlananda digəri açılır. Və həyat bütün çətinliklərə baxmayaraq, davam edir.

Reabilitasiya mərkəzində yaşayarkən idmanla birlikdə müxtəlif dərnəklərə qatılır, özünü toxuculuq, dərzilik və digər sənətlərdə sınayır. Amma xalçaçılıq ona daha doğma gəlir. Uşaqlığı yoxsulluq, zəhmət və çatışmazlıqlar içində keçsə də, onların evində bir şey heç vaxt əskik olmayıb - əmək və sənət. Vaxtilə ailələrində hər kəs xalçaçılıqla məşğul olub. Nənəsi, anası, bacıları, xalaları, bibiləri - hamısı xalça toxuyurdu. Solmaz da gözünü açandan xalça dəzgahları görüb, uşaq oyunlarını belə onların yanında oynayıb. Amma o vaxtlar bu sənətə xüsusi maraq göstərməyib. Artıq xalçaçılıq onun həyatının mərkəzinə çevrilib. İlmə-ilmə naxışlar toxuyur, səbirlə əsərlər yaradır, bu sənətdə püxtələşir, öz üslubunu formalaşdırır. Əvvəlcə kiçik xalçalar toxumağa başlayır, sərgilərdə iştirak edir. Əl işləri alıcı tapdıqca bu, ona həm maddi dəstək, həm də motivasiya verir.

### Onlar da mənim kimidir...

Solmazın istedadı və əzmi diqqətdən kənarda qalmır. Təxminən beş il öncə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində təlimçi kimi fəaliyyətə başlayır. O, burada sadəcə xalça toxumağı öyrətmir, həm də həyatı, fiziki məhdudiyyətlərlə yaşamağı öyrədir.

"Onlar mənim kimidir", - deyir Solmaz - "Ona görə də tələbələrimin hisslərini bu qədər yaxşı anlayıram". Onlarla yalnız müəllim kimi deyil, həm də dost kimi davranır, motivasiya verir, öz hekayəsini paylaşır, özlərini olduqları kimi qəbul etmələrinə kömək edir.

Solmaz heç kimə möhtac olmadan özünü idarə edə bilir. Bu, onun üçün böyük nailiyyətdir. Solmazın həyat fəlsəfəsi sadə, amma dərin məna daşıyır: "Həyatda əsas cansağlığıdır. Onsuz heç nəyin mənası yoxdur". Bu sözlər onun üçün sadəcə fikir deyil, yaşanmış bir həqiqətdir.

Solmaz Səfərovanın hekayəsi təkcə çətinliklərin hekayəsi deyil. Bu, insanın özünü yenidən var etməsinin, həyatla barışmasının, onu yenidən sevməsinin hekayəsidir. O, uzun illər özü özüylə mübarizə aparıb və nəhayət, həyatını yenidən qazanıb. Solmaz taleyini qəbul edib. Məhz bu qəbul onu azad edib. O, artıq təkcə öz həyatını dəyişmir, başqalarının da həyatına işıq olur, güc verir. Çünki bəzən ən böyük güc ən böyük dərdi yaşamış insanlarda olur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


**BP, Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ yatağının işlənməsi üzrə risk xidmət sazişinin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, iş proqramı çərçivəsində boru dəstlərinin istehsalı obyektinin tikintisinə aid Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə variantı Podratçı tərəflərin adından hazırlanıb və nəşr edilib.**

Sənəddə təklif edilən tikinti fəaliyyətlərinin xülasəsi verilir, bu fəaliyyətlərin ətraf mühitə və sosial iqtisadi sahəyə potensial təsirləri araşdırılır və tövsiyə edilən təsirazaltma və monitorinq tədbirləri təsvir edilir. ƏMSSTQ prosesi təklif edilən işlərin nəticəsində yarana biləcək hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirlərin müəyyənləşdirilməsini, minimuma endirilməsini və mümkün olan hallarda, aradan qaldırılmasını təmin etmək məqsədi daşıyır.

Boru dəstləri istehsalı obyekti Qarabağ layihəsi, həmçinin gələcəkdə Xəzər dənizində digər neft və qaz işlənmə layihələri üçün sualtı boru kəməri dəstlərinin ölkədə istehsalı və sınaqdan keçirilməsi məqsədilə Bakı şəhərindən təxminən 85 km cənub-qərbdə, Bəndovan burnunun yaxınlığında inşa ediləcək. Layihə istehsal zonasının, boru dəstləri üçün rels əsaslı hərəkət zolağının, yedəkləmə əməliyyatları üçün dənizə buraxma yolunun, boru anbarlarının, köməkçi avadanlıqların, əməliyyatlar mərhələsi üçün yaşayış düşərgəsinin, ofislərin və çınqıl döşənmiş giriş yolunun tikintisini əhatə edir. Tikinti fəaliyyətlərinin 2026-cı ilin üçüncü rübündə başlanması və 2028-ci ilin birinci rübündə tamamlanması gözlənilir. Obyektin istismarı və layihənin dənizdə işlənmə mərhələsi ilə bağlı təsirin qiymətləndirilməsi ayrı bir müvafiq sənəddə əhatə olunacaq.

Maraqlı tərəflərlə məsləhətləşmələrin aparılması ƏMSSTQ prosesinin mühüm hissəsidir. Maraqlı tərəflərin dinlənməsi və fikirlərinin sənədləşdirilməsi, əsas maraqlı tərəflərin birgə fikirlərinin layihələndirmə işlərində və ƏMSSTQ sənədində əksini tapmasını təmin edir.

ƏMSSTQ sənədinin və qeyri-texniki xülasənin layihə variantları bütöv olaraq Azərbaycan və ingilis dillərində hazırlanıb və sənədlə aşağıdakı keçid və QR kodu vasitəsilə BP-nin veb-səhifəsində tanış ola bilərsiniz:

**Azərbaycan dilində:**
**https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari/Qarabag-layihesi.html**

**İngilis dilində:**
**https://www.bp.com/en_az/azerbaijan/home/news/reports/environmental-and-social-documentation/Karabakh-project.html**

1 may 2026-cı il tarixindən etibarən bu sənədlərin nüsxələri ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda da yerləşdirilib:

- BP-nin Xəzər Mərkəzi Ofisinin qəbul şöbəsi, Neftçilər prospekti, 153
- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Xaqani küçəsi, 29
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elmi Kitabxanası, Hüseyn Cavid küçəsi, 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Azadlıq prospekti, 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bəhram Ağayev küçəsi, 100a
- Bakı Ali Neft Məktəbinin kitabxanası, Kampus, yeni Salyan şosesinin 3-cü kilometri.
- Şirvan Milli Parkı, Salyan rayonu, Yenikənd

ƏMSSTQ sənədinin layihə variantı barədə fikir və rəyləriniz bizim üçün əhəmiyyətlidir. Qeydlərinizi və rəylərinizi:

- doldurulmuş rəy formaları ilə birlikdə elektron məktubla **esiafeedback@bp.com** ünvanına və ya
- doldurulmuş rəy formaları ilə birlikdə poçt ilə AZ1010, Neftçilər prospekti, 153, Port Baku, BP Xəzər Mərkəzinə göndərə və yaxud
- doldurulmuş rəy formalarını yuxarıda sadalanan ictimai yerlərdən istənilən birinə təqdim edə bilərsiniz.

**ƏMSSTQ sənədinin açıqlanma müddəti 31 may 2026-cı il tarixinədəkdir.**

ƏMSSTQ sənədinin layihə variantı barədə fikir və rəylərinizi gözləyirik.


# "AzerGold"un qızıl və gümüş məhsulları Beynəlxalq Xalça Festivalında nümayiş olunub

**2-3 may 2026-cı il tarixlərində İçərişəhərdə keçirilən Beynəlxalq Xalça Festivalı çərçivəsində "AzerGold" QSC xalça konsepsiyalı sərgi stendi ilə təmsil olunub.**





"Azərxalça" ASC, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, İqtisadiyyat Nazirliyi və AZPROMO-nun dəstəyi ilə təşkil edilən festivalda dövlət şirkətinin 13 çeşiddə qızıl və 5 çeşiddə gümüş sikkələrdən ibarət kolleksiyaları, eləcə də investisiya məhsulları təqdim edilib.

"AzerGold" stendində xalçaçılıq elementlərini özündə ehtiva edən qızıl və gümüş məhsullar nümayiş etdirilib. Burada, həmçinin Azərbaycanın tarixi şəxsiyyətlərini, milli və mənəvi dəyərlərini əks etdirən numizmatika nümunələri və müxtəlif mövzularda hazırlanmış sikkələr təqdim olunub.

"AzerGold" və "Azərxalça" birgə layihə əsasında ziyarətçilərə "ipəklə gümüşün harmoniyası" adlı fərqli vizual təcrübə təqdim edib. "Smartminting" (yüksək relyefli zərb texnologiyası) ilə ərsəyə gətirilən və nəsli kəsilmək təhlükəsi altında olan fauna növlərinə həsr edilmiş "Nadir fauna növləri" adlı yeni nəsil gümüş sikkələr və bu kolleksiyanın xalça interpretasiyası izləyicilərin böyük marağına səbəb olub. Azərbaycan Respublikasının "Qırmızı kitab"ı, o cümlədən Beynəlxalq Təbiətin Mühafizəsi İttifaqının "Qırmızı siyahı"sının nəsli kəsilmək təhlükəsi olan canlılar kateqoriyasına daxil edilmiş nadir fauna növləri - ceyran, bəbir və bezoar keçisi haqqında yerli və xarici qonaqlara ətraflı məlumat verilib. Stenddə "Bəbir" xalçasının kəsim prosesi də interaktiv şəkildə nümayiş etdirilib.

“AZƏRBAYCAN”a cavab verirlər

# Televiziya məkanında ictimaiyyətin narazılığına səbəb olan məsələlər diqqətdə saxlanılır

**Qəzetimizin 02 aprel 2026-cı il tarixli sayında dərc edilmiş "Nəhayət!" sərlövhəli məqaləyə Azərbaycan Respublikasının Audiovizual Şurası cavab məktubu ünvanlamışdır. Məktubda deyilir:**

"Media haqqında" qanunun 5-ci maddəsində təsbit olunmuşdur ki, Azərbaycan Respublikasında media azaddır, media sahəsində dövlət senzurası qadağandır. Media sahəsində fəaliyyət yaradıcılıq və redaksiya müstəqilliyi prinsiplərinə əsaslanır. Belə ki, hər hansı proqramın hazırlanması, məzmununun müəyyən edilməsi, efir siyasətinin formalaşdırılması, o cümlədən proqramın fəaliyyətə başlaması və ya dayandırılması məsələləri yayımçıların redaksiya siyasəti çərçivəsində həll olunur. Audiovizual Şura redaksiya fəaliyyətinə müdaxilə etmək, proqramların məzmunu ilə bağlı qərar vermək və ya bu qəbildən olan məsələlərə hüquqi qiymət vermək kimi səlahiyyətə malik deyildir. Yalnız yayımlanan proqram zamanı qanun pozuntusu halları müəyyən edildiyi təqdirdə Audiovizual Şura tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin görülməsi mümkündür.

Bununla yanaşı, Audiovizual Şura tərəfindən mütəmadi olaraq yayımçıların rəhbərləri və redaksiya üzrə məsul şəxslərlə görüşlər keçirilir, televiziya məkanında ictimaiyyətin narazılığına səbəb olan məsələlər diqqətə çatdırılır, qanunvericiliyin və peşə etikası qaydalarının tələblərinə riayət olunması ilə bağlı tövsiyələr verilir. Bu tövsiyələr media mühitində ictimai maraqların və milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir".

BEYNƏLXALQ HƏYAT

# İrana məxsus "Touska" gəmisinin heyəti Pakistana təhvil verilib

**Ötən ayın 19-da ABŞ Hərbi Dəniz Qüvvələri tərəfindən saxlanılan İrana məxsus "Touska" yük gəmisinin heyətinin təxliyəsi başa çatıb. Pakistan Xarici İşlər Nazirliyinin sözçüsü Tahir Hüseyn Əndrabi Amerika şirkəti "X"in sosial media paylaşımında 22 heyət üzvünün ölkəyə gəldiyini açıqlayıb.**



O, heyət üzvlərinin İran hakimiyyət orqanlarına təhvil veriləcəyini və gəminin özünün zəruri təmir işləri başa çatana və gəmi qanuni sahibinə qaytarılana qədər müvəqqəti olaraq Pakistanın ərazi sularında qalacağını qeyd edib. Əndrabi prosesin həm İran, həm də Amerika tərəflərinin birgə dəstəyi ilə əlaqələndirildiyini vurğulayıb.

Bəyanatda deyilir: "Pakistan bu cür etimad quruculuq tədbirlərini alqışlayır və regional sülh və təhlükəsizlik üçün vasitəçilik səylərini dəstəkləyərkən dialoq və diplomatiyanı təşviq etməyə davam edəcək".

ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) sözçüsü Tim Hokins ABC News telekanalına 22 heyət üzvünün sonradan İrana qaytarılması üçün Pakistana köçürülməsinin başa çatdığını təsdiqləyib. O, həmçinin gəminin sahibinə qaytarılacağını bildirib.

İran xəbər agentliyi "Tasnim"in məlumatına görə, adı açıqlanmayan bir iranlı məmur 28 heyət üzvündən 6-nın artıq azad edilərək İrana qaytarıldığını və qalan ekipaj üzvlərinin azad edilməsi üçün səylərin davam etdiyini bildirib.

Daha əvvəl ABŞ Prezidenti Donald Tramp Oman körfəzindən gələn və Hörmüz boğazından keçməyə cəhd edən İran yük gəmisi "Touska"nın aprelin 19-da saxlanıldığını açıqlamışdı.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Fransada dünəndən bütün tələbələr 1 avroya nahar edə bilirlər

**Əvvəllər bu tədbir yalnız qrant alanlara və çətin vəziyyətdə olan tələbələrə şamil edilirdi. Lakin bazar ertəsi - mayın 4-dən etibarən ali təhsil müəssisələrində təhsil alanlara da şamil olunur.**




Qeyd olunan tarixdən etibarən gəlirlərindən asılı olmayaraq, bütün tələbələr Fransadakı universitet kafeteriyalarında 1 avroya yemək yeyə biləcəklər. Əvvəllər təqaüd alan və ya çətin vəziyyətdə olan tələbələr üçün ayrılmış bu sxemin genişləndirilməsi, Baş nazir Sebastyan Lekornu tərəfindən yanvar ayında elan edilən alıcılıq qabiliyyətini dəstəkləməyə yönəlmiş bir sıra islahatların tərkib hissəsidir. Hökumət elan edib ki, hər kəs üçün 1 avroluq yemək "bütün Crous restoranlarında və mümkün olduqda digər iaşə məntəqələrində (kafeteriyalar və s.)" tətbiq ediləcək.

Qeyd edək ki, tələbə təşkilatları tərəfindən uzun müddətdir belə bir qərarın qəbul edilməsi tələb olunurdu. 1 avroluq yemək artıq tələbə və ya peşəkar tələbə kartları sahiblərinin hamısı ("sendviç" sistemində təhsil alan təcrübəçilər və tələbələr), doktorantlar və dövlət qulluğu işçiləri üçün əlçatandır. Statuslarını sübut etmək üçün onların Crous tərəfindən idarə edilən ödəniş sistemi olan aktiv Izly hesabı olmalıdır.

Crous rəhbərliyinin bildirdiyinə görə, 1 avroluq yemək əsas yeməkdən və maksimum iki əlavə yeməkdən (qəlyanaltı, pendir, desert, meyvə və s.) ibarət olacaq. "İstəyən tələbələr əlavə yemək sifariş edə bilərlər. Bunun dəyəri isə hər bir Crous-un direktorlar şurası tərəfindən müəyyən ediləcək". Həmin sxem hər tələbə üçün bir dəfə nahar zamanı təklif ediləcək və axşam saatlarında açıq olan universitet restoranlarında şam yeməyi üçün də keçərli olacaq.

Hökumət bu sxemin tətbiqini dəstəkləmək və tələbə yoxsulluğunun aradan qaldırılması üçün 2026-cı il büdcəsində təxminən 50 milyon avro ayırıb və Crous bu proqramdan istifadə edən tələbələrin sayında gözlənilən artımın öhdəsindən gəlmək üçün əlavə 200 işçi işə götürməyi planlaşdırır.

Rəsmi məlumatlara görə, ötən il Crous tərəfindən idarə olunan müəssisələrdə 44 milyondan çox yemək verilib ki, bu da 2024-cü illə müqayisədə cüzi artım (+1,4 faiz) deməkdir. Bu yeməklərin yarısı təqaüd alan tələbələr və aztəminatlı qruplar tərəfindən istifadə olunub.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

# İran ABŞ ilə yalnız münaqişəyə son qoyulmasını müzakirə etdiyini bildirib

**"Tehran və Vaşinqton arasında aparılan danışıqlar yalnız silahlı münaqişəyə son qoyulması ilə bağlı məsələlərə yönəlib və İranın nüvə proqramı müzakirə olunmur". Bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü Esmail Bəqai bildirib.**



"Uranın zənginləşdirilməsi və ya nüvə materiallarının gələcəyi ilə bağlı müzakirələr barədə məlumatlar, sadəcə, fərziyyədir. Bu mərhələdə müharibəyə tam son qoyulmasından başqa heç nəyi müzakirə etmirik və gələcəkdə necə hərəkət edəcəyimizə sonralar qərar verəcəyik", - deyə IRNA agentliyi Bəqainin sözlərini sitat gətirib.

Xarici İşlər Nazirliyinin nümayəndəsi qeyd edib ki, hələ danışıqların təfərrüatlarını bölüşməyə hazır deyil. Lakin o, Tehranın fikrincə, ABŞ-nin maksimal tələblərini nəzərə alaraq, Vaşinqtonun İranın təkliflərinə asan cavab hazırlayacağına əmin olmadığını vurğulayıb.

Əvvəlki gün İran Xarici İşlər Nazirliyi Tehranın münaqişənin Pakistan vasitəsilə həlli təkliflərinə ABŞ-nin cavabını aldığını açıqlayıb. Daha sonra ABŞ Prezidenti Donald Tramp İranın təkliflərini qəbuledilməz adlandırıb. Qətərin "Əl-Cəzirə" telekanalının məlumatına görə, İranın təklifləri 14 bənddən ibarətdir və sənəddə münaqişəyə 30 gün ərzində son qoyulması tələb olunur.

Digər məsələlərlə yanaşı, təkliflərdə ABŞ-dən İranın dəniz blokadasını aradan qaldırmağı, ölkəyə qarşı tətbiq olunan bütün sanksiyaları ləğv etməyi, İranın aktivlərini qaytarmasını və təzminat ödəməyi tələb edilir. Təkliflərdə İranın nüvə proqramı məsələsinə toxunulmur.

***R.HİLALOĞLU,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Paytaxtın davamlı inkişaf strategiyasının mühüm elementi
Azərbaycan idman sahəsində də qalib ölkədir
Prezident İlham Əliyev Bakının İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak edib
Prezident İlham ƏLİYEV: "Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər"
Şəhərlərin gələcəyi iki həftə sonra Bakıda yazılacaq
Azərbaycan Respublikası Milli Məclisi Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə əlaqədar qərar qəbul etmişdir
Azərbaycanın "Elm Sarayı"
Sülh, yoxsa xəstə təfəkkür
Bakı lobbilərin oyuncağına çevrilmiş Avropa Parlamenti ilə əlaqələri kəsdi
Erməni lobbisinin gizli təsir rıçaqları ifşa olunur

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Astronomlar Yerə yaxın "Kua-kua" planetinin tünd rəngli bazaltlar və qayalardan ibarət olduğunu aşkar ediblər

**Planetar alimlər Yer kürəsinə ən yaxın ekzoplanetlərdən biri olan "Kua-kua" ekzoplanetinin səthini araşdırıb, onun tünd rəngli bazaltlar və digər qayalardan ibarət olduğunu aşkar ediblər.**



AZƏRTAC xəbər verir ki, Almaniyanın Maks Plank Astronomiya İnstitutu (MPIA) Mətbuat xidmətinin məlumatına görə, bu, planeti Yerdən və ya digər havasız cisimlərdən fərqləndirir.

"Ceyms Uebb" kosmik teleskopunun ultra yüksək həssaslığı sayəsində uzaq qayalı ekzoplanetlərin səthlərindən yayılan radiasiyanı aşkar edə bilirik. Müşahidələrimiz göstərir ki, "Kua-kua" qaranlıq, isti və havasız qayalı bir dünyadır", - deyə MPIA-nın Ekzoplanetlərin atmosfer fizikası şöbəsinin müdiri Laura Kreydberq bildirib.

Alimlərin qeyd etdiyi kimi, "Kua-kua" uzun müddətdir ki, astronomlarda böyük maraq doğurur. Alimlər bu dünyanın tamamilə atmosferdən məhrum olduğu fərziyyəsini irəli sürürlər. Bu amil onu Yer planetinə deyil, Merkuri və ya Aya bənzədir. Onun süxurlarından yayılan infraqırmızı şüalanmanı izləmək yolu ilə bu planetin səthinin kimyəvi tərkibini və quruluşunu öyrənmək mümkündür. Bu şüalanma atmosferdəki qaz molekulları və su buxarı tərəfindən udulur və ya səpələnir.

Avropa və ABŞ-dən olan planetar alimlər həmin planetin ilk müşahidələrini 2021-ci ildə orbitə buraxılan "Ceyms Uebb" kosmik teleskopunun cihazlarından istifadə edərək aparıblar. Müşahidələr zamanı infraqırmızı spektrinin ölçülməsi onun, həqiqətən, tamamilə atmosferdən məhrum olduğunu göstərib. Onlar həmçinin onun səthinin qeyri-adi görünüşünü qeyd ediblər ki, bu da ekzoplaneti digər havasız dünyalardan fərqləndirir.

Alimlər böyük miqdarda olivin ehtiva edən və tünd rəngli bazalt və ya digər oxşar süxurların böyük qruplarını aşkar ediblər. Astronomlar mikroasteroidlərin "Kua-kua"nın səthinə davamlı təsirlərinin asteroid qalıqlarından və planet qabığının yuxarı təbəqələrinin fraqmentlərindən ibarət olan torpağın üst təbəqəsini yenilədiyi qənaətindədirlər.

Öz növbəsində planetin səthində bazaltların olması onu Yer kürəsindən fərqləndirir, çünki onun qabığı xeyli miqdarda qranit və digər silisiumla zəngin süxurlardan ibarətdir. Bundan başqa, ekzoplanetin daxilində tektonik prosesləri dəstəkləmək üçün zəruri olan əhəmiyyətli su ehtiyatlarının olmadığı da məlumdur.

Diametri Yer kürəsindən təxminən 30 faiz böyük və kütləsi 2,2-2,4 dəfə böyük olan "Kua-kua" (LHS 3844b) Yerdən 49 işıq ili məsafədə yerləşən Tukana bürcündə yerləşir. O, TESS orbital teleskopu tərəfindən qırmızı cırtdan LHS 3844-ün yaxınlığında kəşf edilib. LHS 3844-ün radiasiyası planetin bir tərəfini 770 dərəcə Selsiyə qədər qızdırır, əks tərəfi isə bir neçə yüz dərəcə daha soyuqdur.

# Hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək, havanın temperaturu gecə 10-13, gündüz 15-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 760 millimetr civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-14, gündüz 18-23, dağlarda gecə 3-8, gündüz 12-17 dərəcə isti olacaq.

**Bakı şəhəri 188 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş İmaməliyev Natiq Əbülhəsən oğluna verilmiş AN 271896 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının professor və müəllim heyəti Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aslan Muradov, Rəfail Mehdiyev, Fuad Cavadov, Mehdi Nəcəfov, Adil Əliyev, İlqar Məmmədov, Akşin Ziyadov, Malik Ələkbərov, Hüseyn Əlixanov, Mehman Soltanov, Rahim Rəhimov, Ağakərim Səmədzadə, Sübhi Kazımov, Çingiz Məmmədov və Cümşüd Cəfərov Elçin Qasımova atası

**LÜTVƏLİ QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aslan Muradov, Rəfail Mehdiyev, Fuad Cavadov, Mehdi Nəcəfov, Elçin Qasımov, Adil Əliyev, İlqar Məmmədov, Akşin Ziyadov, Malik Ələkbərov, Hüseyn Əlixanov, Mehman Soltanov, Rahim Rəhimov, Ağakərim Səmədzadə, Sübhi Kazımov, Çingiz Məmmədov və Cümşüd Cəfərov Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3773**
**Sifariş 564**

**Qiyməti 60 qəpik**